KHAZAR REVIEW

№ 365 Sentyabr 2017

# XƏZƏR XƏBƏR




AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org

# "XƏZƏR"DƏ YENİ DƏRS İLİ BAŞLADI









# İÇİNDƏKİLƏR


**Xəzər Universiteti dünyanın ən yaxşı 150 gənc universiteti arasında** . . . . . . . . . . . . . . **4**

**Universitet xəbərləri** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . **6**

**"Xəzər"də yeni dərs ili başladı** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . **10**

**Potensial məktəb direktorlarının növbəti kursunu bitirənlərə sertifikat təqdim olundu** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . **12**

**Professor Hamlet İsaxanlı: "Eynşteyn Azərbaycanda oxusaydı, ona attestat verməzdilər" (*Professor Hamlet İsaxanlı ilə müsahibə*)** . . . . . . . . . . . . . . . . . . . **14**

**Kozminski Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin direktoru "Xəzər"də** . . . . **16**

**Xəzər Universitetində *PETRA* layihəsinin ilk idarəedici görüşü** . . . . . . . . . . . . . . . . . **18**

**Professor reallığı deyir: "... gəlin, bizim müəllimlərin maaşına baxın!" (*Professor Hamlet İsaxanlı ilə müsahibə*)** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . **20**

**Ortaq ədəbi dilə doğru... (Xəzər Universitetinin dekanı Elza Səmədli ilə müsahibə)** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . **22**

**Hamlet İsaxanlı: "test üsulu ləğv oluna bilməz" (*Professor Hamlet İsaxanlı ilə müsahibə*)** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . **30**

**AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . **32**

**ВУЗы Азербайджана в академических рейтингах иностранных организаций (*интервью с профессором Гамлетом Исаханлы*)** . . . . . . . . . . . . . . . . . . . . . **34**

**Hamlet İsaxanlı: "Lütfi Zadə çox internasional, dünyanı bərabər görən, dinlə çox əlaqəsi olmayan, dünyəvi şəxs idi" (*Professor Hamlet İsaxanlı ilə müsahibə*)** . . . **38**

***Əjdər Ağayev.* Universitet reytinqləri bəzi adamları niyə qıcıqlandırır?!** . . . . . . . . . . **50**

**"Üzeyir Hacıbəyli alim, musiqişünas, ictimai xadim" mövzusunda konsert-konfrans** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . **56**

***Validə Kərimova.* Con Steynbekin *"Of mice and men"* novellasında "Amerika xülyası" və simvollar** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . **66**

***Leonid Andreyev.* Ədəbi gənclik (*hekayə*)** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . **70**



1995-ci ilin
yanvarından nəşr olunur

Təsisçi:
Xəzər Universiteti

Baş redaktor:
Hamlet İsaxanlı

Baş redaktor müavini:
Əlirza Babayev

Redaksiya heyəti:
Camal Mustafayev
Əjdər Ağayev
Alla Axundova
Şahin Fazil
Knyaz Aslan

İngilis dilində
mətnlərin redaktoru:
Eynur Mehdiyev

Kompüter tərtibatçısı:
Gözəl Həbibova

Foto:
Multimedia Mərkəzi

Address:
41 Mahsati str., Baku
(near the "Neftchilar" metro)
Tel.: (+99412) 323 93 13
(+99412) 421 10 93 (209)
GSM: (+99450) 321 31 69
Faks: (+99412) 493 93 79
E-mail: xazarxabar@khazar.org
Certificate: 376
Index: 67178
Copies: 3000

It has been published
since January 1995

Founder:
Khazar University

Editor-in-chief:
Hamlet Isaxanli

Associate editor:
Alirza Babayev

Editorial members:
Jamal Mustafayev
Ajdar Aghayev
Alla Akhundova
Shahin Fazil
Knyaz Aslan

Editor of English Texts:
Eynur Mehdiyev

Computer graphics:
Gozal Habibova

Photo:
Multimedia Centre




## AZƏRBAYCANDAN YEGANƏ UNİVERSİTET

### QS TOP UNIVERSITIES: "XƏZƏR UNİVERSİTETİ DÜNYA ALİ TƏHSİL MƏKANINDA SÜRƏTLƏ YÜKSƏLƏN GƏNC ULDUZDUR"

2017-ci il iyulun 14-də dünyada ali təhsili dəyərləndirən beynəlxalq QS təşkilatı "QS Top 50 Under 50" illik universitet reytinqini açıqladı. Bu reytinq bütün dünya üzrə 50 ildən az fəaliyyət göstərən gənc universitetləri əhatə edir.

Bu reytinqin əsas məqsədi yaşlarının az olmasına baxmayaraq, artıq özünü sübut etmiş və uzun tarixə malik olan universitetlərlə yarışa biləcək universitetlərin dəyərləndirilməsidir.

53 ölkədən 150 ən yaxşı gənc universitet bu siyahıya daxil edilmişdir.

Xəzər Universiteti Azərbaycandan 150 ən gənc dünya universitetləri arasında yer alan yeganə universitetdir. Xəzər Universiteti Middlesex Universiteti (Birləşmiş Krallıq), Dublin Texnologiya İnstitutu (İrlandiya), Bielefeld Universiteti (Almaniya), London Metropolitan Universiteti (Birləşmiş Krallıq), Nottingham Trent Universiteti (Birləşmiş Krallıq) və George Mason Universiteti (ABŞ) kimi tanınmış universitetlərlə bir sırada yer alıb.

Keçmiş Sovet ölkələrindən dörd ölkə – Azərbaycan, Qazaxıstan, Rusiya və Ukrayna hər biri bu siyahıda bir universitetlə təmsil olunmuşdur. Türkiyədən bu siyahıya dörd universitet (Bilkent Universiteti, Koç Universiteti, Sabancı Universiteti və Çukurova Universiteti) daxil edilmişdir.

Dünyanın gənc universitetlərinin fəaliyyəti bir sıra meyarlar üzrə qiymətləndirilib: elm və təhsil dünyasında nüfuz, işəgötürənlər arasında nüfuz, müəllim-tələbə nisbəti, nəşr etdirdiyi elmi məqalələr və onlara istinad, xarici müəllimlərin nisbəti və xarici tələbələrin nisbəti.

Reytinqin nəticələrinə görə ölkələr üzrə universitetlərin sayı aşağıdakı kimidir:

Amerika Birləşmiş Ştatları - 2; Argentina - 6; Avstraliya - 19; Avstriya - 1; Azərbaycan - 1; Belçika - 1; Bəhreyn - 1; Birləşmiş Ərəb Əmirlikləri -6; Birləşmiş Krallıq (Böyük Britaniya) -15; Braziliya -2; Bruney -1; Cənubi Afrika -3; Cənubi Koreya-6; Çili - 3; Çin - 2; Danimarka - 1; Ekvador - 1; Finlandiya - 3; Fransa - 2; Hindistan - 3; Hollandiya - 1; Honq Konq - 4; İordaniya - 1; İraq -1; İrlandiya -3; İspaniya -8; İsrail -1; İsveç -1; İtaliya - 5; Kanada - 2; Kolombiya -1; Kosta Rika -1; Qazaxıstan - 1; Qətər - 1; Makao - 1; Malayziya - 7; Meksika - 2; Norveç - 1; Oman - 1; Pakistan - 2; Portuqaliya - 2; Rusiya - 1; Səudiyyə Ərəbistanı - 2; Sinqapur - 2; Tayvan - 4; Türkiyə - 4; Ukrayna - 1; Uruqvay - 1; Venesuela - 1; Yaponiya - 1; Yeni Zellandiya - 1; Yunanıstan - 1

Daha ətraflı məlumatı bu linkdən almaq olar:

*https://www.topuniversities.com/university-rankings/top-50-under-50/2018*

## ÖLKƏ MEDİASI XƏZƏR UNİVERSİTETİNİN UĞURUNDAN YAZDI

Azərbaycan Dövlət İnformasiya Agentliyi – AZƏRTAC başda olmaqla (*http://azertag.az/xeber/Xezer_Universiteti_dunya_ali_tehsil_mekaninda-1079633#Kalibri*) ölkənin aparıcı saytları və mətbuat orqanları bu barədə xəbər yaymışlar.




## THE ONLY UNIVERSITY FROM AZERBAIJAN

## QS TOP UNIVERSITIES: KHAZAR UNIVERSITY IS THE FASTEST - RISING STAR OF THE HIGHER EDUCATION WORLD

On July 14, 2017, the QS Top 50 Under 50 2018 annual university ranking was released. QS ranked universities which have been established less than 50 years ago.

The primary objective of this ranking is to assess the potential and strengths of universities which despite their young age possess the potential to compete effectively with older well-established higher education institutions.

The top 150 young universities from 53 countries have been included to the list.

Khazar University is the only Azerbaijani university that was placed among the 150 best young world universities. Khazar University was competing with such well-known universities as Middlesex University (UK), Dublin Institute of Technology (Ireland), Universität Bielefeld (Germany), London Metropolitan University (UK), Nottingham Trent University (UK), and George Mason University (USA).

Post-Soviet Union countries are represented by Azerbaijan, Kazakhstan, Russia, and Ukraine with one university per country. Turkey has four universities (Bilkent University, Koc University, Sabancı University, Cukurova University) in the top 150 young world universities.

The performance of each university is evaluated across a range of the following indicators: academic reputation, employer reputation, student-faculty ratio, citations per faculty, international faculty ratio and international student ratio.

Distribution of the universities by countries according to ranking:

Argentina -6; Australia -19; Austria -1; Azerbaijan -1; Bahrain -1; Belgium -1; Brazil -2; Brunei -1; Canada -2; Chile - 3; China - 2; Colombia - 1; Costa Rica - 1; Denmark - 1; Ecuador - 1; Finland - 3; France - 2; Germany - 5; Greece - 1; Hong Kong - 4; India - 3; Iraq - 1; Ireland - 3; Israel - 1; Italy - 5; Japan - 1; Jordan - 1; Kazakhstan - 1; Macao, S.A.R, China -1; Malaysia -7; Mexico - 2; Netherlands -1; New Zealand -1; Norway -1; Oman -1; Pakistan -2; Portugal -2; Qatar -1; Russia -1; Saudi Arabia -2; Singapore - 2; South Africa - 3; South Korea -6; Spain -8; Sweden -1; Taiwan -4; Turkey -4; Ukraine -1; The United Arab Emirates -6; United Kingdom -15; United States - 2; Uruguay - 1; Venezuela - 1

For more information, you can visit the following link:

*https://www.topuniversities.com/university-rankings/top-50-under-50/2018*

## LOCAL MEDIA WRITE THE SUCCESS OF KHAZAR UNIVERSITY

Prominent websites and press agencies of the country, including AZERTAJ (Azerbaijan State NewsAgency:

*http://azertag.az/xeber/Xezer_ Universiteti_dunya_ali_tehsil_mekaninda-1079633#Kalibri*) spread information on this issue.

# XƏZƏR UNİVERSİTETİNƏ TƏBRİKLƏR
# CONGRATULATIONS TO KHAZAR UNIVERSITY

AMBASSADOR

**Prof. Hamlet Isaxanli**
**Founder and Chairman of the Board of Directors and Trustees,**
**Khazar University,**
**Republic of Azerbaijan,**
**Baku**

**My dear Prof. Isaxanli**

I have received your very kind letter informing about the excellent achievement by your prestigious univesity and being ranked among the 150 best young universities of the world. I would therefore like to congratulate you and the university on attaining this landmark.

I have no doubt that under your able leadership and guidance Khazar University will achieve greater laurels in the pursuit of excellence in the years to come.

I would also like to take this opportunity to convey my best wishes for your personal health and happiness.

Regards and best wishes,

**Saeed Khan Mohmand**

*Avqust 3. 2017*

**EMBASSY OF PAKISTAN BAKU**

**Prof. Hamlet İsaxanlı**
**Xəzər Universitetinin təsisçisi,**
**Direktorlar və Qəyyumlar Şurasının sədri,**
**Azərbaycan Respublikası,**
**Bakı**

**Əziz professor İsaxanlı!**

Sizin nüfuzlu universitetinizin mükəmməl nailiyyətləri və dünyanın 150 ən yaxşı universiteti siyahısında adının olduğu ilə bağlı məlumat verdiyiniz məktubunuzu aldım. Bununla əlaqədar olaraq Sizi və universiteti təbrik edirəm.

Heç bir şübhəm yoxdur ki, Sizin rəhbərliyiniz və himayəniz altında Xəzər Universiteti gələcək illərdə də daha böyük nailiyyətlər əldə edəcək.

Fürsətdən istifadə edərək Sizə can sağlığı və xoşbəxtlik arzu edirəm.

Hörmətlə və xoş arzularla,

**Said Xan Mohmand**

*3 avqust 2017-ci il*

***

AR XARİCİ İŞLƏR NAZİRLİYİ

**Xəzər Universitetinin təsisçisi,**
**Direktorlar və Qəyyumlar Şurasının sədri**
**cənab Hamlet İsaxanlıya**

**Hörmətli Hamlet müəllim!**

Xəzər Universitetinin QS Təşkilatının hazırladığı reytinqdə dünyanın 150 ən gənc universitetləri arasında yer almasına görə fərəhlənirik və bu münasibətlə Sizi səmimi qəlbdən təbrik edirik. Hesab edirik ki, bu, Xəzər Universitetinin qısa müddət ərzində əldə etdiyi nailiyyətlərə verilən layiqli qiymətin təzahürüdür.

Xəzər Universitetinə gələcək fəaliyyətində uğurlar və yeni-yeni nailiyyətlər arzu edir, eyni zamanda Xarici İşlər Nazirliyinin Xəzər Universitetinə hər zaman lazımı dəstək göstərməyə hazır olduğunu bildiririk.

Hörmətlə,

Nazir müavini
**Mahmud Məmməd-Quliyev**

*04. 08. 2017*

**To Mr. Hamlet Isakhanli,**
**Founder of Khazar University,**
**Chairman of Board of Directors and Trustees**

REPUBLIC OF AZERBAIJAN
MINISTRY OF FOREIGN AFFAIRS

**Dear Mr. Isakhanli,**

We are honoured with the news about Khazar University be amongst 150 the youngest universities in the ranking prepared by QS organization and sincerely congratulate you on this occasion. We consider this fact as a sign of appreciation for achievements accomplished in a short period of time by Khazar University.

We wish Khazar University good luck in its further activities and new accomplishments, and at the same time declare readiness of the Ministry of Foreign Affairs to always provide the necessary support to Khazar University.

Best Regards,

Deputy Minister
**Mahmud Mammad-Guliyev**

*August 4, 2017*

**Xəzər Universitetinin təsisçisi,**
**Direktorlar və Qəyyumlar**
**Şurasının sədri**
**cənab Hamlet İsaxanlıya**

**LERİK RAYON İH BAŞÇISININ APARATI**

**Hörmətli Hamlet müəllim!**

Dünyada ali təhsili dəyərləndirən beynəlxalq QS təşkilatının "QS Top 50 Under 50" illik universitet reytinq siyahısına Xəzər Universitetinin də daxil edilməsi haqqında göndərilmiş məlumatla böyük məmnuniyyətlə tanış olduq.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə təhsil sahəsində həyata keçirilən siyasətin nəticəsi olaraq ölkəmizin ali təhsil müəssisələrinin, o cümlədən Xəzər Universitetinin əldə etdiyi nailiyyətlər hər birimizi sevindirir.

Rayonun ümumitəhsil müəssisələrində məktəblilərlə mütəmadi olaraq keçirilən görüşlərdə onlara respublikamızda fəaliyyət göstərən ali təhsil müəssisələrinin, o cümlədən Xəzər Universitetinin uğurları, təhsil alanlar üçün yaradılmış əlverişli şərait haqqında məlumat verilir və bu da gələcəkdə onların özlərinə daha münasib ixtisas seçiminə kömək edir. Sevindirici haldır ki, hazırda universitetdə Lerik rayonundan olan tələbələr də təhsillərini müvəffəqiyyətlə davam etdirirlər.

Əldə etdiyiniz bu böyük nailiyyət münasibəti ilə Sizi bir daha təbrik edir, gələcək fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq.

Hörmətlə,
Başçının müavini: **Arzu Vəlimənmədova**
*04 Avqust 2017-ci il*

**To the Founder of "Khazar" University, Chairman of Board of Directors and Trustees Mr. Hamlet Isakhanli**

**APPARATUS OF THE HEAD OF EXECUTIVE COMMITTEE OF LERIK REGION**

**Dear Mr. Hamlet,**

We read the sent information about "Khazar" University to be included into "To 50 Under 50" of international QS organization evaluating world-wide education with great pleasure.

All of us is delighted by the achievements of educational institutions of our country, including "Khazar" University, which is the result of policy implemented in education sphere under the supervision of President of the Republic of Azerbaijan, Mr. Ilham Aliyev.

At the regular meetings with school students in general educational institutions, they are informed about higher educational institutions acting in our country, including the successes of "Khazar" University, favorable conditions created for its students. Such information, in turn, helps school students to choose a specialty suitable for them. It's pleasing that currently, students from Lerik region also successfully continue their education at "Khazar" University.

We congratulate you with this big accomplishment once again and wish you many-many achievements in your future activities.

Best Regards,
Vice Head of Ex-com
**Arzu Valimammadova**
*August 04, 2017*

***

**BEŞİNCİ ÇAĞIRIŞ AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN DEPUTATI**

**Hörmətli Hamlet müəllim!**

Rəhbərlik etdiyiniz təhsil müəssisəsinin 2017-ci il iyulun 14-də dünyada ali təhsili dəyərləndirən beynəlxalq QS təşkilatı "QS Top 50 Under 50" illik universitet reytinqinin açıqlamasında yer alması məndə böyük fərəh hissi oyatdı.

Xəzər Universitetinin dünyaca şöhrətli universitetlərlə bir sırada adının çəkilməsi bir daha müstəqillik dövründə Azərbaycan təhsilinin və elminin inamlı inkişafından xəbər verir. Uğurlarınız universitetinizin uzaq olmayan bir dövrdə "QS Top Dünya Universiteti" reytinqində ilk yüzlükdə yer alacağına işarə verir.

Xəzər Universitetinin əldə etdiyi nəticə Azərbaycan elminə töhfədir və məzunlarınız universitetin adını daima yüksəldəcəklər.

Sizi və rəhbərlik etdiyiniz kollektivi bir daha səmimi qəlbdən təbrik edir yeni nailiyyətlər əldə etməyinizdə uğurlar arzu edirəm.

Hörmətlə,
**Aydın Mirzəzadə**
*14 avqust 2017-ci il*

**FIFTH CALL PARLIAMENTARIAN OF MILLI MAJLIS OF THE REPUBLIC OF AZERBAIJAN**

**Dear Mr. Isakhanli,**

I am honoured by the fact that the educational institution under your supervision is placed in the annual university ranking of international QS organization appraising world-wide higher education "QS Top 50 Under 50" published on July 17, 2017 by QS.

The fact that Khazar University is amongst world's famous universities, once again proves strong development of education and science in Azerbaijan since its independence. Your success is a sign that your university will be in top 100 of "QS Top World Universities" ranking in a period not so far.

Khazar University's achievement is the contribution to science in Azerbaijan and your graduates will further raise the name of the University.

Once again, I sincerely congratulate you and your staff and wish you good luck in achievement of new accomplishments.

Best Regards,
**Aydin Mirzazade**
*August 14, 2017*

# MİLLİ MƏCLİSİN DEPUTATI VAHİD ƏHMƏDOVUN TƏBRİKİ: "XƏZƏR UNİVERSİTETİNİN BU UĞURU BÜTÜN AZƏRBAYCANIN UĞURUDUR"

# CONGRATULATION OF MP VAHID AHMEDOV: 'THIS SUCCESS OF KHAZAR UNIVERSITY IS THE SUCCESS OF THE WHOLE AZERBAIJAN'

*2017-ci il avqustun 9-da Moderator.az saytı Xəzər Universitetinin dünyanın 150 ən yaxşı gənc universiteti arasında Azərbaycandan yer alan yeganə universitet olması münasibətilə millət vəkili Vahid Əhmədovun təbrikini yerləşdirmişdir:*

"Xəzər Universitetinin 53 ölkənin gənc universitetləri arasında ən yaxşı universitetlərdən biri kimi belə bir mötəbər nəticə qazanması, heç şübhəsiz ki, çox böyük uğurdur. Bu, həmin universitetin öz gücünü, imkanlarını beynəlxalq səviyyədə təsdiqləməsi, özünü dünya miqyaslı universitetlər sırasına qəbul etdirməsi deməkdir. Geniş anlamda isə bu uğur Xəzər Universiteti ilə yanaşı, həm də doğma Azərbaycanımızın, onun təhsil sisteminin nailiyyətidir.

Mən bu münasibətlə həm sözügedən universitetin təsisçisi professor Hamlet İsaxanlını, həm də həmin universitetin dəyərli müəllim-tələbə kontingentini təbrik edir, onlara yeni uğurlar, nailiyyətlər arzulayıram. Hesab edirəm ki, Xəzər Universitetinin Azərbaycan təhsili adına ortaya qoyduğu bu nəticə ölkə prezidenti cənab İlham Əliyevin təhsilin inkişafına göstərdiyi müstəsna diqqət və qayğının nəticəsidir. Hansı ki, ölkəmizdəki bütün elmi müəssisələr, təhsil ocaqları, onların əməkdaşları daim bu diqqət və qayğını öz üzərlərində hiss edir.

Düşünürəm ki, Xəzər Universitetinin beynəlxalq QS reytinqində yer alması bütövlükdə Azərbaycan təhsilinin inklişaf dinamikasının təbliği, onun dünya təhsil sisteminə inteqrasiyası baxımından da mühüm addımdır. Xəzər Universitetinin bu uğuru ölkəmizin təhsil sisteminə marağı artıracaq, dünyanın ən müxtəlif dövlətlərindən universitetlərimizə tələbə axınını sürətləndirəcəkdir.

Mən bir daha bu böyük uğur münasibətilə Xəzər Universitetinin bütün kolektivini təbrik edir, onlara yeni-yeni uğurlar arzu edirəm. Arzu edirəm ki, Xəzər Universiteti bundan sonra da beynəlxalq reytinq cədvəllərində əldə etdiyi qabaqcıl yerlərlə bütün xalqımızı qürurlandırsın, bizlərə sevinc bəxş etsin".

Xəbərin tam mətnini bu linkdə oxumaq olar: *http://www.moderator.az/news/187535.html*

*On August 9, 2017, moderator.az, news website, released the congratulation of MP Vahid Ahmedov on the inclusion of Khazar University in the list of the world's 150 best young universities:*

"It is undoubtedly a great achievement that Khazar University has gained a reputation of becoming one of the best universities among the young universities in 53 countries. This means that the university proves its strength and capacity on an international level and accepts itself as a world-class university. In the broadest sense, this success, along with Khazar University, is the achievement of Azerbaijan, its educational system.

I congratulate Professor Hamlet Isakhanli, the founder of the university, as well as the valuable staff and the students of this university and wish them success and new achievements. I think the achievement of Khazar University on behalf of Azerbaijan education is the result of the exceptional attention and care of President Ilham Aliyev to the development of education in Azerbaijan which is constantly felt on all scientific, educational institutions and their staff in our country.

I strongly believe that the presence of Khazar University in the international QS rankings is a significant step in promoting the inclusive dynamics of Azerbaijani education in terms of integrating it into the world education system. This success of Khazar University will increase the interest in the education system of our country and will accelerate the flow of students to our universities from the most diverse countries around the world.

I once again congratulate Khazar University on this occasion and wish them new success. I hope Khazar University will continue to make our nation feel proud with its leading position in international rankings and make us happy. "

The full article can be read via this link: *http://www.moderator.az/news/187535.html*

**AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ**

SƏDRİN MÜAVİNİ, İNSAN HÜQUQLARI KOMİTƏSİNİN SƏDRİ

**Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlıya**

**Hörmətli Hamlet müəllim!**

Sizi və universitetin elmi-pedoqoji kollektivini Xəzər Universitetinin Beynəlxalq "QS World University Ranking"təşkilatının "QS Top 50 Under 50" illik universitet reytinqində 53 ölkədən olan 150 ən yaxşı gənc universitet arasında yer alması münasibəti ilə təbrik edirəm. Universitetinizin bu uğurlu nəticəsi ölkədə həyata keçirilən məqsədyönlü təhsil siyasətinin, elm və təhsilə dövlət qayğısının məntiqi nəticəsidir. Sizin təmsil etdiyiniz universitetin adının dünyanın tanınmış gənc universitetlərinin adları ilə birgə çəkilməsi Azərbaycan təhsili üçün qürurverici haldır.

Hörmətli Hamlet müəllim,

Xəzər Universitetinin elmi-pedoqoji kollektivinə uğurlarının davamlı olmasını və Azərbaycanda təhsilin inkişafı üçün yaradılmış münbit şəraitdən səmərəli şəkildə bəhrələnərək yeni-yeni zirvələr fəth etməyi arzulayıram.

Hörmətlə,

**Bahar Muradova**

07 sentyabr 2017-ci il

**MILLI MAJLIS OF THE REPUBLIC OF AZERBAIJAN**

DEPUTY CHAIRMAN, CHAIRMAN OF THE HUMAN RIGHTS COMMITTEE

**Founder of Khazar University, Chairman of the Board of Directors and Trustees Professor Hamlet Isakhanli**

**Dear Mr. Isakhanli,**

I congratulate you and scientific pedagogical staff of the University on the occasion of Khazar University to have been placed amongst 150 the youngest and most successful universities from 53 countries published in the annual university ranking "QS Top 50 under 50" of international "QS World University Rankings" organization. The accomplishment of your University is a logical result of purposeful education policy implemented in the country, as well as state care to science and education. It is an honourable moment for Azerbaijani education of your University named together with famous young universities of the world.

Dear Mr. Isakhanli,

I wish scientific pedagogical staff of Khazar University further success and to reach new heights through efficient use of favourable conditions created for development of education in Azerbaijan.

Best Regards,

**Bahar Muradova**

*September 07, 2017*

# XƏZƏR UNİVERSİTETİNİN DEPARTAMENT MÜDİRİ "ƏMƏKDAR MÜƏLLİM" FƏXRİ ADINA LAYİQ GÖRÜLDÜ



2017-ci il sentyabrın 15-də Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Azərbaycan Respublikasının mədəniyyət xadimlərinə fəxri adların verilməsi haqqında sərəncam imzalamışdır. Sərəncama əsasən, Xəzər Universiteti Musiqi və incəsənət departamentinin müdiri, dosent Zülfiyyə Sadıqova "Əməkdar müəllim" fəxri adına layiq görülmüşdür.

Bu haqda daha geniş məlumatı bu link vasitəsilə əldə etmək olar:

*http://president.az/articles/25239*





# "XƏZƏR"DƏ YENİ DƏRS İLİ BAŞLADI

Sentyabrın 15-də Xəzər Universitetində yeni dərs ilinin başlanmasına həsr olunmuş mərasim keçirildi. Mərasimdə universitetin rəhbərliyi və əməkdaşları, universitetə yeni qəbul olunmuş tələbələr və onların valideynləri iştirak edirdilər.

Mərasim Azərbaycan Dövlət Himninin ifası ilə başladı. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı çıxış edərək, universitetə qəbul olunmuş gəncləri təbrik etdi, universitetdə tələbələrin təhsili və mənəvi inkişafı üçün yaradılmış saf və şəffaf mühitdən, universitetin uğurlarından, o cümlədən dünya universitetlərinin beynəlxalq reytinqlərində yer almasından danışdı. Universitetin rektoru Dr. Hassan Niknafs da tələbələri təbrik etdi, onlara təhsillərində uğurlar arzuladı.

H. İsaxanlı, H. Niknafs, İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov, Təhsil fakültəsinin dekanı Elza Səmədova və Humanitar və sosial elmlər fakültəsinin dekanı Cabir Xəlilov universitetə yüksək balla qəbul olunmuş tələbələrə tələbə bileti və hədiyyələr təqdim etdilər, onlarla xatirə şəkli çəkildi.

Universitetə yeni qəbul olunmuş tələbələr adından Əli Məhərrəmov (maliyyə ixtisası) çıxış edərək, Xəzər Universitetində tələbələr üçün yaradılmış əlverişli şərait sayəsində yüksək ixtisaslı mütəxəssislər kimi yetişmək üçün ciddi səy göstərəcəklərini bildirdi.

Universitetin Musiqi və incəsənət departamentinin hazırladığı konsertdə tələbə qızlar və oğlanlardan ibarət rəqs qrupları çıxış etdilər, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti, universitetin müəllimi Məhsəti Cabbarlının ifasında mahnılar səsləndi.

Mərasim yeni qəbul olunmuş tələbələrin auditoriyalara dəvət olunması ilə başa çatdı. Auditoriyalarda onlar fakültə dekanları, departament müdirləri və əməkdaşlarla görüşdülər. Onlara təhsil alacaqları ixtisaslar haqqında ətraflı məlumat verildi və sualları cavablandırıldı.



# THE NEW ACADEMIC YEAR STARTED AT KHAZAR UNIVERSITY

A ceremony dedicated to the start of the new academic year was held at Khazar University on 15th September. The management and staff of the university, newly admitted students and their parents attended the ceremony.

The ceremony began with the performance of the Azerbaijan State Anthem. Professor Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees delivered a speech and congratulated the first year students, spoke about a pure and transparent environment created for the education and spiritual development of the students at the university, informed about the success of the university, as well as the international ratings of world universities. Dr. Hassan Niknafs, the rector of the university congratulated the students and wished them success in their education.

Dr. Isakhan Isakhanli, Dr. Hassan Niknafs, Dr. Jeyhun Mammadov, Dean of the School of Economics and Management, Dr. Elza Semedli, Dean of the School of Education, and Jabir Khalilov, Dean of the School of Humanities and Social Sciences presented student cards and gifts to the university students, and a memory photo was taken.

Ali Maharramov (specialty of Finance), on behalf of newly-admitted students, said that they would make serious efforts to develop as highly qualified specialists thanks to the favorable conditions created for the students at Khazar University.

The dance groups of the students performed at the concert prepared by the Department of Music and Art of the University, Mehseti Genjevi, the soloist of Azerbaijan State Academic Opera and Ballet Theater, the instructor of the university performed songs.

The ceremony ended with the invitation of newly admitted students to the lecture halls. They met with faculty deans, heads of departments and staff. They were given detailed information about their specialties and their questions were answered.











# POTENSİAL MƏKTƏB DİREKTORLARININ NÖVBƏTİ KURSUNU BİTİRƏNLƏRƏ SERTİFİKAT TƏQDİM OLUNDU

Sentyabrın 19-da Xəzər Universitetinin Mərmər zalında universitetin layihəsi olan Potensial məktəb direktorlarına məktəbin idarə edilməsi üzrə təlimin növbəti - may-iyul aylarında keçirilmiş kursunu bitirən 23 məzuna sertifikatların təqdim olunması mərasimi keçirildi. Qeyd edək ki, bu təlim kursu cari tədris ilində də işini davam etdirəcəkdir.

Təlimin əsas məqsədi ölkədəki yeni təhsil strategiyasına və təhsil islahatına uyğun olaraq rəhbər işdə fəaliyyət göstərmək istəyən təhsil işçilərinin bilik və bacarıqlarını artırmaq, onları dünyadakı səmərəli idarəetmə təcrübəsi ilə tanış etməkdir.

Təlimlər zamanı kursun məşğələlərində mühazirələr dinlənilmiş, iştirakçıların təqdimatları olmuş, müzakirələr aparılmış, söhbətlər keçirilmişdir.

Qeyd edək ki, indiyə qədər layihə çərçivəsində 468 nəfər təlimdən keçmiş, onlardan 50 nəfərdən çoxu (bu rəqəm müntəzəm artır) direktor və ya direktor müavini vəzifəsinə təyinat almışdır.

Mərasimdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı geniş çıxış etdi. O, kursun əhəmiyyətindən danışaraq, məzunlara əldə etdikləri nəzəri və təcrübi bilikləri öz işlərində uğurla tətbiq etmək üçün tövsiyələrini bildirdi.

Sonra məzunlara sertifikatların təqdim olunması mərasimi başlandı. Sertifikatları professor Hamlet İsaxanlı, universitetin rektoru Dr. Hassan Niknafs təqdim etdilər. Xatirə şəkilləri çəkildi.

Sertifikatların təqdim olunması başa çatdıqdan sonra çıxış edən Dr. Hassan Niknafs məzunları təbrik etdi, onlara mühüm işlərində uğurlar arzuladı.

Kursu bitirənlər adından Zemfira Məsiyeva çıxış edərək, kursun yüksək səviyyədə təşkilinə görə Xəzər Universitetinin rəhbərliyinə, layihə rəhbəri - universitetin İnkişaf mərkəzinin direktoru Raziyə İsayevaya, layihə koordinatoru - Təhsil fakültəsinin dekanı Elza Səmədovaya və müəllimlərə təşəkkürünü bildirdi.

Mərasim iştirakçılarına Xəzər Universitetinin Musiqi və incəsənət departamentinin hazırladığı konsert proqramı təqdim olundu.





## THE SUBSEQUENT COURSE GRADUATES OF POTENTIAL SCHOOL DIRECTORS WERE GRANTED WITH CERTIFICATES

On September 19, the certificate presentation ceremony, was organised, at the Marble Hall of Khazar University, for the 23 graduates of the subsequent training course on 'School Management' to potential school directors, the project of Khazar University, conducted in May – July.

It should also be noted that this training course will continue its work in the current academic year.

The main aim of the training course, in accordance with the country's new education strategy and reform, is to increase the knowledge and skills of educational workers who want to work in leadership positions at schools and get them familiar with the world's effective management practices.

During the course, the lectures were heard, the presentations were made, discussions and conversations were conducted.

It should be noted that 468 people have been trained under the project up to now, including 50 people most of whom (this figure is increasing regularly) have been assigned as a director or deputy director.

Professor Hamlet Isakhanli, the founder of Khazar University and the Chairman of its Board of Directors and Trustees, made a comprehensive speech. In his speech, he mentioned the importance of the course and advised graduates to apply their theoretical and practical knowledge to succeed in their work. Then the ceremony of awarding certificates to graduates started. The certificates were presented by Prof. Hamlet Isakhanli and Dr. Hassan Niknafs, the rector of the university. The memory photos were taken.

Dr. Hassan Niknafs delivered a speech after the end of certificate presentation ceremony and congratulated the graduates, wished them success in their work.

Zemfira Mesiyeva spoke on behalf of the graduates and expressed her gratitude to the leadership of Khazar University, Project managers – Elza Samadova, Dean of the School of Education and Raziya Isayeva, Development Director and their lecturers for the high level of training course organization.

The concert program was presented to the participants of the ceremony organised by the Department of Music and Fine Arts of Khazar University.







# PROFESSOR HAMLET İSAXANLI: "EYNŞTEYN AZƏRBAYCANDA OXUSAYDI, ONA ATTESTAT VERMƏZDİLƏR"

*2017-ci il iyulun 18-də "Şərq" qəzetinin internet səhifəsində Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə dərc olunmuş müsahibəni təqdim edirik.*

Təhsilin ən ali məqsədi insanlara bərabər imkanlar yaratmaqdır - bu sözləri *sherg.az*-a yaxşı və pis oxuyan şagirdlərdən danışarkən Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı söyləyib. O qeyd edib ki, insanlar öz qabiliyyətlərinə görə fərqli ola bilərlər, fərqli düşünə bilərlər:

"Bu artıq onların özlərindən asılıdır. Amma əsas odur ki, dediyim kimi, onlara bərabər imkanlar yaradılsın. Zəif oxuyanı da, əlili də, güclü oxuyanı da oxutmaq lazımdır. Oxutmağın da müəyyən taktikaları, qaydaları, yolları var. Məktəblər və pedaqoqlar onun üzərində düşünməlidirlər ki, zəif oxuyanı yaxşı oxuyanın səviyyəsinə necə çatdırsınlar. Belə düşünürəm ki, dünyada bir nəfər də olsun istedadsız uşaq yoxdur. Sadəcə biri bir şeyi sürətlə, digəri isə çox yavaş qavrayır, biri bir sahəni, digəri digər sahəni istəyir.

Eynşteyn bizim orta məktəblərdə oxusaydı, ona attestat verməzdilər. Çünki o, çox yavaş düşünən adam olub. Ona test versələr, zəif çıxardı. Bəzi insanların içərisində elə qabiliyyət yatır ki, məktəb, müəllim və valideyn onu ortaya çıxara bilmir. Çünki ona uyğun şərait yaranmayıb. Biri kimyanı çox böyük sürətlə qəbul edir, biri isə onu qəbul edə bilmir, amma çox yaxşı musiqi duyumu olur. Ona görə, birincisi, uşaqların istedadlarını ortaya çıxarmaq lazımdır. Əvvəlcə onu istedadı olan tərəfə yönəltmək gərəkdir. Eybi yoxdur, qoy digər fənləri orta oxusun.

Əlbəttə, ikinci dərəcəli saydığın fənlər barədə də təsəvvürün olmalıdır. Ona görə, orta məktəblərin yuxarı siniflərində ixtisaslaşma meyli, cərəyanı olmalıdır. Bu, çox mühümdür ki, ədəbiyyatçı olanla, mühəndis olan orta məktəbin son iki ilini eyni proqramla oxumasınlar. Bu, qəribədir, hətta gülməlidir. Mühəndis riyaziyyat, fizika və kimya bilməlidir, ədəbiyyatçı isə ədəbiyyat bilməlidir, yaxşı yazı yazmağı bacarmalıdır, həyat müşahidələrini yaxşı aparmalıdır. Bu mənada uşaqların qavrama qabiliyyətləri və sahələri fərqli olur. Məktəblər xüsusi çalışmalıdırlar ki, "zəif oxuyur" dedikləri uşağın hansısa sahədə bacarığını aşkarlasınlar.

Mən bu problemi universitet baxımından da bilirəm. Bizə bəzən uşaqlar gəlir, görürsən ki, biri 300 balla, digəri isə 500 balla qəbul olunub. Elə olub ki, 300 balla qəbul olunan universiteti daha yaxşı nəticələrlə başa vurur. Çünki, gəlib orada bir yarış mühitinə düşür, onun qabiliyyətləri aşkarlanır, onda həvəs yaranır. Görür ki, burada hər kəsə bərabər münasibət var və o da açılışır, yaxşı oxuyur. Mən belə bilirəm ki, təhsil sistemində və cəmiyyətdə azad mühitin olması çox vacibdir".

**Ayyət Əhməd**

*http://www.sherg.az/site/id-34225/%22Eyn%C5%9Fteyn_Az%C9%99rbaycanda_oxusayd%C4%B1,_ona_atestat_verm%C9%99zdil%C9%99r%22#Kalibri*

## INTERVIEW WITH PROFESSOR HAMLET ISAKHANLI IN "SHARQ" NEWSPAPER

On July 18, 2017, an interview entitled "If Einstein had studied in Azerbaijan he would not have been given a certificate", with Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, was published on the website of the "Sharq" newspaper. In the interview, Professor speaks about the necessity of creating an equal, free environment in the education system and other issues.

The interview can be read via the link below:

*http://www.sherg.az/site/id-34225/%22Eyn%C5%9Fteyn_Az%C9%99rbaycanda_oxusayd%C4%B1,_ona_atestat_verm%C9%99zdil%C9%99r%22#Kalibri*

# ELMİ TƏDQİQAT MƏSƏLƏLƏRİNƏ HƏSR OLUNMUŞ SEMİNAR

# SEMINAR ON SCIENTIFIC RESEARCH

İyulun 14-də Xəzər Universitetində elmi tədqiqat məsələlərinə həsr olumuş seminar keçirildi. Seminarda universitetin Biologiya departamentinin və Hüceyrə Patologiyası Tədqiqat Mərkəzinin müdiri Dr. İradə Xəlilova, departamentin müəllimləri dosent Cavid Ocaqi və Dr. Zaur Kərimov, İnkişaf Mərkəzinin direktoru Raziyə İsayeva, Təhsil departamentinin koordinatoru Qoşqar Məhərrəmov, Kitabxana - İnformasiya Mərkəzinin direktor müavini Aytac Misgərli, universitetin doktorant tələbələri iştirak edirdilər.

Seminarın birinci hissəsində doktorantlar Züleyxa Əkbərova və Gülafət Şəfiyeva oxuduqları elmi məqalələrin tənqidi təhlillərini verdilər. Sonra doktarant Şəbnəm Şahgəldiyeva öz elmi mövzusu, mövzunun aktuallığı, qarşıya qoyulan məqsəd və gözlənilən nəticələr haqqında məlumat verdi. Təqdimatlar maraqla qarşılandı və hərtərəfli müzakirələr aparıldı.

Seminarın ikinci hissəsində elmi araşdırmaların gücləndirilməsi və elmi tədqiqat işlərinə dəstək yolları, Doktorant Tələbə Birliyinin (PhD Student Association ) yaradılması haqqında müzakirələr aparıldı. Sonda bu birliyin yaradılması haqda qərar qəbul edildi. Təhsil departamentinin koordinatoru, Türkiyənin Eskişehir Osmangazi Universitetinin Təhsilin təşkili və idarə olunması üzrə doktorant tələbəsi Qoşqar Məhərrəmov yeni dərs ilindən bu birliyi könüllü olaraq təşkil etməyi öz öhdəsinə götürdü.

Qeyd olundu ki, Doktorant Tələbə Birliyi gənc tədqiqatçıların inkişafına kömək üçün yaradılan bir platformadır. Hər bir doktorant tələbə bu birliyə daxil ola və işində fəal iştirak edə bilər. Burada müxtəlif sahələrdən olan gənc tədqiqatçılar tələbə şəbəkəsi yaradaraq, öz ideya və təcrübələri haqqında fikir mübadiləsi apara bilər, müxtəlif görüşlər və seminarlar, həmçinin qeyri-rəsmi sosial tədbirlər təşkil edə bilərlər.

On July 14, a research seminar on scientific research was held at Khazar University.

Dr. Irada Khalilova, the head of the Biology Department and the Center for Cell Pathology, instructors of the department – Associate professor, Javid Ojaqi and Dr. Zaur Karimov, Raziya Isayeva, Director of Development Center, Goshqar Maharramov, Coordinator of the Department of Education, Aytaj Misgerli, Deputy Director of Library - Information Center and PhD students of the university participated in the seminar.

In the first part of the seminar, PhD students - Zuleykha Akbarova and Gulafet Shafiyeva - gave critical analysis of the scientific articles they read. Then Shabnam Shahgaldiyeva, a PhD student, informed about her research topic, its importance, the purpose and the expected outcomes. The presentations were welcomed and comprehensive discussions were held.

In the second part of the seminar, discussions were held on the ways of strengthening, supporting scientific research and establishing a PhD Students Association. At the end of the seminar it was decided to establish this union. Goshgar Maharramov, a PhD student in Education Management, Eskisehir Osmangazi University, Turkey, and Coordinator of Education Department undertook to volunteer to organize the association from the new academic year.

It was noted that a PhD Student Association is a platform designed to help the researchers develop. Each PhD student can join the union and actively participate in it. Young researchers from various fields can create student networks, exchange opinions about their ideas and practices, organize different meetings and seminars, as well as informal social events.



# KOZMİNSKİ UNİVERSİTETİNİN BEYNƏLXALQ ƏLAQƏLƏR ŞÖBƏSİNİN DİREKTORU "XƏZƏR"DƏ





İyulun 10-14-də Kozminski Universitetinin (Polşa, Varşava) Beynəlxalq əlaqələr şöbəsinin direktoru Valentina Guminska Xəzər Universitetində Erasmus+proqramı çərçivəsində mübadilə proqramında iştirak etdi.

Mübadilənin əsas məqsədi Xəzər Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin və universitetin bir sıra digər departament və şöbələrinin işi ilə yaxından tanış olmaq idi. Həmin müddət ərzində Valentina Guminska Xəzər Universitetinin rektoru Hassan Niknafs, İnkişaf mərkəzinin direktoru Raziyə İsayeva, Keyfiyyətin təminatı mərkəzinin direktoru Lyudmila Sotova, Karyera mərkəzinin koordinatoru Fatma Ələkbərova, Biologiya departamentinin müdiri İradə Xəlilova, İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov, Magistratura, doktorantura və elmi işlər bölməsinin müdiri Eldar Şahgəldiyev, Humanitar və sosial elmlər fakültəsinin dekanı Cabir Xəlilov, Siyasi elm və beynəlxalq münasibətlər departamentinin koordinatoru Elmar Mustafayev və İngilis dili və ədəbiyyatı departamentinin müdir müavini Eynur Mehdiyevlə görüşdü.

Qonağı Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı da qəbul etdi.

Xəzər Universiteti ilə Kozminski Universiteti arasında Erasmus+ müqaviləsi 2015-ci ilin sonunda imzalanmışdır. O vaxtdan etibarən hər iki universitetin tələbə, akademik və inzibati heyəti mübadilədə iştirak edirlər.

KOZMINSKI UNIVERSITY

## DIRECTOR OF INTERNATIONAL RELATIONS OFFICE OF KOZMINSKI UNIVERSITY ON EXCHANGE AT KHAZAR UNIVERSITY

On July 10-14, Ms. Valentyna Guminska, Director of International Relations Office at Kozminski University (Warsaw, Poland) participated in a staff mobility at Khazar University within the Erasmus + Program.

The main goal of the mobility was to get familiarized with the work of the International Affairs Office of Khazar University as well as other departments and units. During her stay in Baku, Ms. Guminska participated in meetings with Dr. Hassan Niknafs, Rector of Khazar University, Ms. Raziya Isayeva, Development Director, Ms. Lyudmila Sotova, Head of Quality Assurance Center, Ms. Fatma Alakbarova, Coordinator of Career Center, Ms. Irada Khalilova, Head of Biology Department, Dr. Jeyhun Mammadov, Dean of School Economics and Management, Mr. Eldar Shahgaldiyev, Head of Division of Graduate Studies and Research, Dr. Jabir Khalilov, Dean of School of Humanities and Social Sciences, Mr. Elmar Mustafayev, Coordinator at the Department of Political Science and International Relations, and Mr. Eymur Mehdiyev, Vice-chair of Department of English Language and Literature.

Ms. Guminska also met with Professor Hamlet Isakhanli, the founder of Khazar University and the Chairman of its Board of Directors and Trustees.

Khazar University and Kozminski University signed an Erasmus plus agreement in late 2015 and both universities have exchanged staff and students since then.

## "XƏZƏR"İN DEPARTAMENT MÜDİRİNƏ DOSENT DİPLOMU TƏQDİM OLUNMUŞDUR

İyulun 18-də Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasında diplomların təqdim olunması mərasimi keçirilmişdir. Xəzər Universiteti Siyasi elm və beynəlxalq münasibətlər departamentinin müdiri, fəlsəfə doktoru Muxtar Hacızadəyə də dosent diplomu təqdim olunmuşdur.

## 'ASSOCIATE PROFESSOR' DIPLOMA WAS AWARDED TO THE HEAD OF DEPARTMENT AT KHAZAR UNIVERSITY

On July 18, the ceremony of presenting diplomas was held at the Supreme Attestation Commission attached to the President of the Republic of Azerbaijan. Mukhtar Hajizade, PhD, Head of the Department of International Relations and Political Science was also awarded with an 'Associate Professor' diploma.

ADU
AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ

## XƏZƏR UNİVERSİTETİNİN TƏLƏBƏLƏRİ ADU-DA YAY MƏKTƏBİNDƏ İŞTİRAK ETMİŞLƏR

İyulun 18-dən avqustun 25-dək ADU-da təşkil olunmuş ödənişsiz Yay məktəbində həmin universitetin tələbələri ilə yanaşı Bakı Mühəndislik Universiteti və Xəzər Universiteti, həmçinin Kanadanın Toronto Universitetinin tələbələri də iştirak etmişlər.

Yay məktəbi haqqında Azərbaycan Dövlət İnformasiya Agentliyi – AZƏRTAC başda olmaqla (http://azertag.az/xeber/Azerbaycan_Diller_Universitetinde_yay_semestrinin_odenissiz__kechirilmesi_diger_ali_tehsil_ocaqlari_uchun_ornekdir-1080985#Kalibri) bir sıra saytlar xəbər yaymışlar.



Erasmus+

# XƏZƏR UNİVERSİTETİNDƏ *PETRA* LAYİHƏSİNİN İLK İDARƏEDİCİ GÖRÜŞÜ

İyulun 17-18-də hazırda Valensiya Politexnik Universitetinin koordinatorluq etdiyi Azərbaycan Universitetlərində Tədris və Təlimin Təkmilləşdirilməsi (PETRA) adlı ERASMUS + layihəsinin ilk idarəedici görüşü keçirildi.

Xəzər Universitetində keçən görüşdə həm Azərbaycandan (Xəzər Universiteti, Naxçıvan Dövlət Universiteti, Gəncə Dövlət Universiteti, Sumqayıt Dövlət Universiteti, Bakı Slavyan Universiteti, Azərbaycan Dillər Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Universiteti, Azərbaycan Respublikası Təhsil Nazirliyi), həm də Avropadan (Jyvaskyla Universiteti - Finlandiya, Debrecen Universiteti - Macarıstan, Valensiya Politexnik Universiteti - İspaniya, Vyana Tətbiqi Elmlər Universiteti - Avstriya, Qazi Universiteti - Türkiyə) olan tərəfdaş universitetlərin və Təhsil Nazirliyinin nümayəndələri iştirak edirdilər.

Tədbirin rəsmi açılış hissəsində Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, Azərbaycan Respublikası Təhsil Naziriliyi Ali, orta və əlavə ixtisas sektorunun müdiri Dr. Sülheddin Gözəlov, Valensiya Politexnik Universitetindən layihə koordinatoru Dr.Javier Orozco, Milli ERASMUS + ofisinin direktoru Pərviz Bağırov çıxış etdilər.

İki günlük görüş müddətində layihə çərçivəsində nəzərdə tutulmuş işlərin planı, maliyyə məsələləri, hər bir tərəfdaş universitetin layihədəki rolu və cavabdeh olduğu işlər, potensial risk və onların həll olunması yolları müzakirə olundu, 6 aylıq və bir illik səfər planları müəyyənləşdirildi. Nəzərə alındı ki, layihənin aparıcı universiteti kimi Xəzər Universiteti Azərbaycandan olan tərəfdaş universitetlərdə tədris və təlim sisteminin qurulması üçün iş planını təqdim edəcək.

Layihənin xüsusi məqsədləri: 1) tədris və təlim prosesinin pedaqoji və texnoloji ehtiyaclarını ödəmək üçün insan kapitalının İnkişaf etdirilməsi və 2) innovativ texnologiya, tədqiqat, fəal tədris və Avropa universitetləri ilə uzunmüddətli münasibətlərin qurulması vasitəsilə keyfiyyətli tədris və təlimin inkişafı və təmin edilməsidir.

9 Azərbaycan və 5 Avropa tərəfdaşının hazırladığı 3 illik layihənin büdcəsi 908.623 avrodur.

Layihənin birbaşa iştirakçıları doktorant tələbələr, tədqiqatçılar və akademik heyətin digər üzvləridir







# PETRA KICK OFF MEETING ARRANGED AT KHAZAR UNIVERSITY



On July 17-18, the first administrative meeting of the EEASMUS + project on Promoting Excellence in Teaching and Learning at the Azerbaijani Universities, currently coordinated by Polytechnic University of Valencia, was held.

The representatives of partner universities both from Azerbaijan (Khazar University, Nakchivan State University, Ganja State University, Sumgayit State University, Baku Slavic University, Azerbaijan University of Languages, Azerbaijan State Pedagogical University, Azerbaijan University, Ministry of Education of Azerbaijan Republic) and European countries (University of Jyvaskala - Finland, University of Debrecen - Hungary, Polytechnic University of Valencia - Spain, University of Vienna Applied Sciences - Austria, Gazi University - Turkey) participated in the meeting organised by Khazar University. The meeting's official part was opened with the speeches given by Professor Hamlet Isakhanli, Founder and Chairman of Board of Directors and Trustees of Khazar University, Dr. Sulhaddin Gozalov, Head of Student Support and Exchange Programs Unit Department of Science and Higher Education, Ministry of Education of Azerbaijan Republic, Dr. Javier Orozco, Project Manager from Polytechnic University of Valencia and Mr. Parviz Bagirov, Head of the National ERASMUS + office.

During the two-day meeting, detailed plan of activities, financial issues, roles and responsibilities of each partner university and the tasks that they are responsible for, study visits, potential risks and the plans to overcome them have been discussed. The group developed the 6-month plan and the first-year study visits of the project. Khazar University, as a lead partner in the project, will present the first study of the establishment of a Teaching and Learning system at each Azerbaijani partner institution.

Specific aims of the project include (1) developing human capital to meet the pedagogical and technological needs of the teaching and learning process and (2) improving and providing quality teaching and learning through innovative technology, promoting research, improving active learning, and establishing long-term partnerships with European universities.

The budget of the three-year project designed and developed with close participation of 9 partners from Azerbaijan and 5 partners from Europe is 908.623,00 euros.

The project's direct participants are PhD students, researchers and other members of the academic staff.





GÜNDƏLİK İCTİMAİ SİYASİ QƏZET
ŞƏRQ
www.sherg.az

# PROFESSOR REALLIĞI DEYİR: "...GƏLİN, BİZİM MÜƏLLİMLƏRİN MAAŞINA BAXIN ! "

*2017-ci il iyulun 24-də "Şərq" qəzetinin internet səhifəsində Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə dərc olunmuş müsahibəni təqdim edirik.*

"Azərbaycanda Finlandiya təhsil sisteminə bənzər təhsil həyatı qurmaq üçün cəmiyyətimiz də Finlandiya cəmiyyətinə bənzəməlidir. Məsələn, Banqladeşdə heç vaxt İngiltərədəki universiteti və təhsil sistemini qura bilməzsiniz. Ona görə ki, Banqladeş cəmiyyətinin səviyyəsi ona uyğun deyil. Bu mənada Azərbaycanın bütün sahələrdə inkişaf səviyyəsi Finlandiyanın inkişaf səviyyəsinə yaxınlaşarsa, təhsil sistemimizin də bu ölkə təhsilinə yaxınlaşacağına ümid etmək olar. Yəni elə cəmiyyət qurmaq lazımdır ki, onun yüksək inkişaf etmiş iqtisadiyyatı, demokratiyası, elmi-tədris ənənələri olsun. Hansısa bir sahədə monopoliya olmasın".

Bu sözləri *sherg.az*-a "Azərbaycan təhsilini 2 əsrdir dünya təhsil həyatında aparıcı rol oynayan Finlandiya təhsil sisteminə çatdıra bilərikmi?" sualına cavab verərkən Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı deyib.

Professorun sözlərinə görə, bu mənada Azərbaycanda Kembric universiteti ola bilməz:

"Belə universitet İngiltərədə qurula bilər. Hətta Almaniyada da Kembric universitetinə bənzər ali məktəb yoxdur. Çində bir - iki universitet yaranıb. Onlar Kembric və Harvardla müqayisə oluna bilərlər. Çünki Çin nəhəng bir dövlətdir, nəhəng iqtisadi resursları var. Elm və texnologiyanın inkişafına böyük məbləğdə maliyyə ayırır. Azərbaycan təhsilinin inkişafına nail olmaq üçün bu cür fundamental məsələlərə baxmaq lazımdır. Ona görə indiki məqamda illuziyaya qapılaraq, "biz Azərbaycanda Finlandiyadakı təhsil sistemini quracağıq" demək bir az çətindir. Finlandiya orta məktəblərində magistr təhsilli insanlar çalışır. Finlandiyada orta məktəb müəllimlərinin maaşı ölkədəki orta aylıq əmək haqqından xeyli yuxarıdır.

Amma gəlin, bizim müəllimlərin maaşına baxın. Ona görə də xırda izahlar əvəzinə bu məsələlərə diqqət çəkmək daha faydalı olar. Əlbəttə, təhsil sistemimizi indi olduğundan iki dəfə yaxşı edə bilərik. Amma təhsil sistemimizi Finlandiya, İsveçrə, İngiltərə və Almaniya təhsil sisteminin səviyyəsinə çatdırmaq üçün cəmiyyətin bütün tərəfləri inkişaf etməlidir. Baxın, Finlandiyada "Nokia", Koreyada "Samsung" firmaları var. Bizdə isə belə firmalar yoxdur.

Bunların hamısı bir - birinə bağlı məsələlərdir. "Samsung" və "Nokia" kimi firmalar universitetlərə gəlib sifariş verir ki, bu sahədə tədqiqat aparın və sizə 50 milyon pul veririk. Yəni sənayenin, iqtisadiyyatın və cəmiyyətin inkişafı geniş mənada hamısı təhsilin inkişafı ilə birbaşa bağlıdır. Ona görə də, iqtisadi inkişaf deyəndə maaşların artması, monopoliya və korrupsiyanın olmaması göz önünə gəlir".

**Ayyət Əhməd**

*http://www.sherg.az/site/id-34469/Professor_reall%C4%B1%C4%9F%C4%B1_deyir:_%22...G%C9%99lin,_bizim_m%C3%BC%C9%99lliml%C9%99rin_maa%C5%9F%C4%B1na_bax%C4%B1n_!_%22#Kalibri*

İyulun 25-də *dia.az* xəbər saytı da həmin müsahibəni öz səhifəsində yerləşdirmişdir:

*http://www.dia.az/8/150217-gelin-bizim-muellimlerin-maashina-baxin-.html#Kalibri*

# INTERVIEW OF PROFESSOR HAMLET ISAKHANLI TO "SHARQ" NEWSPAPER

On July 24, 2017, an interview of Professor Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, entitled 'The reality of a professor says: 'Let's have a look at our teachers' salary'', was published on the website of "Sharq" newspaper, a daily social-political publication. In the interview, the professor justifies the idea that the education in each country is closely related to the economic and political level of the country and explains it in the case of Azerbaijan.

The interview can be read via the link below:

*http://www.sherg.az/site/id-34469/Professor_reall%C4%B1%C4%9F%C4%B1_deyir:_%22...G%C9%99lin,_bizim_m%C3%BC%C9%99lliml%C9%99rin_maa%C5%9F%C4%B1na_bax%C4%B1n_!_%22#Kalibri*

On 25 July news web-site *dia.az* published the same interview on its page: *http://www.dia.az/8/150217-gelin-bizim-muellimlerin-maashina-baxin-.html#Kalibri*

# XƏZƏR UNİVERSİTETİNİN DİPLOMLARI YÖK TƏRƏFİNDƏN BİRBAŞA TANINIR

# DIPLOMAS OF KHAZAR UNIVERSITY ARE RECOGNIZED BY COUNCIL OF HIGHER EDUCATION, TURKEY

T.C. YÜKSEKÖĞRETİM KURULU

Türkiyənin Ali Təhsil Qurumu (Yükseköğretim Kurulu - YÖK) Xəzər Universitetinin diplomlarını birbaşa tanımağa qərar vermişdir.

Belə ki, Yüksek Öğretim Kurulunun (YÖK) 2016-cı il mayın 12-də keçirilmiş toplantısında qərara alınmışdır ki, Academic Ranking of World University (ARWU), CWTS Leiden Ranking Academic Ranking, QS World University Rankings, Times Higher Education World University Ranking, University Ranking by Academic Performance (URAP) sıralamalarında yer alan ilk 1000 universitet tərəfindən verilən diplomlar YÖK tərəfindən birbaşa (heç bir imtahan verilmədən) tanınacaqdır.

Xəzər Universiteti 2012-ci ildən bu günə kimi QS World University Rankings sıralamasında ilk 600-700+ universitet sırasında yer almış, üstəlik, 2017-ci ildə dünyanın ən yaxşı 150 gənc (yəni, yaşı 50-ni keçməyən) universiteti sırasına daxil edilmişdir (Azərbaycandan tək universitet olaraq).

Türkiyəli tələbələrimizi və potensial tələbələri təbrik edirik.

The Council of Higher Education of Turkey (CHE) is determined to recognize the diplomas of Khazar University.

The Council of Higher Education made a decision, at the meeting conducted on May 12, 2016, to directly recognize the diplomas awarded by the first 1000 universities which have been placed in the rankings of Academic Ranking of World University (ARWU), CWTS Leiden Ranking Academic Ranking, QS World University Rankings, Times Higher Education World University Ranking, University Ranking by Academic Performance (URAP).

Since 2012, Khazar University has been ranked among the top 600-700 + universities in the rankings of QS World University Rankings. Besides, in 2017, it is the only Azerbaijani university that was placed among the 150 best young (with less than 50 years of experience) world universities.

We congratulate our Turkish and potential students.

# "KAİNAT" TƏDRİS MƏRKƏZİNDƏ GÖRÜŞ

KAİNAT Tədris Mərkəzi

# MEETING AT THE 'KAINAT' EDUCATION CENTRE

İyulun 28-də "Kainat" Tədris Mərkəzində abituriyentlər, valideynlər və müəllimlərlə Xəzər Universitəsi əməkdaşlarının görüşü keçirildi. Tədbirdə İctimai əlaqələr və media üzrə direktor Ələvsət Əmirbəyli, İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov, Mühəndislik və tətbiqi elmlər fakültəsinin dekan müavini Vəfa Aslanova, Təhsil departamentinin koordinatoru Qoşqar Məhərrəmov, Biologiya departamentinin müdiri İradə Xəlilova və Humanitar və sosial elmlər fakültəsinin dekan köməkçisi Validə Kərimova iştirak etdilər.

Görüşdə Xəzər Universiteti haqqında geniş məlumat verildi. Abituriyentlərin çoxsaylı sualları cavablandırıldı və onlara bukletlər paylanıldı.

On July 28, 2017, the 'Kainat' Education Centre hosted a meeting with abiturients, parents, teachers and employees of Khazar University.

The meeting was attended by Alovsat Amirbeyli, Director for Public Relations and Media; Jeyhun Mammadov, Dean of the School of Economics and Management; Vefa Aslanova, Dean's assistant of the School of Engineering and Applied Sciences; Goshgar Maharramov, Head of the Department of Education; Irada Khalilova, Head of the Department of Biology and Valida Karimova, Dean's assistant of the School of Humanities and Social Sciences. They provided the abiturients with detailed information about Khazar University, responded to their questions and handed out the booklets.



# ORTAQ ƏDƏBİ DİLƏ DOĞRU...

*Xeber365.com saytı Musavat.com saytı ilə birlikdə Türkiyə türkcəsinin regionda ortaq dilə çevrilməsi istiqamətində başladığı yeni layihə çərçivəsində avqustun 1-də Xəzər Universiteti Təhsil fakültəsinin dekanı Elza Səmədli ilə "Dilimizi bilməyənlərə Azərbaycan vətəndaşlığı verilməsin - dekandan təklif" sərlövhəli müsahibə dərc etmişdir. Müsahibəni oxucularımıza təqdim edirik.*

**Layihə çərçivəsində növbəti müsahibimiz Xəzər Universiteti Təhsil fakültəsinin dekanı, filologiya elmləri üzrə fəlsəfə doktoru Elza Səmədlidir. O, tarixi və modern türk ləhcələri üzərində tədqiqatlar aparır.**

**– Elza xanım, türk dilinin regionda və dünyada yayılması qarşısıalınmaz proses hesab olunur. Ancaq sizə də elə gəlmirmi ki, bunun üçün, ilk növbədə, türkdilli xalqlar bir-birilə ortaq türk dilində rahat danışa bilməlidir? Bu mənada, sizin təklifiniz nədir?**

– Mənim təklifim sadədir. Nə baxımdan sadədir? Məsələn, çox adam etiraf edir ki, Azərbaycan dili söz ehtiyatı baxımından zəngin deyil, yaxud elm və texnologiya inkişaf elədikcə, biz onu ifadə edəcək sırf Azərbaycan dilində olan bir söz yaratmırıq. Biz onu olduğu kimi, yəni Avropa və ya rus mənşəli bir sözü olduğu kimi qəbul eləyirik. Amma Türkiyə türkcəsində qarşılığı tapılmış bu cür sözlər çoxdur. Ən azından belə nümunələr var, məsələn, bilgisayar. Biz "kompüter" olaraq bu sözü olduğu kimi almışıq, amma Türkiyə türkcəsində yeni bir söz yaradıblar. Ortaq bir dil yaratmaq qayəsi yerinə, ziyalılar olaraq hamımız öz sahəmizdə yazarkən, çıxış edərkən, danışarkən, yəni ortaq türk dilində olan sözlərdən istifadə edərək danışsaq, yazsaq, daha məqsədəuyğun olar. Süni dil yaratmaqdansa, bir-birimizi daha aydın başa düşəcəyimiz tərzdə danışdığımız zaman bu ideya həyata keçəcək. Məsələn, hər hansı konfransda Orta Asiyadan gələn insanlar çıxışlarını rus dilində etmək yerinə, türkcə edə bilərlər. Vacib deyil ki, sırf Türkiyə türkcəsində olduğu kimi olsun. Yəni dediklərimiz aydın, başa düşülən olsun. Məsələn, "Tərcüman" qəzeti sırf Türkiyə türkcəsində deyildi, amma o, bütün türk dünyasında oxunurdu, aydın olurdu. Bu baxımdan təklifim ondan ibarətdir ki, həm yazılarımızda, həm danışığımızda ortaq türk dilində olan sözləri istifadə edək və bir-birimizi başa düşək.

Əlbəttə, türk dili deyəndə, Türkiyə türkcəsini nəzərdə tuturuq. Bu, reallıqdır. Bir konfransa gediriksə, deyirik ki, konfransın dili rus, ingilis və Türkiyə türkcəsidir, türk dilidir. Yəni türk dilində çıxış edən insanlar, istər Orta Asiyadan olsun, istərsə də dünyanın başqa yerindən olsun, çıxış etmək istəyən Türkiyə türkcəsi ilə məruzəsini göndərir. Beləcə, istər-istəməz bu qarşısıalınmaz proses gedir.

**–Azərbaycan və Türkiyə türkcəsi bir-birinə daha asan qovuşa bilər, zənnimcə. Türkiyənin ucqar bölgələrinin dili ilə Azərbay-**

**can dili daha çox oxşardır, məsələn...**

– Dil sinifləmməsi ölkələrin sərhədləri kimi deyil. Yəni, dövlətlərin coğrafi sərhədləri ilə dillərin təsnifatı eyni olmur. Məsələn, Türkiyənin İstanbul türkcəsi ilə, tutaq ki, Iğdırda danışılan türkcə eyni deyil. Bu, əlbəttə ki, Azərbaycan sahəsinə aiddir. Çünki ortaq bir oğuz dili var. Türkiyənin özünün içərisində Doğu Anadolu – Şərqi Anadolu Azərbaycan sahəsinə aiddir. Dil xüsusiyyəti də bunu göstərir.

**– Bəs, ümumiyyətlə, bu proses davamlı olarsa, müəyyən zamandan sonra türk dilinin beynəlxalq dilə çevrilməsi üçün əsaslar nə qədər möhkəmdir?**

– Bu, dil siyasətindən asılı olan bir şeydir. Əlbəttə, bir də türkdilli ölkələrin siyasi və iqtisadi baxımdan nə qədər güclü olması ilə əlaqədar bir məsələdir. İngilis dili niyə dünya dilidir? Çünki inkişaf etmiş ölkələrin dilidir...

**– Yəni bu ideyanın həyata keçirilməsi bilavasitə türk dilinin daha geniş coğrafi məkanda yayılması, istifadə olunmasına bağlı deyil.**

– Əlbəttə, bu, bilavasitə dillə bağlı olan məsələ deyil. Universitetlərdə ingilis dilində təhsil alanlar araşdırma sahəsində, tutaq ki, ingilis dilli mənbələrdən istifadə edirlər. Azərbaycan dilində təhsil alanlar isə Azərbaycan dilində əlçatan mənbələr olmadığına görə türk dilində ədəbiyyatlara müraciət edirlər. Yəni o baxımdan dedim ki, türk dilinin Azərbaycanda və regionda öyrənilməsi qarşısıalınmaz bir prosesdir, çünki elmi ədəbiyyatın böyük hissəsi türk dilindədir.

Gəlin baxaq ki, bu gün o elmi ədəbiyyat Azərbaycan dilinə nə qədər tərcümə olunur? Elmi ədəbiyyatlar Azərbaycan dilinə çox az tərcümə olunur. Amma Türkiyədə elmin , demək olar ki, istənilən sahəsində türk dilində mənbə var. Və mənə elə gəlir ki, ali məktəblər baxımından xüsusilə ali məktəbdəki müəllimlər özləri bu istiqamətdə yeni elmi ədəbiyyata çıxış, yenilikləri izləmək, alternativ ədəbiyyat tapmaq istiqamətində işləməlidirlər. Çünki sadəcə Azərbaycan dilindəki ədəbiyyatla siz tələbəni çox irəli apara bilməzsiniz. Bu bir reallıqdır ki, Azərbaycan dilindəki dərsliklər ali məktəblər üçün çox deyil. Çoxu Sovet dövründə məhz Sovet pedaqogikasına uyğun yazılmış kitablardır.

**– Çox haqlısınız. Ali məktəb müəllimlərinin əksəriyyətinə məlum olan, tələbəyə məsləhət gördükləri dərsliklər Sovet dövrünün məhsullarıdır. Məsələn, jurnalistikanın nəzəriyyəsi ilə bağlı ancaq V.Voroşilovun yazdığı kitablara müraciət edirlər.**

– Yəni bu o deməkdir ki, gənc müəllimlər, gənc ziyalılar türk dilindəki elmi ədəbiyyatdan xəbərsizdirlər. Mənim stolumun üstündəki dərsliklərə nəzərə salsanız, üç dildə kitab görəcəksiniz. Amma çoxu türk dilindədir və bu, bizim universitetin kitabxanasında da belədir. Çünki müəllimləri yönləndiririk ki, Azərbaycan dilində ədəbiyyat tapmırsınızsa, yenilikləri türk dilində izləyin, bu kitablara müraciət edin, araşdırın. İngilis dilində kitabları oxumaq daha çətindir, başa düşmək daha çətindir. Ona görə də tələbələrin qarşısına seçim qoyuruq ki, baxın, təhsilin idarə olunmasına dair ingiliscə də kitab var, türk dilində də. Hər iki kitabdakı məlumat, yanaşma, metodologiya, demək olar ki, eynidir. Hansından istəyirsiniz, ondan öyrənin. Tələbələrin əksəriyyəti istər-istəməz türk dilində olana meyillidir. Və onlar imtahan işini yazarkən baxırsınız ki, məhz ortaq türk dilində yazıblar. Çünki oxuduqları ədəbiyyat Türkiyə türkcəsindədir və tədris dilimiz Azərbaycan dilindədirsə, onlar ortaq türk dilində yazırlar. Oxuduğu mənbə ilə danışdığı dili birləşdirərək, ortaq türk dilini bu şəkildə yaradırlar. Yəni, məncə, digər ali məktəblərdə də bu yöndə təbliğat olsa, nəticə əldə etmək olar.

**– Layihə çərçivəsində müsahiblərimiz türk dilinin regionda hakimliyini siyasi və iqtisadi məqamlarla əlaqələndirirlər. Bu, danılmazdır. Ancaq məsələn, Aziz Sancar elm sahəsi üzrə Türkiyəyə "Nobel" gətirdi. Üstə-**

**lik, o, bu sahə üzrə Nobel mükafatı alan ilk türkdür və bu, böyük səs-küy doğurdu. Bunun özü belə, sizcə, türk dilinə, türk dünyasına maraq oyatmaqda güclü amil deyilmi?**

– Əlbəttə, güclü amildir. Dilin populyarlaşması, mənə elə gəlir ki, birinci növbədə elmin inkişafı ilə bağlıdır. Yəni Türkiyə türkcəsinin regionda daha da populyar olmasının əsas səbəbi ciddi elmi ədəbiyyatın olmasıdır. Elmin inkişafı - dilin inkişafı deməkdir.

Baxın, mən özüm Türkiyədə təhsil almışam, Türkiyə türkcəsinin ortaq türk dili olmasına qarşı deyiləm, amma siz bu fikri birbaşa səsləndirdiyiniz zaman qarşı tərəfi istər-istəməz qıcıqlandırırıq. Amma siz başqa aspektlərdən bunu bir fakt kimi qoyduğunuz zaman qarşınızdakı şəxs başqa çıxış yolu olduğunu görmür.

Elm və təhsil ciddi faktordur. Türk dilinin regionda hakim dil olduğunu göstərəcək faktorlardan biridir. Bu gün görün nə qədər Azərbaycan gənci Türkiyədə təhsil alır. Bu, özü sevindirici haldır. Yəni "ortaq türk dilinin yaranması qarşısıalınmaz prosesdir" deyəndə bunu nəzərdə tuturuq.

**– Elza xanım, bəs dünya xalqlarının Azərbaycan dilinə münasibəti sizi qane edirmi?**

– Bilirsiniz, hər hansı xarici ölkədə, tutaq ki, Azərbaycan dilində danışdığınızı desəniz, onlar sizi tam olaraq başa düşməyəcəklər. Desəniz ki, bu, türk dillərindən biridir, onda daha geniş bir aspektdə başa düşülür. Biz də dilimizi tanıtmaq, sevdirmək məqsədilə universitetimizdə başqa ölkələrdən gələn xarici tələbələrə Azərbaycan dilini, ədəbiyyatını, tarixini, mədəniyyətini öyrənmə şərti qoyuruq. Yəni bu dörd fənni xarici tələbələr Azərbaycanda keçirlər. Ümumilikdə tədris dili ingilis dilindədir, bu, öz yerində, amma bu tələbələr Azərbaycanda bu dörd fənnin vasitəsilə bizim maddi-mənəvi dəyərlərimizi öyrənmiş olurlar. Necə ki, bir xarici ölkəyə təhsil almağa getdiyimiz zaman tədris ingilis dilində belə olsa, yerli dili öyrənirik, eyni şəkildə bu siyasət bizim universitetlərimizdə aparılsa, Azərbaycan dili dünyada daha çox tanınacaq. Həmçinin, şərt qoyulsun və Azərbaycan dilini bilməyən xaricilərə Azərbaycan vətəndaşlığı verilməsin. Zənnimcə, bunun da böyük rolu olar.

Bu gün deyə bilmərik ki, Azərbaycan dili dünyada tanınır. Türk dili daha çox tanınır. Türk mənşəli sözlərin hesabına dilimizi daha da zənginləşdirə bilərik. Dilimizi bu şəkildə zənginləşdirdiyimiz zaman, mənə elə gəlir ki, regionda ortaq bir türk dili formalaşmış olacaq.

*http://xeber365.com/haber-dilimizi-bilm-y-nl-r-az-rbaycan-v-t-ndasligi-verilm-sin---dekandan-t-klif-9812.html#Kalibri*

## INTERVIEW OF 'KHAZAR'S DEAN TO *XEBER365.COM* NEWS WEBSITE

On August 1, 2017, xeber365.com website together with musavat.com website released an article, entitled 'Those who do not know our language should not be given Azerbaijani citizenship – dean's proposal' by Dr. Elza Samadli, the dean of School of Education, within the framework of a new project of making Turkish language a common language in the region.

The interview can be read via this link: http://xeber365.com/haber-dilimizi-bilm-y-nl-r-az-rbaycan-v-t-ndasligi-verilm-sin---dekandan-t-klif-9812.html#Kalibri

# XƏZƏR UNİVERSİTETİNDƏ YENİ JURNALIN NƏŞRİNƏ BAŞLANDI

## "KHAZAR JOURNAL OF SCİENCE AND TECHNOLOGY" JURNALININ İLK SAYI ÇAPDAN ÇIXIB

Xəzər Universitetinin Nəşriyyatında yeni "Khazar Journal of Science and Technology" elmi jurnalının ("Xəzər Elm və Texnologiya Jurnalı") ilk sayı (Cild 1, N1, 2017) çapdan çıxmışdır.

"Khazar Journal of Science and Technology" jurnalında riyaziyyat, kimya, biologiya, yer elmləri, kompüter elmləri, tibb və mühəndislik sahələrində orijinal və ən yeni tədqiqatlar dərc olunacaq.

Jurnalın baş redaktoru Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlıdır. Jurnalın redaksiya heyətinə müxtəlif elm sahələrini, universitetləri və ölkələri təmsil edən mütəxəssislər daxildir (ABŞ, Çin, İran, İordaniya, Malayziya, Pakistan, Yaponiya).

Yeni jurnal bütün istifadəçilər və qurumlar tərəfindən onlayn rejimdə ödənişsiz oxuna bilər. Jurnalın maliyyə dəstəyi tam olaraq Xəzər Universitetinin nəşriyyatı tərəfindən verilir. Jurnalda məqalə çap etmək ödənişsizdir.

Jurnalın elektron versiyasını bu link vasitəsilə oxumaq olar: *www.kjsat.com*




# PUBLICATION OF NEW JOURNAL STARTED AT KHAZAR UNIVERSITY

## FIRST ISSUE OF KHAZAR JOURNAL OF SCIENCE AND TECHNOLOGY PUBLISHED

The first issue (Vol. 1, N1, 2017) of the brand new peer-reviewed scholarly journal, Khazar Journal of Science and Technology (KJSAT), has been published by Khazar University Press.

Khazar Journal of Science and Technology will be a source of cutting-edge, original research in a wide range of fields such as mathematics, physics, chemistry, biology, earth sciences, computer science, medicine, and all forms of engineering.

The Editor-in-Chief of the new journal is Professor Hamlet Isakhanli, Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees. The editorial board of the new journal includes experts and professionals from a wide range of disciplines, universities, and countries across the world (Belgium, China, Iran, Japan, Jordan, Pakistan, Malaysia, and USA).

KJSAT is an open access journal and all its content is freely available without charge to the users and institutions. Articles are made available on the journal website as full-text pdf files. The journal is fully financially supported by Khazar University Press. There are no publication fees for any author.

The open-access electronic version of the journal can be found at: *www.kjsat.com*

## PROFESSOR HAMLET İSAXANLININ *SHERG.AZ*-IN SÖRĞUSUNA CAVABI

Avqustun 17-də gündəlik ictimai-siyasi nəşr olan "Şərq" qəzetinin internet səhifəsində yüksək bal topladıqlarına baxmayaraq ali məktəblərə qəbul olunmayan abituriyentlərlə bağlı dərc olunmuş "Kimisi ancaq həkim, kimisi də hüquqşünas olmaq istəyir" sərlövhəli analitik yazıda Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının da *Sherg.az*-ın sörğusuna cavabı yer alınışdır.

Professor bildirmişdir ki, belə vəziyyətin yaranmasına səbəb həmin abituriyentlərin ancaq bir ixtisasa sahib olmaq həvəsi ilə bağlıdır və onlar ikinci mərhələdə bir-birinə yaxın fərqli ixtisaslar yazsalar, həmin yerlərdən birinə mütləq qəbul olunarlar.

Məqalənin tam mətnini bu link vasitəsilə oxumaq olar:

*http://www.sherg.az/site/id-35416/Kimisi_ancaq_h%C9%99kim,_kimisi_d%C9%99_h%C3%BCquq%C5%9F%C3%BCnas_olmaq_ist%C9%99yir#Kalibri*

## PROFESSOR HAMLET ISAKHANLI'S RESPONSE TO THE INTERVIEW OF *SHERG.AZ*

On August 17, a response by Professor Hamlet Isakhanli, the founder of Khazar University, Chairman of its Board of Directors and Trustees, to the inteview of Sherg.az was released in the analytical article "Someone wants to be a doctor and someone wants to be a lawyer " which was published in regard to the abiturients who were not admitted to higher education institutions despite having a high score, on the website of "Sharq" newspaper, the daily social-political publication.

Professor said that the reason for such a situation was that the applicants were interested in having only one qualification, and if they wrote the different specialties in the second stage, they would definitely be admitted.

The full text of the article can be read via this link: *http://www.sherg.az/site/id-35416/Kimisi_ancaq_h%C9%99kim,_kimisi_d%C9%99_h%C3%BCquq%C5%9F%C3%BCnas_olmaq_ist%C9%99yir#Kalibri*

## ÖLKƏ MEDİYASINDA "XƏZƏR"DƏ TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR BARƏDƏ MƏLUMAT YAYIMLANIB

Avqustun 17-də avropa.info, vetenim. info, kanal15, guzgupress.com, kreditplaza.az, mia.az, reportyor.az, aia.az, pia.az və digər saytlarda dərc olunmuş "Pullu oxuyan tələbələrə hansı güzəştlər ediləcək?" adlı eyni xəbərdə bir neçə özəl universitetlə yanaşı, Xəzər Universitetində də müvafiq güzəştlər haqqında, sorğuya universitetdən alınmış cavaba əsasən, bu məlumat verilmişdir: "Xəzər Universitetində tələbələr üçün müxtəlif maliyyə yardımı proqramları mövcuddur. Bunlar təhsil haqqının ödənilməsində olan güzəştlər, adlı təqaüdlər və digər şəkildə həyata keçirilir. Qəbul imtahanlarında 500 və daha çox bal toplayan (birinci tədris ilinin nəticələrinə görə tələbənin GPA 85-dən az olarsa, universitet bu güzəşti ləğv etmək hüququna malikdir), valideynlərinin biri və ya hər ikisi Xəzər Universitetində işləyən, bir ailənin iki və daha çox üzvü "Xəzər"də təhsil alan, hər iki valideynindən məhrum olmuş, universitetdə təhsil aldığı dövrdə gözlənilməz hadisə nəticəsində (məsələn, qəflətən valideynini itirməsi və s.) maddi köməyə xüsusi ehtiyacı olan tələbələrə maliyyə güzəşti edilir".

Xəbərin tam mətnini aşağıdakı linkdə oxumaq olar:*http://www.avropa.info/az/post/185404.html#Kalibri*

## LOCAL MEDIA HAS PUBLISHED INFORMATION ON TUITION FEE CONCESSIONS AT KHAZAR UNIVERSITY

On August 17, in the article 'Which discounts will be made for students with paid education?' released by avropa.info, vetenim.info, kanal15, guzgupress.com, kreditplaza.az, mia.az, reportyor.az, aia.az, pia.az and other websites, the following information was provided based on the responses received from Khazar University on the relevant discounts: 'There are various financial support programs for the students at Khazar University. These are carried out as the tuition fee discounts, scholarships, etc. The students, who scored more than 500 on the entrance exams (the university has the right to cancel this concession if the student has GPA less than 85 based on the results of the first academic year); whose one or both parents work for Khazar University; whose two or more members of the family study at Khazar University; the ones deprived of both parents; who need financial aid as a result of an unexpected turnover at the time of study at the university (for example, a sudden loss of a parent, etc) are financially privileged.

The full article can be read via the following link: *http://www.avropa.info/az/post/185404.html#Kalibri*

# PROFESSOR HAMLET İSAXANLI: "XARİCİ TƏLƏBƏLƏR ALİ MƏKTƏBLƏRİN PLAN YERLƏRİNDƏ GÖSTƏRİLMİR"

*2017-ci il avqustun 21-də "Şərq" qəzetinin internet səhifəsində Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə dərc olunmuş müsahibəni təqdim edirik.*

"Özəl ali məktəblərdə plan yerlərinin tam dolmaması bu planın böyük götürülməsi ilə əlaqədardır".

Bunu *sherg.az*-a özəl ali məktəblərdə vakant yer qalmasının səbəblərini izah edərkən, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı deyib.

O bildirib ki, özəl ali məktəblər plan yerlərini ala biləcəkləri tələbədən çox müəyyən edirlər:

"Dövlət ali məktəblərində yerlərin çoxu dövlət ödənişli olur. Ona görə, keyfiyyətə baxmadan abituriyentlər onları daha çox seçir. Hətta bölgələrdə dövlət universitetləri var ki, paytaxtdakı özəl ali məktəblərin çoxu onlardan daha yaxşı təhsil verir. Amma abituriyentlər dövlət ali məktəblərinə gedirlər ki, orada pulsuz oxumaq olur, yerləri yaxındır və s.

İkinci tura tək zəif tələbələr qalmayıb, kifayət qədər yüksək bal toplamış tələbələr də var. Elə abituriyent var ki, ancaq ödənişsiz oxumaq, yaxud bir ixtisasa qəbul olmaq istəyib, alınmayıb. Onlar da ikinci turda yerləşəcəklər. Bir hissəsi dövlət universitetlərinə, daha çoxu isə özəl universitetlərə gedəcək. Bu mənada ikinci turun nəticələrini gözləmək lazımdır".

Bəzi ali məktəblərdə xarici tələbələrin olduğunu da diqqətə çatdıran H.İsaxanlı deyib ki, bu tələbələr plan yerində göstərilmir:

"Elan edilən plan yeri ancaq Azərbaycan vətəndaşları üçün nəzərdə tutulub. Məsələn, Xəzər Universitetində həm bakalavriat, həm magistratura, həm də doktorantura səviyyəsində xeyli xarici tələbə var. Onlar yalnız Təhsil Nazirliyinin hesabatında göstərilir. Bu məlumatlar mətbuatda da yerləşdirilmir".

**Aysel Aslan**

*http://www.sherg.az/site/id-35573/%3Cfont_color=red%3E%22Xarici_t%C9%99l%C9%99b%C9%99l%C9%99r_ali_m%C9%99kt%C9%99bl%C9%99rin_plan_yerl%C9%99rind%C9%99_g%C3%B6st%C9%99rilmir%22__%3C/font%3E*

# INTERVIEW OF PROFESSOR HAMLET ISAKHANLI TO "SHARQ" NEWSPAPER

On August 21, 2017, an interview of Prof. Hamlet Isakhanli, the founder of Khazar University and chairman of its Board of Directors and Trustees, entitled 'Foreign students are not shown in the planned places of higher education institutions' was published on the web page of 'Sharq' newspapper, the daily social-political publication. In the interview, the professor explains the objective reasons for not having the planned places filled in private universities.

The interview can be read through the following link:

*http://www.sherg.az/site/id-35573/%3Cfont_color=red%3E%22Xarici_t%C9%99l%C9%99b%C9%99l%C9%99r_ali_m%C9%99kt%C9%99bl%C9%99rin_plan_yerl%C9%99rind%C9%99_g%C3%B6st%C9%99rilmir%22__%3C/font%3E#.WZ02cj5Jbcs*

## "QARABAĞ" FUTBOL KLUBUNUN UEFA ÇEMPİONLAR LİQASININ QRUP MƏRHƏLƏSİNƏ VƏSİQƏ QAZANMASI MÜNASİBƏTİLƏ PROFESSOR HAMLET İSAXANLININ TƏBRİKLƏRİ

## CONGRATULATIONS OF PROFESSOR HAMLET ISAKHANLI ON THE OCCASION OF 'GARABAGH' FOOTBALL CLUB TO QUALIFY FOR UEFA CHAMPIONS LEAGUE GROUP STAGE

Avqustun 25-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı "Qarabağ" futbol klubunun UEFA Çempionlar Liqasının qrup mərhələsinə vəsiqə qazanması münasibətilə **AFFA-nın prezidenti Rövnəq Abdullayevə, AFFA-nın baş katibi Elxan Məmmədova və "Qarabağ" futbol klubunun prezidenti Tahir Gözələ** təbrik məktubları göndərmişdir.

Məktublarda professor Hamlet İsaxanlı "Qarabağ" futbol klubunu Avropa Çempionlar Liqasının qrup mərhələsinə yüksələn ilk Azərbaycan klubu kimi təbrik etmiş, komandaya yeni uğurlar arzulamış və "Qarabağ" komandasını uyğun bir vaxtda Xəzər Universitetində görüşə dəvət etmişdir.

On August 25, Professor Hamlet Isakhanli, the founder of Khazar University, chairman of its Board of Directors and Trustees, sent congratulation letters to **Rovnag Abdullayev, the President of AFFA, Elkhan Mammadov, the General Secretary of AFFA, Tahir Gozal, the president of 'Garabagh' Football Club**, on the occasion of 'Garabagh' football club to have qualified for UEFA Champions League group stage.

In his letters, Professor Hamlet Isakhanli congratulated 'Garabagh' football club as the first Azerbaijani team qualifying for UEFA Champions League group stage, wished them new achievements and invited the team to Khazar University at a suitable time.

## PROFESSOR HAMLET İSAXANLININ TƏBRİK MƏKTUBUNA AFFA - DAN CAVAB

## AFFA'S RESPONSE TO PROFESSOR HAMLET ISAKHANLI'S CONGRATULATION LETTER

"Qarabağ" futbol klubunun UEFA Çempionlar Liqası turnirinin qrup mərhələsinə vəsiqə qazanması münasibətilə Xəzər Universitetinin təsisçisi, Diektorlar və Qəyyumlar Şurasının sədri Professor Hamlet İsaxanlının AFFA-nın Baş katibi Elxan Məmmədova göndərdiyi təbrik məktubuna cavab alınmışdır:

"Hörmətli Hamlet müəllim, "Qarabağ" klubunun UEFA Çempionlar Liqası turnirinin qrup mərhələsinə vəsiqə qazanması münasibətilə təbrikiniz və xoş sözləriniz üçün, həmçinin "Qarabağ" FK-nı rəhbərlik etdiyiniz universitetə görüşə dəvət etdiyinizə görə Sizə minnətdarlığımızı bildiririk. Təklifinizlə bağlı "Qarabağ" klubuna məlumat veriləcək. Diqqətiniz üçün təşəkkür edirik. Hörmətlə, Elxan Məmmədov, Baş katib."

AFFA responded to the congratulation letter sent on the occasion of 'Garabagh' football club to qualify for UEFA Champions League group stage by Professor Hamlet Isakhanli, the founder of Khazar University, chairman of its Board of Directors and Trustees to Elkhan Mammadov, the General Secretary of AFFA:

"Dear Hamlet Isakhanli, we are grateful to you for your congratulation and nice words on the occasion of 'Garabagh' football club to qualify for UEFA Champions League group stage and for inviting 'Garabagh' Football Club to the University you lead. 'Garabagh' club will be informed about your offer. Thank you for your attention. Sincerely, Elkhan Mammadov, Secretary General."

XALQ QƏZETİ

## GÖRKƏMLİ TARİXÇİ ALİM SARA AŞURBƏYLİ HAQQINDA MƏQALƏDƏ ONUN XƏZƏR UNİVERSİTETİNDƏ YUBİLEYİNİN KEÇİRİLMƏSİ DƏ XATIRLANIR

## IN THE ARTICLE, DEDICATED TO SARA ASHURBEYLI, THE WELL - KNOWN HISTORIAN SCIENTIST, THE AUTHOR ALSO REFERS TO HER JUBILEE CONDUCTED AT KHAZAR UNIVERSITY

"Xalq qəzeti"nin 28 avqust 2017-ci il tarixli nömrəsində tarix elmləri doktoru, Xəzər Universitetinin nəşri olan "Azərbaycan arxeologiyası" jurnalının baş redaktoru, əməkdar müəllim, professor Qüdrət İsmayılzadənin görkəmli tarixçi alim Sara Aşurbəylinin həyat və yaradıcılığından bəhs edən "Milyonçu qızının böyük şücaəti" adlı geniş məqaləsi dərc olunmuşdur.

Məqalədə müəllif 1996-cı il fevral ayının 3-də Xəzər Universitetində Sara Aşurbəylinin yubiley gecəsinin keçirilməsindən də ətraflı bəhs edir.

Məqaləni bu linkin vasitəsilə oxumaq olar:

*http://xalqqazeti.com/az/news/culture/89724#Kalibri*

In the 28 August, 2017 issue of 'Xalq' newspaper, an article, entitled 'Bravery of a Millionaire's Daughter' which tells about the life and work of Sara Ashurbeyli, the prominent historian scientist, produced by Professor Gudret Ismayilzadeh, Editor-in-chief of the "Azerbaijani Archeology" journal published by Khazar University, Honored teacher, was published.

In the article, the author also talks about the anniversary of Sara Ashurbeyli held at Khazar University on February 3, 1996.

The article can be read through the following link:

*http://xalqqazeti.com/az/news/culture/89724#Kalibri*

## TƏBRİZ UNİVERSİTETİNİN REKTORU AZƏRTAC - a XƏZƏR UNİVERSİTETİ İLƏ ƏLAQƏLƏRİNDƏN DƏ DANIŞIB

## RECTOR OF TABRIZ UNIVERSITY TALKED TO AZERTAC ABOUT RELATIONS WITH KHAZAR UNIVERSITY

Sentyabrın 4-də Azərbaycan Dövlət İnformasiya Agentliyi - AZƏRTAC agentliyin xüsusi müxbiri Rabil Katanovun Təbriz Universitetinin rektoru professor Məhəmmədrza Purməhəmmədidən aldığlı müsahibəni dərc etmişdir. ilə. Müsahibədə M.Purməhəmmədi Xəzər Universiteti ilə yaxın əlaqələrinin olduğunu, tələbə və müəllim mübadiləsi aparıldığını, birgə elmi konfranslar və simpoziumlar keçirildiyini vurğulamışdır

(*https://azertag.az/xeber/1090557*).

Xəbəri ölkənin bir sıra mətbuat orqanları və xəbər saytları yaymışlar.

On September 4, strategy.az news website released the interview to AzerTac with Professor Mahammadrza Purmahammadin, the rector of Tabriz University.

In the interview, Professor M.Purmahammadi emphasized that there is a close relationship with Khazar University and informed that the universities exchanged students and teachers, held joint scientific conferences and symposiums.

The news can be read in full through the following link:

*http://strateq.az/siyaset/195245/təbriz-universitetinin-rektoru.html.*



# HAMLET İSAXANLI: "TEST ÜSULU LƏĞV OLUNA BILMƏZ"

*2017-ci il avqustun 24-də Xeber365 saytında Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə dərc olunmuş müsahibəni təqdim edirik.*

Dövlət İmtahan Mərkəzi Direktorlar Şurasının sədri Məleykə Abbaszadənin iki il sonra buraxılış və qəbul imtahanlarında yeni modelin tətbiq ediləcəyi ilə bağlı açıqlaması cəmiyyətdə narahatlıq doğurub. *Xeber365.com* məsələ ilə bağlı Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə əlaqə saxlayıb. H. İsaxanlı bildirib ki, test üsulu tamamilə ləğv edilə bilməz:

"Mən bu açıqlamanın tam mətni ilə tanış deyiləm. Ona görə də düşünürəm ki, Məleykə xanım, yəqin, test üsuluyla bağlı yeni qaydaların tətbiq olunacağını deyib. Düşünmürəm ki, 2 il sonra test üsulu tamamilə ləğv olunacaq. Sadəcə, qaydalar xeyli fərqli ola bilər. Bu yeni qaydalarda bəlkə iki dəfə, həm orta məktəbi bitirəndə, həm də ali məktəbə qəbul üçün imtahan vermək olmayacaq. Yəqin ki, bir dəfə imtahan veriləcək və mən elə hesab edirəm ki, test üsulu bu imtahan metodlarından biri olacaq. Yeni müsahibə və digər üsullar da ola bilər. Mən belə başa düşürəm. Yoxsa test üsulu tamamilə ləğv edilə bilməz".

Hamlet İsaxanlı hesab edir ki, ali məktəbə yalnız test üsuluyla qəbul orta məktəblərdə bilik səviyyəsinin aşağı düşməsinə səbəb olur:

"Ancaq test yolu ilə universitetə qəbul özlüyündə orta məktəblərin səviyyəsinin aşağı düşməsinə səbəb olur. Çünki orta məktəbdə uşaq oturub ciddi elmi biliklər əldə etmək əvəzinə, test suallarına hazırlaşır. Buna görə məktəblərdə doğru-düzgün dərs keçilmir və müəllimlər də repetitor şəklində uşaqları test imtahanına hazırlaşdırırlar. Bu, elm öyrənmək deyil. Bu özü, müəyyən mənada, fundamental elm öyrənməsinə ziyan vuran bir şeydir. Ona görə də, qəbul imtahanı gərək təkcə testdən ibarət olmasın, esse yazılsın, ciddi bir müsahibə aparılsın ki, şəxsi keyfiyyətləri də müəyyən etmək olsun. Bu, daha geniş yanaşma olardı". *http://xeber365.com/haber-hamlet-isaxanli-test-usulu-l-gv-oluna-bilm-z-11369.html#Kalibri*

Avqustun 24-də professor Hamlet İsaxanlı *sherg.az* saytının da eyni məzmunda sorğusunu cavablandırıb. Tam mətni aşağıdakı link vasitəsilə oxumaq olar: *http://www.sherg.az/site/id-35701/Testin_l%C9%99%C4%9Fvind%C9%99n_sonra_q%C9%99bul_prosesi_nec%C9%99_apar%C4%B1lacaq_?_-_Professor_#Kalibri*

# PROFESSOR HAMLET ISAKHANLI'S RESPONSE TO THE QUESTION OF *XEBER365* WEBSITE

On 24 August, 2017, Xeber365 put a question to Professor Hamlet Isakhanli, the founder of Khazar University, chairman of its Board of Directors and Trustees, regarding the opinion 'A new model will be applied in graduation and admission exams in two years' produced by Maleyka Abbaszadeh, Head of the State Examination Center Board of Directors.

The professor said, in his opinion, the test method cannot be totally removed, it can be one of the test methods in the new model, i.e. other methods can be applied.

The full text can be read through the link below:

*http://xeber365.com/haber-hamlet-isaxanli-test-usulu-l-gv-oluna-bilm-z-11369.html#Kalibri*

# TƏHSİL EKSPERTİ MÜSAHİBƏSİNDƏ PROFESSOR HAMLET İSAXANLININ FİKİRLƏRİNƏ MÜNASİBƏT BİLDİRİB

Avqustun 27-də *strateq.az, icxeberler.info, moderator.az və azpolitika.info* xəbər saytları tanınmış təhsil eksperti Etibar Əliyevlə müsahibə dərc etmişlər. Ekspert son günlərdə testlə bağlı müzakirələrə münasibətini bildirərək, onu da qeyd etmişdir ki, "Dövlət İmtahan Mərkəzi Direktorlar Şurasının sədri Məleykə Abbaszadə testin ləğvindən söhbət açmayıb". Müsahibədə, həmçinin, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının məsələ ilə əlaqədar bir neçə sayta verdiyi müsahibə ilə bağlı aşağıdakı sual-cavab da yer almışdır:

**– Etibar müəllim, Xəzər universitetinin təsisçisi Hamlet İsaxanlı bu mövzu ilə bağlı müsahibəsində deyib ki, orta məktəbdə uşaqları daha çox test istiqamətində öyrədib hazırlaşdırırlar. Xüsusilə yuxarı sinif müəllimləri və repetitorlar testi ön plana çəkirlər. Bu da mexaniki hazırlıq olur və elmi baxımdan uşaqlara ziyandır. Qəbul imtahanı daha geniş formada olmalıdır. Əgər uşaq testdən əlavə başqa mərhələlər və imtahanlar olduğunu bilsə, qəbul imtahanlarına yalnız mexaniki yox, elmi tərəfdən də yanaşacaq.**

– Mən hörmətli Hamlet müəllimlə razıyam. Məktəb proqramları testdən asılı olmamalıdır. Əgər şagird nailiyyətləri mütəmadi olaraq testlə qiymətləndirilirsə, yaxud müəllimlərin karyerası və məktəbin gələcəyi testin nəticələri ilə qiymətləndiriləcəksə, onda test müəllimə necə dərs deməyi diqtə edəcək. Yəni testlər proqramın məzmununa və tədris üsuluna təsir edəcək. Öyrətmənin mövzunu dərk etmədən, "düzgün" və ya "qeyri-düzgün" cavabların axtarışına yönəldilməsi həddindən artıq darıxdırıcı üsuldur. Təəssüflər olsun ki, bizim məktəblərdə bu tendensiya açıq şəkildə nəzərə çarpır. Məsələn, bir misal çəkim: "Qlobal istiləşmə"dən testi cavablandırmaqla, bu mövzuda esse yazmaq arasında dağlar qədər fərq var. Esse şagirdlərdə mühakimə yürütmək, analiz etmək, müxtəlif ideyaları müqayisə etmək kimi bacarıqları ortaya qoyur. Amma onu da inkar etmək olmaz ki, test dünyanın əksər ölkələrində şagird biliklərinin qiymətləndirilməsinin əsasını təşkil edir. Amerikanın "Təhsil aktı" sənədində yazılır ki, müəllimlər bu üsulla qiymətləndirmədə aşkara çıxarmalıdırlar ki, onların şagirdləri düşünə bilirlərmi? Fikrimcə, builki 9-cu siniflərin buraxılış imtahanları mərhələ-mərhələ yeniliklərin tətbiqinə yol açan imtahanlar kimi tarixdə qaldı.

Müsahibənin tam mətnini aşağıdakı linklərdə oxumaq olar:

*http://strateq.az/sosial/193650/etibar-%C9%99liyev.html#Kalibri*

*http://icxeberler.info/cemiyyet/3764-eger-mektebin-geleceyi-testin-neticeleri-ile-qiymetlendirilecekse.html#Kalibri*

*http://www.moderator.az/news/189623.html #Kalibri*

*http://azpolitika.info/?p=349243#Kalibri*

# XƏZƏR UNİVERSİTETİNİN MÜƏLLİMİ HƏSSAS QRUPA AİD ŞƏXSLƏRLƏ BAĞLI SEMİNAR KEÇİRİB

Avqustun 31-də azernews.az xəbər saytı Suraxanı Gənclər Evində keçirilmiş həssas qrupa aid şəxslərə psixoloji dəstək adlı seminar haqqında xəbər yaymışdır. Seminarı Xəzər Universitetinin müəllimi, psixoloq Kamal Əliyev aparmışdır.

Xəbəri tam şəkildə bu link vasitəsilə oxumaq olar:

*https://www.azernews.az/sports/118386.html*

# A TEACHER OF KHAZAR UNIVERSITY HELD A WORKSHOP ON 'VULNERABLE PEOPLE'

On 31 August, azernews.az news website released the news about the seminar "Psychological support to vulnerable people" conducted at Surakhani Youth House. The seminar was held by Kamal Aliyev, the teacher of Khazar University.

The full story can be read through this link:

*https://www.azernews.az/sports/118386.html*

# "XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU

## MƏMMƏD SƏİD ORDUBADİNİN "İKİ ÇOCUĞUN AVROPA SƏYAHƏTİ» ƏSƏRİ ALMANİYADA NƏŞR OLUNUB




Almaniyanın "Borsdorf Winterwork" nəşriyyatında Məmməd Səid Ordubadinin "İki çocuğun Avropa səyahəti" adlı əsəri alman dilində ("Die Reise zweier Jungen nach Europa") işıq üzü görüb.

Kitaba akademik İsa Həbibbəyli "Məmməd Səid Ordubadi və "İki çocuğun Avropa səyahəti" əsəri" adlı ön söz yazmış, Avropa oxucusuna M.S.Ordubadinin həyat və yaradıcılığı, habelə "İki çocuğun Avropa səyahəti" əsəri haqqında müfəssəl məlumat vermişdir.

"İki çocuğun Avropa səyahəti" əsəri ilk dəfə 1907-1908-ci illərdə Bakıda nəşr edilən "Tazə həyat" qəzetində əski əlifba ilə hissə-hissə çap olunmuşdur. 94 günlük səyahəti canlandıran əsər on məktubdan ibarət olub, "Şərq-Qərb müqayisəsi yolu ilə milli oyanışa və dirçəlişə çağırış motivi"ni əks etdirir. Qərb həyat tərzini təsvir edən bu əsər mövzu, süjet və kompozisiyası etibarilə məktub-romandır. "Tərəqqi yoluna çox cəsarətlə addım atmış Almaniya"dan, "ticarətdə dünyaya güzgü misalı olan Belçika"dan, "dünyamızın bir ümumi mədrəsəsi" olan Parisdən, "dünya içində bir dünya olan Avstriya"dan və "Avropa şəhərləri səviyyəsində inkişaf edən Türkiyə"dən yazılmış məktublarda adları çəkilən ölkələrin iqtisadi, siyasi mənzərəsi, həyat tərzi haqqında ümumi məlumat verilməklə yanaşı, həmin ölkələrin sırf özünəməxsus xüsusiyyətləri də qələmə alınmışdır. Akademik İ.Həbibbəylinin qeyd etdiyi kimi, "Şərq-Qərb müqayisəsinin, Avrasiya düşüncəsinin reallıqlarını da meydana qoyan, Azərbaycan ədəbiyyatına maarifçilik düşüncəsi gətirən, XX əsrin əvvəllərində Azərbaycan oxucusunda Qərb ölkələrinin inkişaf səviyyəsi barədə gerçək təsəvvürlərin formalaşmasına imkan yaradan" bu əsər "ədəbiyyatda Şərq-Qərb baxışının ordubadnaməsi"dir.

Alman dilində nəşr olunan "İki çocuğun Avropa səyahəti" kitabı artıq Alman Milli Kitabxanasının biblioqrafiyasında qeydiyyatdan keçirilib. Əsər haqqında ətraflı biblioqrafik məlumatları *http://www.d-nb.de* saytında əldə etmək mümkündür.

Əsəri alman dilinə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Xanım Zairova tərcümə edib.

Məmməd Səid Ordubadinin alman dilində nəşr olunmuş "İki çocuğun Avropa səyahəti" əsəri Azərbaycan-alman elmi-ədəbi əlaqələrinin daha bir maraqlı səhifəsidir. İnanırıq ki, bu qiymətli nəşr Avropa oxucularının böyük marağına səbəb olacaq.



# ÇİNİN ELM VƏ ƏDƏBİYYAT QURUMLARI İLƏ ƏMƏKDAŞLIQ GENİŞLƏNİR

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə Çin Xalq Respublikasının elm və ədəbiyyat qurumları arasında mövcud əməkdaşlıq və gələcək perspektivlər mövzusunda müzakirə keçirilib.

Tədbiri giriş sözü ilə açan AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli Çinlə elmi və ədəbi əlaqələrin müstəqillik illərindəki tarixinə toxunub. Qeyd edib ki, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Konfutsi Mərkəzi fəaliyyət göstərir, Çin dili tədris olunur. Dünyanın əhalisinə görə birinci, iqtisadiyyatına görə ikinci yerdə olan nəhəng dövlətlə elmi və ədəbi əlaqələrin qurulması əhəmiyyətlidir. Eyni zamanda, AMEA-nın rəhbərliyi 2015-ci ildə Çinə səfər etmiş və burada İctimai Elmlər Akademiyasında müxtəlif formatda görüşlər keçirmişdir. Müştərək elmi əməkdaşlıq əlaqələrindən söz açan akademik bundan sonra da qarşılıqlı elmi əlaqələrin uğurla davam edəcəyinə əminliyini ifadə edib.

Tədbirdə Çindən 6 aylıq elmi ezamiyyətdən geri dönmüş institutun əməkdaşı Nərgiz Kərimovanın hesabatı dinlənilib. O, Çinin Xefey şəhərində yerləşən Anxoy Universitetində Çin dili ilə bağlı kurs keçdiyini, təcrübə qazandığını söyləyib.

Görüşdə iştirak edən Pekin Xarici Dillər Universitetinin Asiya-Afrika dilləri fakültəsinin dosenti Aqşin Əliyev Çində Azərbaycan elminin təbliğinin müasir vəziyyəti, görülən işlər barədə məlumat verib. Bildirib ki, 2017-ci ilin fevral ayından Pekin Xarici Dillər Universitetində Azərbaycan dili tədris olunmağa başlayıb. 2018-ci ildə Azərbaycan dili üzrə tələbə qəbulu nəzərdə tutulur. Çin-Azərbaycan dili lüğəti hazırlanıb. "Kitabi Dədə Qorqud" dastanı Pekində Çin dilində çap olunub. Gələn il "Kitabi Dədə Qorqud"la bağlı konfrans keçirilməsi nəzərdə tutulur.

İnstitutun Azərbaycan-Asiya ədəbi əlaqələri şöbəsinin müdiri, professor Bədirxan Əhmədov çıxış edərək, son zamanlar Azərbaycan-Çin ədəbi əlaqələrinin inkişaf etdiyini və bu əməkdaşlığın gələcəkdə ciddi elmi tədqiqatlar aparmağa imkan verdiyini bildirib.

Sonda akademik İ. Həbibbəyli gələcək əməkdaşlığa dair təkliflərini bildirib. Akademik vurğulayıb ki, Azərbaycan dilinin tədrisi ilə bağlı dərslik, kitab, materiallarla bağlı Akademiya tərəfindən hər cür köməklik göstərilməsi, Pekin Xarici Dillər Universiteti ilə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu arasında əməkdaşlığa dair müqavilə imzalanması, qarşılıqlı ədəbi-elmi əlaqələrin inkişaf etdirilməsi üçün videokonfranslar keçirilməsi, Pekin Xarici Dillər Universitetində Azərbaycanşünaslıq mərkəzinin açılması gələcək əlaqələrin yüksək səviyyədə inkişafına kömək edə bilər.

ЭХО
Общественно-политическая газета Азербайджана

# ВУЗЫ АЗЕРБАЙДЖАНА В АКАДЕМИЧЕСКИХ РЕЙТИНГАХ ИНОСТРАННЫХ ОРГАНИЗАЦИЙ

*Предлагаем нашим читателям интервью с учредителем, председателем Совета Директоров и Попечителей Университета Хазар профессором Гамлетом Исаханлы, опубликованное в официальной странице интернет-сайта газеты «Эхо» 30 августа 2017 г.*

В Азербайджане с образованием все не так гладко, как этого хотелось бы. Проблемы начинают уже со школьной скамьи и продолжаются в ВУЗах. Кстати, о ВУЗах, недавно опубликованный рейтинг лучших университетов мира показал, что нам особо нечем похвастаться.

Отметим, что в мире многие при выборе университета для поступления ориентируются на рейтинги высших учебных заведений. Наиболее известные академические рейтинги - это Times Higher Education (THE) и QS Rankings. Они составляются независимыми организациями и являются наиболее авторитетными. Остальные рейтинги, как правило, либо копируют, либо основываются именно на этой информации, частично или полностью.

Не так давно британский журнал Times Higher Education опубликовал рейтинг лучших университетов мира World University Rankings 2016-2017. В список вошли 980 ВУЗов из разных стран мира, в том числе 400 университетов Европы.

В список попали 17 ВУЗов Турции, 24 ВУЗа России, 13 иранских ВУЗов. Из стран бывшего СССР лидерами рейтинга по количеству ВУЗов и их местам стали Россия, Украина и Казахстан.

Отмечается, что регионы, которые прежде не были представлены в рейтинге, в этом году сделали значительный прогресс, например, университеты Ближнего Востока, Южной Америки. Что касается Азербайджана, то, в рейтинг попали и отечественные Вузы.

Как отметил в беседе с *echo.az* учредитель, председатель Совета Директоров и Попечителей Университета Хазар профессор Гамлет Исаханлы, всего в этот рейтинг были включены два азербайджанских ВУЗа - университет Хазар, который занял 714 место и БГУ, занявший 812 место.

По словам Г.Исаханлы, попасть в столь авторитетный рейтинг для любого государства – это уже определенное достижение, так как рейтинг QS считается одним из самых выдающихся, на ряду с Times Higher Education и с Шанхайским рейтингом.

«Для сравнения стоит отметить, что в рейтинг QS не вошло ни одно высшее учебное заведение Грузии и Армении. Стоит отметить, что при составлении рейтинга QS во внимание принимается множество различных образовательных параметров, в первую очередь это уровень качества преподавания, куда выпускники того или иного учебного заведения устраиваются на работу после его окончания, как оплачивается их труд, какое число студентов приходится на одного преподавателя и т.д.,» - сказал Исаханлы.

«Если же говорить о рейтинге, опубликованном в Times Higher Education, то там, в основном, имеет значение число опубликованных статей в лучших научных журналах мира. В этой сфере в азербайджанской системе образования дела и правда обстоят слабо, и по этой причине не стоит удивляться тому, что ни один отечественный ВУЗ не попал в данный рейтинг,» - сказал он.

Как отметил Исаханлы, если говорить о качестве образования в Азербайджане, то стоит признать, что некоторые улучшения в данной сфере имеются, но они и правда идут весьма медленными темпами.

«Сегодня в мировом сегменте высшего образования имеется колоссальная конкуренция между ВУЗами и, безусловно, наша образовательная система остро нуждается в модернизации. Когда мы говорим об уровне подготовки абитуриентов, готовящихся к поступлению в ВУЗ, то сегодня, впрочем, как и во времена советской системы образования, мы имели дело с сильными студентами, со студентами среднего уровня и с совсем слабыми студентами - сказал он.

«Кроме того, важно учитывать и тот факт, что в стране очень мало высококвалифицированных преподавателей, именно по этой причине в частности наш ВУЗ вынужден приглашать преподавателей из-за границы» - резюмировал Исаханлы.

**С. Алиева**

*http://ru.echo.az/?p=62224*

## PROFESSOR HAMLET İSAXANLININ "ЭХО" QƏZETİNƏ MÜSAHİBƏSİ

2017-ci il avqustun 30-da "Эхо" qəzetinin rəsmi internet səhifəsində Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə "Вузы Азербайджана в академических рейтингах иностранных организаций" ("Azərbaycanın ali təhsil müəssisələri xarici təşkilatların akademik reytinqlərində") adlı müsahibə dərc olunmuşdur.

Müsahibəni bu link vasitəsilə oxumaq olar: *http://ru.echo.az/?p=62224*

## PROFESSOR HAMLET ISAKHANLI GAVE AN INTERVIEW TO "ECHO" NEWSPAPER

On August 30, 2017, the text of the interview with Hamlet Isakhanli, the founder of the University, chairman of its Board of Directors and Trustees, on the subject "Azerbaijani higher educational institutions in the academic rankings of foreign organizations" was released on the official website of the "Echo" newspaper (in Russian).

The text is readily accessible through this link: *http://ru.echo.az/?p=62224*

## TANINMIŞ ZİYALILAR MEHMAN ƏLİYEVƏ GÖRƏ PREZİDENTƏ MÜRACİƏT ETDİLƏR

Sentyabrın 6-da Azərbaycanın tanınmış ziyalıları həbsdə olan "Turan" İnformasiya Agentliyinin direktoru Mehman Əliyevlə bağlı Prezident İlham Əliyevə müraciət ünvanlamışlar. Müraciəti imzalayanlar arasında Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı da var. Müraciətdə onlar Prezidentdən Mehman Əliyev barəsində həbs qətimkan tədbirinin dəyişdirilməsinə kömək göstərməsini xahiş etmişlər.

Müraciətin mətnini ölkənin 20-dən artıq xəbər saytı dərc etmişdir:

*http://baymedia.az/news.php?id=70845*

*http://teleqraf.com/news/siyaset/147873.html*

*http://hurriyyet.org/xeberlenti/35271-taninmis-sxslr-prezident-muracit-etdi-anar-frhad-bdlbyli-v-daha-kimlr.html* və s.

Qeyd edək ki, sentyabrın 8-də Mehman Əliyev özü də barəsində seçilmiş həbs qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz olunması üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət edib. Prezident hüquq mühafizə orqanlarına Mehman Əliyevin müraciətinə baxılmasını tapşırıb. Sentyabrın 11-də Yasamal Rayon Məhkəməsi Mehman Əliyevin barəsində olan həbs qətimkan tədbirinin başqa yerə getməmək haqda iltizam tədbiri ilə əvəz olunması barədə vəsatəti təmin edib və o həbsdən buraxılıb.

## FAMOUS INTELLECTUALS TURNED TO PRESIDENT FOR MEHMAN ALIYEV

On September 6, famous Azerbaijani intellectuals addressed an appeal to President Ilham Aliyev bound up with Mehman Aliyev the imprisoned director of "Turan" Information Agency. Among those who signed the petition there is the founder of Khazar University, the chairman of the Board of Directors and Trustees, Hamlet Isakhanli. They asked the President to help for changing the act of enacting to imprisonment of Mehman Aliyev. More than 20 local media web-sites published the petition:

*http://baymedia.az/news.php?id=70845*

*http://teleqraf.com/news/siyaset/147873.html*

*http://hurriyyet.org/xeberlenti/35271-taninmis-sxslr-prezident-muracit-etdi-anar-frhad-bdlbyli-v-daha-kimlr.html*

Indicating that, on September 8, Mehman Aliyev appealed alike to the President of Azerbaijan Republic Ilham Aliyev for himself to change the imprisonment decree to home arrest. The President ordered law-enforcement bodies to consider the appeal of Mehman Aliyev. Yasamal District Court filing the application of substituting the imprisonment sentence with commitment decree on not to go elsewhere, released Mehman Aliyev on September 11.

## INTERVIEW WITH PROFESSOR HAMLET ISAKHANLI ABOUT LOTFI ZADE

On 7 September, 2017, the article entitled 'It is not clear whether Zadeh will be buried in Azerbaijan' related to a well-known scientist Lutfi Zadeh produced by Hamlet Isakhanli, the founder of the University, chairman of its Board of Directors and Trustees, was released on the teleqraf.com website.

*The text is readily accessible through this link: http://teleqraf.com/news/gundem/148025.html.*

(The interview is published on pages 38).



# GÖRKƏMLİ ALİM LÜTFİ ZADƏNİN XATİRƏSİNƏ

Lütfəli Rəhim oğlu Əsgərzadə, qısaca Lütfi Zadə adı ilə tanınan, elektrik mühəndisliyi və süni intellekt sahəsində görkəmli mütəxəssis, riyaziyyatçı, Kaliforniya Berkli Universitetinin (University of California, Berkeley) əməkdar (emeritus) professoru, Avrasiya Akademiyasının beş qurucu üzvündən biri olan görkəmli alim sentyabrın 6-da Amerikada, Berkli (Berkeley) şəhərində vəfat etmişdir.

Lütfi Zadə 1921-ci ildə Bakıda anadan olmuş, 1931-ci ildə ailəsi ilə İrana, əslən Ərdəbildən olan atasının vətəninə köçmüşdür. 1942-ci ildə Tehran Universitetini elektrik mühəndisliyi üzrə bitirmiş, 1944-cü ildə Amerikaya köçmüşdür. 1946-cı ildə MIT-dən (Massaçusets Texnologiya İnstitutundan) elektrik mühəndisliyi üzrə magistr dərəcəsi, 1949-cu ildə Kolumbiya Univeristetindən (University of Columbia) PhD dərəcəsi almışdır. 1957-ci ildə həmin universitetin professoru olmuş, 1959-cu ildən başlayaraq Kaliforniyada, Berkli universitetində çalışmağa başlamış, ömrünün sonuna qədər orada işləyib yaşamışdır.

Lütfi Zadə qeyri-səlis çoxluq, qeyri-səlis məntiq, qeyri-səlis hesablama kimi nəzəriyyələr qurmuş, diskret zaman siqnal analizində çox işlənən z-çevirmə nəzəriyyəsini quran iki mütəxəssisdən biridir. Bu nəzəriyyələr texnoloji və sosial proseslərdə öz tətbiqlərini tapmışlar. Lutfi Zadə Kaliforniya Berkli Universitetində "İnformasiya Texnologiyaları üzrə Zadə İnstitutu"nu təsis etmişdir. Bir çox nüfuzlu elm və texnologiya qurumlarının üzvü olmuş, çoxsaylı mükafatlara, medallara və fəxri adlara layiq görülmüşdür. Əsərlərinə ən çox istinad edilən alimlərdən sayılır.

2012-ci ildən başlayaraq professor Lütfi Zadə, Türkiyəli tarixçi Halil İnalcık, beyin cərrahı Mahmud Qazi Yaşargil, bəstəkar Arif Məlikov və riyaziyyatçı alim, humanitar və social elmlər üzrə tədqiqatçı Hamlet İsaxanlı yeni tip akademiya – Avrasiya Akademiyasını qurmağa başlamış, bu məqsədlə Kaliforniyada, İstanbulda, Ankarada və Bakıda görüşlər keçirmişlər. 2016-cı il yanvarın 29-da Bakıda, Xəzər Universitetində Avrasiya Akademiyasının rəsmi açılışı olmuşdur.

Professor Lütfi Zadə dini, irqi, millətçi görüşlərdən uzaq duran görkəmli alim və gözəl insan idi. O və onun yaradıcılığı Azərbaycanda elmin inkişafına təsir göstərmişdir. Lütfi Zadə Azərbaycanda olmuş, ölkə prezidenti ilə görüşmüş, mükafatlara layiq görülmüşdür.

Professor Lütfi Zadənin xatirəsi onu tanıyanların və onun əsərlərindən bəhrələnənlərin qəlbində yaşayacaq. Professor Lütfi Zadənin ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirəm.

**Xəzər Universiteti Direktorlar və Qəyyumlar Şurasının sədri,**
**Avrasiya Akademiyasının qurucu üzvü professor Hamlet İsaxanlı**

*7 sentyabr 2017-ci il*

# TO THE MEMORY OF THE PROMINENT SCIENTIST LOTFI ZADEH



Lotfi Zadeh (Lutfali Rahim Asgerzade), the outstanding specialist in electrical engineering and artificial intelligence, mathematician, professor emeritus at the University of California, Berkeley, one of the five founding members of the Eurasian Academy, passed away on September 6 in Berkeley, America.

Lotfi Zadeh was born in Baku in 1921 and moved to Iran, his father`s homeland in 1931 with his family.

In 1942, he graduated from the University of Tehran with a degree in electrical engineering and moved to America in 1944. He received an M.S. degree in electrical engineering from M.I.T. (Massachusetts Institute of Technology) in 1946 and received his PhD in electrical engineering from the University of Columbia in 1949. In 1957, he became a professor of the same university, and since 1959 he began his career at Berkeley University in California, where he lived and worked until the end of his life.

Lotfi Zadeh formulated theories such as fuzzy sets, fuzzy logic, and fuzzy algorithms and he is one of two specialists who developed the z-transform method in discrete time signal processing and analysis. These theories have found widespread applications in technological and social processes. Lotfi Zadeh founded Zadeh Institute for Information Technology at Berkeley University in California (ZIFIT). He was a member of many influential science and technology institutions and was awarded numerous awards, medals and honorary titles. He is one of the most highly-cited scientists in the world.

In 2012 Professor Lotfi Zadeh, Turkish historian Halil Inalcık, neurosurgeon Mahmut Gazi Yasargil, composer Arif Melikov and mathematician scientist, researcher in the field of humanitarian and social sciences Hamlet Isakhanli initiated to establish an academy of a new type- Eurasian Academy. To this end, they had meetings in California, Istanbul, Ankara and Baku. On January 29, 2016, the official opening of the Eurasian Academy was held at Khazar University, Baku.

Professor Lotfi Zadeh was an outstanding scientist and a remarkable person who was away from religious, racial, nationalist views. He and his work influenced the development of science in Azerbaijan. Lotfi Zadeh visited Azerbaijan, met with the president of the country and was awarded.

Professor Lotfi Zadeh's memory will live in the hearts of those who know him and those who benefit from his works. I express my deepest condolences to the family and friends of Professor Lotfi Zadeh.

**Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, the founding member of Eurasian Academy**

*September 7, 2017*



# HAMLET İSAXANLI: "LÜTFİ ZADƏ ÇOX İNTERNASİONAL, DÜNYANI BƏRABƏR GÖRƏN, DİNLƏ ÇOX ƏLAQƏSİ OLMAYAN, DÜNYƏVİ ŞƏXS İDİ"

*2017-ci il sentyabrın 7-də teleqraf.com xəbər saytında Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə dərc olunmuş müsahibəni təqdim edirik.*

"Lütfi Zadə çox böyük və görkəmli alimdir. Buna heç kəsin şübhəsi olmasın. Tam emosiyasız qeyd etməliyəm ki, o, görkəmli amerikan alimidir, dünyada elmin inkişafına böyük təsir göstərib, töhfə verib. Allah ona rəhmət eləsin. Bioqrafiyasında yazılıb ki, atası azərbaycanlıdır, Bakıda doğulub, yəni Azərbaycanla bağlılığı var. Azərbaycanda onu çox gözəl tanıyırdılar, sevirdilər. Həm onu tanıyanların, həm də elm adamı kimi əsərlərindən istifadə edənlərin qəlbində və əsərlərində yaşayacaq."

Bu sözləri *teleqraf.com*-a açıqlamasında Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Azərbaycanın dünya şöhrətli alimi Lütfi Zadənin vəfatı barədə danışarkən deyib.

Lütfi Zadəni böyük alim kimi xarakterizə edən Hamlet İsaxanlı qeyd edib ki, o, dünyada əsərlərinə ən çox istinad olunan alimlərdən olub:

"Bəzən ona bilməyərək riyaziyyatçı deyirlər, amma o mühəndisdir, doktorluq işini elekrik mühəndisliyi üzrə müdafiə edib. Eyni zamanda riyazi tətbiqləri də var, daha çox tətbiqi və müəyyən mənada nəzəri mühəndislik sahələrində tanınmış, hörmət doğuran mütəxəssis olub. Onun bir sıra yenilikləri də var, qeyri-səlis çoxluq, qeyri-səlis məntiq, qeyri-səlis hesablama kimi nəzəriyyələr qurub, diskret zaman siqnal analizində çox işlənən Z-çevirmə nəzəriyyəsini quran iki mütəxəssisdən biridir".

## Bildiyi 3 dil vardı, azərbaycanca bilmirdi...

*Azərbaycanda Lütfi Zadə barədə birmənalı olmayan münasibətə gəlincə, Hamlet İsaxanlı hesab edir ki, onun Azərbaycana heç bir bağlılığı olmasaydı, sadəcə, barəsində bir görkəmli alim kimi danışılacaqdı:*

"Orada da söhbət qurtaracaqdı. Adam Azərbaycanda anadan olub, atası azərbaycanlıdır, Ərdəbildəndir, anası yəhudidir və ailədə danışıq dili rus dili olub. Lütfi Zadənin uşaqkən bildiyi əsas dil rus dili idi, 10 yaşı olanda İrana köçüblər, məktəbdə fars dilində təhsil alıb və bu dil onun 2-ci dili olub. Tehran Universitetini bitirdikdən sonra Massaçusets Texnologiya İnstitutunda təhsilini davam etdirib. Amerikaya getməzdən əvvəl ingilis dilini

öyrənmişdi, Birləşmiş Ştatlarda daha da təkmilləşdirdi və bu dil onun elm dili oldu. Beynəlxalq məclislərdə ingilis, evdə rus dilində danışırdı. Xanımı 1 il əvvəl rəhmətə getdi, təxminən il yarım bundan əvvəl onların evində oldum, onda gördüm ki, rusca danışırlar. Söhbətə ingilis dilində başladım, sonra restorana yeməyə aparanda yanımda ingilis dilində bilməyənlər vardı deyə, söhbəti rus dilində davam etdirdik. Lütfi Zadə Azərbaycan dilində bilmirdi. Onun bildiyi və danışdığı 3 dil vardı: rus, fars və ingilis dilləri. Rus və ingilis dilini isə aktiv işlədirdi, fars dilində lazım gələndə, kiminləsə qarşılaşanda danışırdı".

## Millətçi deyildi

*Hamlet İsaxanlının sözlərinə görə, Lütfi Zadə qəti surətdə millətçi deyildi:*

"Çox internasional, dünyanı bərabər görən, dinlə çox əlaqəsi olmayan, dünyəvi şəxs idi. Azərbaycanı tanıyırdı, elm adamı idi, bilirdi ki, atası azərbaycanlıdır və özü Azərbaycanda anadan olub. Azərbaycanla da əlaqələri, tələbələri ilə təmasları vardı. Rafiq Əliyev müəyyən mənada onun tələbəsi sayılır, çünki onun elm sahəsində məşğul olduğu işlərlə məşğuldur. Azərbaycandan onun yanına gedib-gələn başqa şəxslər də var. Bizim alimlər məhz onun adı ilə bağlı bu sahə ilə məşğul olublar. Bu mənada o, Azərbaycanda da elmin inkişafına, heç şübhəsiz, təsir göstərib".

## Azərbaycan dövlət nişanını ev pencəyinin yaxasından asmışdı

*"Lütfi Zadə Qarabağla bağlı bir dəfə də olsun danışmayıb" iddialarına Hamlet İsaxanlı belə aydınlıq gətirib:*

"Deyirdilər ki, niyə adından, tribunasından istifadə edib, Azərbaycan məsələlərini qaldırmır. O, belə məsələlərlə məşğul olmaq istəmirdi, o tipli adam deyildi. Azərbaycana hörməti vardı, yaşlı vaxtında bir neçə dəfə gəlmişdi, prezidentlə görüşmüşdü, ona yüksək dövlət mükafatı verilmişdi. Yadıma düşür, onun evinə gedəndə ev geyimində idi, tez-tez məndən üzr istəyirdi ki, qalstuk bağlamamışam. Adam evdə qalstuk taxmaz ki... Amma bizim dövlət nişanını evdə geyindiyi pencəyinin üstünə taxmışdı. Azərbaycanda yüksək səviyyədə qəbul edilməsini və tanınmasını qiymətləndirirdi. Onun Azərbaycana marağı, xüsusi hörməti vardı.

"Gecə-gündüz Azərbaycan həqiqətlərini düşünməli, çıxışlar etməliydi, Qarabağ problemlərini qaldırmalıydı" kimi gözləntilər var, axı onun Qarabağ problemini qaldırmaq üçün böyük imkanı yox idi. Onun tribunası elm məclisləri, konfranslar idi. Üstəlik son illər hərəkət məhdudiyyəti vardı. Avrasiya Akademiyasını quranda təsis toplantısı Bakıda olmalıydı, düzü, paytaxtda da oldu, amma o, gələ bilmədi, çünki təyyarəyə minmək olmazdı. Buna görə də məsləhətləşmək üçün biz onun yanına getdik. Əvvəl uzun müddət telefon və elektron poçt vasitəsilə əlaqə saxlayırdıq, sonra üzbəüz görüş lazım idi deyə, ABŞ-a yollandıq. Ondan buna görə incimək və bir şeylər gözləmək heç doğru deyil. Bu yaxınlarda Nobel mükafatı alan Əziz Sancar Bakıya gəlmişdi, türkdür, Türkiyədə doğulub-böyüyüb, öz türklüyünü saxlayıb, amma məruzəsini tamamilə ingilis dilində elədi, bir kəlmə də türkcə danışmadı. Dedi ki, mən dünyanı sevirəm, dünyanın hər tərəfindən tələbələrim var, çinli, amerikalı, vyetnamlı, türk və sair.

Bizdə beledir, kiminsə bir tərəfi azərbaycanlı olanda nostalji var, deyirik, böyük adamlarımız çox olsun. İstəyirik ki, onlar hər cür işlərlə məşğul olsun, biz də milli qəhrəman edək, bəzi şeyləri də onların adına uydururuq. Məsələn, gecə-gündüz Azərbaycanı düşünməlidir, burada dəfn olunmalıdır və ya dəfn edilməməlidir ətrafında müzakirə aparıldı və sair. Görkəmli rejissor Cənnət Səlimova onun xalası qızıdır, o da, mən də demişdim ki, Azərbaycanda dəfn olunmaqla bağlı vəsiyyətinə inanmıram. Çünki sevimli xanımı Berklidə torpağa tapşırılıb. Berkli çox sevdiyi və gəzməli yerdir, ailəsi, uşaqları oradadır. Mənim fikirlərim söz-söhbətə səbəb olmuşdu. Belə spekulyasiyalar ayıbdır. Bəzi insanlar onun adından istifadə edib özünə şöhrət gətirmək istəyir. Yanına gedib-gəlirlər, deyirlər, mənə belə dedi, mən belə söylədim. Xatirələr ki var, onun xeyli hissəsi uydurma olur. Çünki başqa insan haqqında xatirələri danışan şəxs özünü də qəhrəmana çevirir, istəyir o adamın şöhrəti özünə əlavə olunsun. İnsan nəyə görə böyükdürsə, o böyüklüyü qeyd eləmək lazımdır. Böyük insanın uydurma şeylərə ehtiyacı yoxdur".

Azərbaycanda dəfn məsələsinə toxunan Hamlet İsaxanlı bunun oğlunun qərarına bağlı olduğunu deyib:

"Bu barədə dəqiq bir şey deyə bilmərəm. Oğlu Norman bir müsahibəsində demişdi ki, Azərbaycana xüsusi marağım yoxdur, amerikalıyam. Oğlundan belə şey istəmək olardı ki, istəyirsən, bir kağız imzala, burada dəfn olunsun. Belə şey edə bilərlər. Cənnət Səlimova ailə üzvüdür, Rafiq Əliyev Azərbaycandan ən yaxın adamı olub, Rafiq müəllim biz ABŞ-a gedəndə bizim görüşümüzə təşkilati kömək elədi, bu iki yaxın şəxsin ikisi də qeyd edib ki, rəsmi özünün belə vəsiyyəti yoxdur, Amerika sevdiyi ölkədir".

*Qeyd edək ki, Lütfi Zadə, türkiyəli tarixçi Halil İnalcık, beyin cərrahı Mahmud Qazi Yaşargil, bəstəkar Arif Məlikov və professor Hamlet İsaxanlı Avrasiya Akademiyasını qurub, ötən ilin yanvarında akademiyanın rəsmi açılışı olub.*

**Nərgiz**

*http://teleqraf.com/news/gundem/148025.html*

## XƏZƏR UNİVERSİTETİNDƏ 2017 - 2018 - Cİ TƏDRİS İLİNDƏ TƏLİM-TƏDRİS İŞLƏRİNİN TƏŞKİLİ BARƏDƏ İCLAS

Sentyabrın 6-da Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Xəzər Universitetində 2017-2018-ci tədris ilində təlim-tədris işlərinin təşkili ilə əlaqədar iclas keçirdi.

Universitetin rektoru Dr.Hassan Niknafs, İdarəetmə və tələbə işləri üzrə prorektor İsaxan İsaxanlı, Təhsil fakültəsinin dekanı Elza Səmədova, Humanitar və sosial elmlər fakültəsinin dekanı Cabir Xəlilov və İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədovun iştirak etdikləri iclasda cari dərs ilində qarşıda duran vəzifələr və onların həyata keçirilməsi yolları geniş müzakirə olundu.

## MEETING ON ORGANIZATION OF TEACHING AND EDUCATION FOR 2017 - 2018 ACADEMIC YEAR AT KHAZAR UNIVERSITY

On September 06, 2017, Chairman of the Board of Directors and Trustees Professor Hamlet Isakhanli held a meeting on organization of teaching and education for 2017-2018 academic year at Khazar University. Rector of the University Dr. Hassan Niknafs, Vice-rector Mr. Isakhan Isakhanli, as well as Deans of the Education Faculty, Humanitarian and Social Sciences Faculty and Ecnomics and Management Faculty of the University, resspectively Mrs. Elza Samadova, Mr. Jabir Khalilov and Mr. Jeyhun Mammadov participated at the meeting.

Forthcoming tasks of the current academic year and the ways of their accomplishment were thoroughly discussed in the meeting.

## İQTİSADİYYAT VƏ MENECMENT FAKÜLTƏSİNİN YENİ ƏMƏKDAŞLARI İLƏ GÖRÜŞ

Sentyabrın 7-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı İqtisadiyyat və menecment fakültəsinin yeni müəllim kollektivi ilə görüş keçirdi. Fakültənin dekanı, i.ü.f.d Ceyhun Məmmədov kollektivin yeni əməkdaşları - dekan müavini, i.ü.f.d. Şəhriyar Muxtarovu və İqtisadiyyat və menecment departamentinin koordinatoru i.ü.f.d Elvin Məmmədovu professor Hamlet İsaxanlıya təqdim edərək, onlar haqqında geniş məlumat verdi.

Professor Hamlet İsaxanlı kollektivin yeni üzvlərinə Xəzər Universitetinin tarixi, inkişaf mərhələləri, beynəlxalq əlaqələri, təhsil müəssisəsində qazanılan uğurlar barədə məlumat verərək, universitetdə reallaşdırılan proqram və beynəlxalq layihələrdən danışdı. Görüşdə qarşıda duran vəzifələr, idarəetmə, elmi-tədqiqat fəaliyyətinin genişləndirilməsi, tədris və imtahan prosesinin təkmilləşdirilməsi, təhsilin keyfiyyətinin yaxşılaşdırılması, tələbələrin elmə olan marağının daha da artırılması üçün müxtəlif seminar və elmi konfransların keçirilməsi və digər məsələlər müzakirə edildi.

## A MEETING WITH NEW STAFF OF THE SCHOOL OF ECONOMICS AND MANAGEMENT TOOK PLACE

On September 7, Professor Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees held a meeting with the new teaching staff of the School of Economics and Management of the University. Jeyhun Mammadov, PhD in Economics, Dean of the School of Economics and Management presented new employees, Shahriyar Mukhtarov, PhD in Economics, Dean's Assistant and Elvin Mammadov, PhD in Economics, Coordinator of the Department of Economics and Management, to Professor Hamlet Isakhanli and gave detailed information about them.

Professor Hamlet Isakhanli, in his turn, informed the new members of the staff about the history, development stages, international relations of the university and the success achieved at the educational institution and spoke about the programs and international projects implemented at the university. During the meeting, the participants discussed various issues, such as the upcoming tasks, the management, the expansion of scientific and research activities, the improvement of the teaching and examination process, the enhancement of the quality of education, the organization of various seminars and scientific conferences to further increase the students' interest in science.

## XƏZƏR UNİVERSİTETİNDƏ "AÇIQ QAPI" GÜNLƏRİ

Avqustun 2-10-da Xəzər Universitetinin Neftçilər kampusunda "Açıq Qapı" günləri keçirildi. Həmin günlər çoxlu sayda abituriyent, valideynlər və orta məktəb müəllimləri universitetdə oldular. Universitetin əməkdaşları onları maraqlandıran bütün sualları cavablandırdılar, faydalı məsləhətlər verdilər. Qonaqlara ixtisaslar haqqında məlumatları özündə əks etdirən bukletlər paylanıldı.

Arzu edən abituriyentlər kitabxana, laboratoriya və sinif otaqları ilə tanış oldular.

# "XƏZƏR"İN MƏZUNLARI VƏ TƏLƏBƏSİ İŞLƏ TƏMİN OLUNDULAR

Xəzər Universiteti Mühəndislik və tətbiqi elmlər fakültəsinin builki üç məzunu - Fərid İsrafilov, Asif Həsənli, Fərid Əmiraslanlı və həmin fakültənin dördüncü kurs tələbəsi Nəzrin Babaşova 2017-ci ilin mayında "Encotec" şirkətində 2 həftəlik təlimdən sonra işə götürülmüşdür.

"Encotec" şirkəti 2001-ci ildə Faiq Rzayev tərəfindən təsis edilib və yaxşı idarə olunan çoxsahəli mühəndis-layihələşdirmə şirkətidir. Şirkət əsasən Azərbaycanın neft və qaz sənayesinə texniki layihələşdirmə xidmətlərini, layihələrin idarə edilməsi, quraşdırma və istismara vermə işlərini təmin edir.



**Fərid Əmiraslanlı**



**Asif Həsənli**

## GRADUATES AND A STUDENT OF KHAZAR UNIVERSITY GOT EMPLOYED

Farid Israfilov, Asif Hasanli, Farid Amiraslanli, three graduates of Khazar University, who have graduated from the Faculty of Engineering and Applied Sciences this year, and Nazrin Babashova, 4th year student of the same faculty after 2 weeks long training were recruited by "Encotec" company on May, 2017.

"Encotec" was established by Faiq Rzayev in 2001 and is considered to be a well-managed, multi- disciplined engineering company. The company is mainly involved in providing oil and gas industry of Azerbaijan with technical project services, project management, installation and exploitation services.



**Fərid İsrafilov**



**Nəzrin Babaşova**

GÜNDƏLİK İCTİMAİ SİYASİ QƏZET
ŞƏRQ
www.sherg.az

# "XARİCDƏ YAXŞI UNİVERSİTETİ BİTİRİB GƏLƏNƏ KİM NƏ DEYƏ BİLƏR?"

*2017-ci il sentyabrın 7-də "Şərq" qəzetinin internet səhifəsində Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə dərc olunmuş müsahibəni təqdim edirik.*

"Ancaq bir şəxs imtahan verə bilmirsə, "Mən xaricdə oxuyub gəlmişəm" deməklə üstünlük qazanmır"

*Son 1 ildə xaricdə təhsil alan 900-ə yaxın vətəndaşın diplomu Azərbaycanda tanınmayıb. Gündəmin əsas mövzularından biri 900 nəfərin sonrakı aqibətinin necə olmasıdı.*

*Təhsil Nazirliyinin Akkreditasiya və Nostrifikasiya İdarəsinin rəisi Samir Vəliyev bildirib ki, idarənin bir illik fəaliyyəti dövründə 3000-dən çox vətəndaş sənədlərinin nostrifikasiyası (xarici dövlətlərin ali təhsil sahəsində ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyən edilməsi) ilə bağlı müraciət edib. Onların təxminən 33 faizindən imtina edilib və həmin şəxslərin diplomları tanınmayıb.*

*İdarə rəisi qeyd edib ki, bu da rəqəmlə 900-ə yaxın vətəndaşın diplomunun tanınmaması deməkdir: "İmtinanın səbəbləri əsasən vətəndaşların tədris dilini bilməməsi, öz ixtisasından heç bir məlumatın olmaması, eləcə də daxil olan sərhəd məlumatına əsasən verilmiş imtinalar, ixtisasların təhsil pillələri üzrə uyğunsuzluğu və digərləri daxildir. Təhsil müəssisələrini uğurla bitirən 60 faizdən çox şəxsin diplomları isə ölkədə tanınıb".*

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı xaricdən verilən diplomların öl-kəmizdə tanınması proseduru ilə bağlı "Şərq"ə danışıb.

Professor bildirib ki, insanlar xaricə üz tutursa və daha keyfiyyətli təhsil almaq məqsədi güdürlərsə, bu olduqca yaxşı haldır. Amma hər bir ölkədə prestijli universitetlər olduğu kimi, insanlara savad verməkdə maraqlı olmayan müəssisələr də var:

"Xaricə gedən şəxs yaxşı bir universiteti seçir və oranı uğurla bitirib gəlirsə, məncə, onların diplomunun ölkəmizdə tanınmasında heç bir problem olmaz. Kimsə tanınmış bir universitetdə yaxşı təhsil aldı və geri gəldi, kim ona nə deyəcək ki?

Lakin bu məsələ ilə bağlı bir sıra nüanslar da var. İnsanların xeyli hissəsi ölkəmizdə qəbul imtahanı verə bilmir, yəni zəif hazırlaşırlar, zəruri minimum bal toplaya bilmirlər. Xaricdə isə gedib heç bir imtahan vermədən hansısa universitetə daxil olmaq olar. Dünyanın müxtəlif ölkələrində belə universitetlər var. Bu universitetlər nüfuzlarının qorunmasında, ciddi tədqiqat işlərinin aparılmasında maraqlı olmurlar. Onlar sadəcə düşünür ki, tələbələr gəlsin, pul versinlər. Amma fakt budur ki, ortada ciddi bir savad yoxdu. Bu şəxslər ölkəmizə gələndə diplomlarının tanınmasında problem yaranır, çünki potensialı yüksək olan bir universiteti yaxşı qiymətlərlə bitirməyiblər".

H.İsaxanlı həmçinin bildirib ki, valideynlər də diqqətli olmalıdır. Sırf xarici ölkədir deyə övladlarını bilib-bilmədən hansısa universitetdə təhsil almağa göndərməli deyillər. Əks halda, bu cür problemlər yarana bilər: "Ona görə də, övladları gedib elə yerdə oxuyacaqlar ki, o oxumağın heç bir faydası yoxdur. Ondansa bir az çalışsalar və Azərbaycandakı zəif universitetlərə girsələr, heç bir problemləri olmaz. Bir adam imtahan verə bilmirsə, "Mən xaricdə oxuyub gəlmişəm" deməklə üstünlük qazanmır.

Əlbəttə ki, vətəndaşlarımız getsin Kembric universitetində və ya başqa Avropa ölkələrində təhsil alsınlar. Amma onlar diqqətli olmalıdır ki, getdikləri universitet yaxşıdır, ya yox. Demirəm ki, gedib İngiltərənin ilk 10 universitetlərindən birində təhsil alsınlar, ilk 100 universitetin içində olan ali məktəblərin birində də oxuyub gələ bilərlər".

**Yeganə Bayramova**

*http://www.sherg.az/site/id-36092/Xaricd%C9%99_yax%C5%9F%C4%B1_universiteti_bitirib_g%C9%99l%C9%99n%C9%99_kim_n%C9%99_dey%C9%99_bil%C9%99r?#Kalibri*

# HAMLET ISAKHANLI GAVE AN INTERVIEW TO "SHARQ" NEWSPAPER ABOUT "THOSE WHO STUDY ABROAD"

On 7 September, 2017, the text of the interview with Hamlet Isakhanli, the founder of the University, chairman of its Board of Directors and Trustees, on the subject "What can we say to those who received a higher education well abroad?" was released on the official website of "Sharq" newspaper.

The text is readily accessible through this link:
*http://www.sherg.az/site/id-36092/Xaricdə_yaxşı_universiteti_bitirib_gələnə_kim_nə_deyə_bilər?*
(The interview was published on pages 38-39).





## HÜQUQ TƏDRİS MƏRKƏZİNDƏ NÖVBƏTİ TƏLİM

Sentyabrın 9-10-da Xəzər Universiteti Humanitar və sosial elmlər fakültəsində yaradılmış Hüquq Tədris Mərkəzində davamlı olaraq həyata keçirilən layihə çərçivəsində "Avropa İnsan Hüquqları Konvensiyasının təhlili" mövzusunda növbəti təlim keçirildi. Təlimdə bir sıra universitetlərin, o cümlədən, Xəzər Universitetinin məzunları və tələbələri iştirak edirdilər.

Təlimdə Avropa İnsan Hüquqları Məhkəməsinə (AİHM) şikayətlərin verilməsi qaydası müzakirə olundu, iştirakçılar Avropa İnsan Hüquqları Konvensiyasının müxtəlif maddələri və məhkəmə qərarları ilə yaxından tanış oldular. Həmçinin, təlimdə AİHM-nə şikayətlərin verilməsi qaydası müzakirə edildi, iştirakçılar Avropa İnsan Hüquqları Konvensiyasının müxtəlif maddələri və AİHM-nin qərarları ilə yaxından tanış oldular.

Təlimi Avropa İnsan Hüquqları Assosiasiyasının üzvü, Avropa İnsan Hüquqları Məhkəməsində hüquqşünas işləmiş Könül Qasımova aparırdı.

Təlimin keçirilməsi üçün iki gün nəzərdə tutulsa da, təlim maraqlı və məhsuldar keçirildiyinə görə, iştirakçılar təlimin davam etdirilməsi üçün müraciət etmişdilər. İştirakçıların müraciətlərini nəzərə alaraq, təlimin davamı növbəti aylarda da planlaşdırılır.

## THE NEXT TRAINING WAS HELD AT THE LEGAL TRAINING CENTER

On 9 -10 September, the next training on "Analysis of the European Convention on Human Rights" was held within the framework of a continuing project at the Legal Training Center, established at the School of Humanities and Social Sciences, Khazar University.

The graduates and students from a number of universities including Khazar University took part in the training. In the training, the procedure for filing complaints to the European Court of Human Rights was discussed and the participants got closely acquainted with various articles and court decisions of the European Convention on Human Rights.

The training was conducted by Konul Gasimova, a member of the European Human Rights Association and the former lawyer at the European Court of Human Rights. Although two days were scheduled for the training, the participants requested to continue the training because it was interesting and productive. Taking the participants' request into account, the continuation of the training is scheduled for the next months.

## PROFESSOR HAMLET İSAXANLININ CBC TELEKANALINA MÜSAHİBƏSİ

2017-ci il sentyabrın 10-da Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı CBC telekanalına müsahibə vermişdir. Söhbət, əsasən, Berkeley Universitetinin professoru, Azərbaycan əsilli alim Lütfi Zadənin həyatı, elmi fəaliyyəti və irsinə həsr olunmuşdur.

## INTERVIEW WITH PROFESSOR HAMLET ISAKHANLI TO CBC CHANNEL

On September 10, Professor Hamlet Isakhanli, the founder of Khazar University, chairman of the Board of Directors and Trustees gave an interview to CBC channel. The conversation was devoted to the life, scientific activity and heritage of Lotfi Zadeh, Azerbaijani scientist, Professor of Berkeley University.

## BAKI TÜRK ANADOLU LİSEYİNDƏ KEÇMİŞ MƏZUNLAR VƏ MÜƏLLİMLƏRLƏ GÖRÜŞ

Sentyabrın 10-da Türkiyə Təhsil Nazirliyinin Bakı şəhərində yerləşən Bakı Türk Anadolu Liseyində (BTAL) 1997-ci ildən məzun olan şagirdlərlə və orada işləmiş müəllimlərlə görüş keçirildi. Görüşdə liseyin keçmiş müəllimi, Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli çıxış etdi.

Türkiyə Respublikasının Azərbaycandakı səfirliyinin Təhsil üzrə müşaviri Abdulqafur Büyükfırat Əlövsət Əmirbəyliyə təşəkkür plaketi təqdim etdi.

## A MEETING WITH FORMER GRADUATES AND TEACHERS WAS HELD IN BAKU TURKISH ANADOLU LYCEUM

On 10 September, the meeting was held in Baku Turkish Anadolu Lyceum, located in Baku, with the students who have graduated since 1997 and the teachers who worked there. Alovsat Amirbeyli, a former teacher of the Lyceum, Director of Public Relations and Media at Khazar University, delivered a speech at the meeting.

Abdulqafur Buyukfirat, Education Adviser to the Embassy of the Republic of Turkey in Azerbaijan, presented Alovsat Amirbeyli a plaque of appreciation.

## PROFESSOR HAMLET İSAXANLININ MEKSİKA SƏFİRİNƏ MƏKTUBU

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının Sədri Professor Hamlet İsaxanlı sentyabrın 11-də Meksikanın Azərbaycandakı Səfiri cənab Rodriqo Labardiniyə 7 sentyabr 2017-ci ildə Meksikada baş vermiş zəlzələ qurbanları ilə bağlı başsağlığı məktubu göndərmişdir.

## LETTER OF PROFESSOR HAMLET ISAXANLI TO THE AMBASSADOR OF MEXICO

On September 11, Professor Hamlet Isaxanlı, Founder of the Khazar University, Chairman of the Board of Directors and Trustees, sent a letter of condolence to Rodrigo Labardini, the Ambassador of Mexico in Azerbaijan, for the victims of the earthquake took place in Mexico, on September 7, 2017.

## MEKSİKA SƏFİRİ PROFESSOR HAMLET İSAXANLIYA TƏŞƏKKÜR ETDİ

Sentyabrın 22-də Meksikanın Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Rodrigo Labardini Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlıya məktub göndərmişdir. Məktubda H.İsaxanlının sentyabrın 7-də Meksikada baş vermiş zəlzələ zamanı çoxsaylı insan tələfatı ilə əlaqədar verdiyi başsağlığına görə təşəkkür edilir.

## AMBASSADOR OF THE UNITED MEXICAN STATES THANKED PROFESSOR HAMLET ISAKHANLI

On September 22nd, Ambassador Extraordinary and Plenipotentiary of the Embassy of the United Mexican States to the Republic of Azerbaijan, Mr. Rodrigo Labardini sent a letter to founder of Khazar University, Chairman of Board of Directors and Trustees Professor Hamlet Isakhanli. The letter expresses gratitude for H. Isakhanli's condolences on numerous human casualties caused by the earthquake occured in Mexico on September 7th.

## FİNLANDİYA UNİVERSİTETİNİN ƏMƏKDAŞLARI XƏZƏR UNİVERSİTETİNDƏN YAZDILAR

Sentyabrın 22-də Finlandiyanın ən böyük 3-cü ali təhsil müəssisəsi olan Jyväskylä Universitetinin bir qrup əməkdaşı Xəzər Universitetinin qonağı olmuşdur. Qonaq universitetin əməkdaşları bu haqda reportaj hazırlamışlar.

Reportajla bu link vasitəsilə tanış olmaq olar:

*http://aroundtheworldwithafinn.blogspot.fi/2017/09/student-rights-from-eu-to-caucasus.html*

## EMPLOYEES OF THE FINNISH UNIVERSITY WROTE ABOUT KHAZAR UNIVERSITY

On September 22, a group of employees from Jyväskylä University, Finland's third largest university, visited Khazar University. The staff of the guest university prepared a report about their visit.

The report is available via the link below:

*http://aroundtheworldwithafinn.blogspot.fi/2017/09/student-rights-from-eu-to-caucasus.html*

## TYLOR UNİVERSİTETİNİN PROFESSORU XƏZƏR UNİVERSİTETİ İLƏ ƏMƏKDAŞLIĞI DAVAM ETDİRİR



Amerikanın Texas Tylor Universitetinin saytında xəbər verilir ki, tibbi biologiya tədqiqatçısı, biologiya professoru Ali Azghani "Fulbright scholar" qrantını qazanmışdır. O, Azərbaycanda ağ ciyərə təsir edən müəyyən bakteriyaların antimikrob rezidentliyi sahəsində tədqiqat aparacaq. Həmçinin, qeyd edilmişdir ki, bu tədqiqat Texas at Tylor Universitetinin Xəzər Universiteti ilə apardığı tədqiqat sahəsində olan birgə əməkdaşlığıdır.

Qeyd edək ki, peofessor A.Azghani ilk dəfə Xəzər Universitetinin Bioloji elmlər departamentinə 2016-cı ilin mayında gəlmiş, tədqiqatçılar və tələbələrlə görüşmüş, gələcək planlar haqda müzakirələr aparmış və seminar-konfrans keçirmişdir.

Bu haqda daha geniş məlumatı bu linklər vasitəsilə əldə etmək olar:

*https://www.uttyler.edu/news/pressrelease/2017/05012017.php;*

*http://www.khazar.org/en/news/article/1104*

## THE PROFESSOR OF THE US UNIVERSITY CONTINUES COLLABORATION WITH KHAZAR UNIVERSITY

Ali Azghani, a biomedical researcher and a professor of biology at the University of Texas at Tyler, has been named a Fulbright Scholar. With the award, Azghani will travel next spring to Azerbaijan, where he will study antimicrobial resistance in certain bacteria affecting the lungs. He also mentioned that this study is a joint collaboration between Texas University at Tylor and Khazar University in the field of research.

It should be noted that A. Azghani visited the Department of Biology at Khazar University in May 2016 for the first time, met with the researchers and students, discussed future plans and held a seminar-conference.

More information can be found in the following link:

*https://www.uttyler.edu/news/pressrelease/2017/05012017.php*

*http://www.khazar.org/en/news/article/1104*

## JURNALİSTİKA DEPARTAMENTİNDƏ MAGİSTR MÜDAFİƏSİ KEÇİRİLDİ

Sentyabrın 26-da Xəzər Universiteti Jurnalistika departamentində Radiotelejurnalistika ixtisası üzrə magistratura təhsili alan Sevil Rəsulzadənin "Televiziyada gender məsələsinin işıqlandırılması" mövzusundakı dissertasiya işinin müdafiəsi təşkil edildi. Müdafiə şurasında Humanitar və sosial elmlər fakültəsinin dekanı dosent Cabir Xəlilov, dosent Knyaz Aslan (BDU), filologiya üzrə fəlsəfə doktoru Aynur Nəsirova (BDU), dosent Dilbər Zeynalova (ADU), Jurnalistika departamentinin koordinatoru Cabir Məmmədli, Ph.D (st.) Validə Kərimova da iştirak edirdilər.

Magistrant dissertasiyanın təqdimatından sonra sualları cavablandırdı. Müdafiəyə təqdim olunan iş müsbət qiymətləndirildi və iddiaçıya magistr dərəcəsi verilməsi qərara alındı.



## KİM-DƏ ELEKTRON XİDMƏTLƏRLƏ BAĞLI PEŞƏ TƏLİMİ KEÇİRİLDİ

Sentyabrın 14-də Xəzər Universiteti Kitabxana-İnformasiya Mərkəzinin (KİM) əməkdaşlarına elektron xidmətlərlə bağlı peşə təlimi keçirildi. Təlim yeni tədris ilində tələbə və müəllim heyətinə Kitabxana-İnformasiya Mərkəzinin daha effektiv xidmət üsullarını təbliğ etmək məqsədi daşıyırdı.

Təlimdə Samirə Orucova "Elektron mənbələr Marc formatında necə işlənilməli" və" Elektron kataloqda axtarış üsulları", Aytac Misgərli "Elektron mənbələrdən istifadə qaydaları" adlı təqdimat ilə çıxış etdi.

## TÜRK DÜNYASININ TARİXİNƏ AİD BEYNƏLXALQ KONFRANS

Sentyabrın 12-14-də AMEA-nın əsas binasında "Şərqi və Qərbi türk dünyasının ortaq tarixi dövrləri və münasibətləri" mövzusunda beynəlxalq elmi konfrans keçirilib. Konfrans "INOCTE 2017 - "Osmanlı tədqiqatlarında yeni tendensiyalar" beynəlxalq konqresi çərçivəsində AMEA, Təhsil Nazirliyi, Azərbaycan Dövlət Pedaqoji Universiteti (ADPU), Xəzər Universiteti, Türkiyə Səlcuq Universiteti, Sütçü İmam Universiteti və Türk Tarix Qurumu tərəfindən təşkil olunub.

Konfransda Şərqi və Qərbi türk dünyasının ortaq tarixi problemlərinə dair aparılan elmi tədqiqatların nəticələri müzakirə olunmuş, müxtəlif mövzularda məruzələr dinlənilmişdir.

Konfransın açılış mərasimində Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı iştirak etmişdir.

Azərbaycan Dövlət İnformasiya Agentliyi – AZƏRTAC başda olmaqla (*https://azertag.az/xeber/Bakida_turk_dunyasinin_ortaq_tarixi_dovrlerine_dair_beynelxalq_elmi_konfrans_baslayib-1092700*) ölkənin aparıcı saytları və mətbuat orqanları bu barədə xəbər yaymışlar.

## THE LIBRARY - INFORMATION CENTER CONDUCTED A TRAINING ON ELECTRONIC SERVICES

On September 14, the Library-Information Center, Khazar University, conducted training on e-services for its employees. The training was aimed at promoting more effective service methods of Library and Information Center for the students and teachers in the new academic year.

In the training, Samira Orujova made a presentation on "How to use electronic sources in Marc format" and "Search Methods in Electronic Catalogue" and Aytac Misjarli delivered a presentation entitled "Rules of using electronic sources".

## INTERNATIONAL CONFERENCE ON HISTORY OF TURKIC WORLD

International Scientific Conference on the topic of "Common History Periods and Correlations of Eastern and Western Turkic World" was held in the main building of ANSA on September 12-14. The Conference was organized within the framework of international congress "INOCTE 2017 – "New Tendencies in Ottoman Studies" by ANSA, Ministry of Education, Azerbaijan State Pedagogical University (ASPU), Khazar University, Turkey Selçuk University, Sutchu Imam University and The Turkish Historical Society.

The results of scientific researches on common historical problems of Eastern and Western Turkic world have been discussed, as well as lectures have been received on various topics at the Conference.

Founder of Khazar University, Chairman of the Board of Directors and Trustees Prof. Hamlet Isakhanli took part at the opening ceremony of the Conference.

Leading web sites and press agencies of the country, including AZERTAG (*https://azertag.az/xeber/Bakida_turk_dunyasinin_ortaq_tarixi_dovrlerine_dair_beynelxalq_elmi_konfrans_baslayib-1092700*) released the news regarding this event.

## "DÜNYA" MƏKTƏBİNİN MÜƏLLİMİ, BƏSTƏKAR SEVDA RƏHİMOVANIN ROMANSI RESPUBLİKA MÜSABİQƏSİNDƏ SEÇİLMİŞ 10 ROMANS ARASINDA YER ALIB

AzTV "Mədəniyyət" kanalı və "Azərbaycan" radiosunun bu ilin may ayında elan etdiyi bəstəkarlar arasında romans janrında yazılan əsərlərin respublika müsabiqəsində yüzdən çox romansdan seçilmiş 10 romans arasında "Dünya" məktəbinin müəllimi, bəstəkar Sevda Rəhimovanın Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının "İkimizdən birimiz" adlı şeirinə bəstələdiyi eyni adlı romans da yer almışdır.

## XƏZƏR UNİVERSİTETİNİN LAYİHƏSİ "İNNOVASİYA ÜÇÜN TƏRƏFDAŞLIQ" PROQRAMININ SAYTINDA YAYIMLANDI

Xəzər Universitetinin koordinator olduğu "Əlilliyi olan şəxslərin Azərbaycanın ali təhsil müəssisələrinə inteqrasiyasının təməlinin qoyulması" (ESFIDIP) adlı Tempus layihəsi və layihə çərçivəsində yaradılmış Əlilliyi olan Tələbələr üçün Mərkəzlər haqqında məlumat "İnnovasiya üçün tərəfdaşlıq" (*Partnership for Innovation*) proqramının saytında yayımlanmışdır.

Qeyd edək ki, "İnnovasiya üçün tərəfdaşlıq" proqramı 2012-ci ildə Qazaxıstanda həyata keçirilməyə başlanmış və məqsədi QHT-lərin potensialını artırmaqla Mərkəzi Asiyada vətəndaş cəmiyyətini gücləndirmək və regional əməkdaşlığı genişləndirməkdən ibarətdir.

Daha geniş məlumatı bu link vasitəsilə əldə etmək olar:

*http://cso-central.asia/v-azerbajdzhanskix- vuzax-sozdany-centry-dlya-studentov-s-invalidnostyu/*

## "ƏDALƏT VƏ HƏQİQƏT" QƏZETİNDƏ XƏZƏR UNİVERSİTETİ HAQQINDA MƏQALƏ

"Ədalət və həqiqət" qəzetinin 20 avqust-10 sentyabr tarixli nömrəsində Cəmil Zəbhullaoğlu və Elman Maliyevin "Beynəlxalq reytinqli Xəzər Universiteti" adlı irihəcmli məqaləsi dərc olunmuşdur. Məqalədə universitetin keçdiyi yola nəzər salınır, uğurlarından ətraflı bəhs edilir.

## TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNİN MÜƏLLİMİ BEYNƏLXALQ ELMİ LAYİHƏDƏ İŞTİRAK ETDİ

AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşı, Xəzər Universiteti Tarix və Arxeologiya departamentinin müəllimi Orxan Zamanov Avropa Komissiyasının "Horizon-2020" Maria Skladovska-Küri Proqramı tərəfindən maliyyələşdirilən "Biliyin mübadiləsi və akademik mədəniyyətlər humanitar elmlərdə: Avropa və Qara dəniz bölgəsi, 18-ci əsrin sonundan 21-ci əsrə qədər" layihəsi çərçivəsində Avstriya və Gürcüstanda elmi tədqiqatlar aparmışdır.

Layihənin ilk mərhələsi 2017-ci ilin yanvarın 14-də Gürcüstanın Şota Rustaveli adına Batumi Dövlət Universitetində başlandı - layihə ilə bağlı ilk texniki və nəzəri seminar keçirildi. Seminarı professor Karl Kayzər və onun kafedrasının əməkdaşı Dominik Gutmeyr (PhD) aparırdılar.

İyunun 12-dən etibarən O. Zamanov layihə çərçivəsində Karl və Frans adına Qrats Universitetində ilk elmi ezamiyyətdə olmuşdur.

O. Zamanov ezam olunduğu ölkələrdə həmkarları ilə elmi mübadilə xarakterli görüşlərdə iştirak etmiş, layihə çərçivəsində elmi tədqiqat mövzuları ilə əlaqədar araşdırmalar aparmış, həmçinin, arxeoloji abidələrlə tanış olmuş, kitabxanalarda, elmi araşdırma mərkəzlərində və elmi arxivlərdə tədqiqatlarını davam etdirmişdir.

## AN INSTRUCTOR OF THE DEPARTMENT OF HISTORY AND ARCHAEOLOGY PARTICIPATED IN AN INTERNATIONAL SCIENTIFIC PROJECT

Orkhan Zamanov, a teacher of the Department of History and Archaeology at Khazar University conducted research in Austria and Georgia within the framework of the project "Sharing knowledge and academic cultures in Humanitarian Sciences: Europe and the Black Sea region, from the late 18th to the 21st century" funded by the European Commission's Horizon 2020 Program, the Maria Skladowska-Curie Program.

The first stage of the project started on January 14, 2017, at Batumi State University named after Shota Rustaveli, Georgia - the first technical and theoretical seminar related to the project was held. The seminar was led by Prof. Karl Kayzer and his colleague, Dominik Gutmeyer (PhD).

Orkhan Zamanov, the employee of Khazar University and Institute of Archeology and Ethnography made his first academic trip to Graz University of Austria named after Karl and Franz within the framework of the project.

Orkhan Zamanov took part in scientific exchange meetings with his colleagues in the countries where he was sent, conducted research in regard to the research topics, got acquainted with the archaeological monuments, carried on his research in the libraries, research centres and scientific archives.




## TARİX MÜƏLLİMLİYİ İXTİSASININ 1-Cİ KURS TƏLƏBƏLƏRİ İLƏ GÖRÜŞ

Sentyabrın 15-də Tarix və arxeologiya departamentinin təşkilatçılığı ilə tarix müəllimliyi ixtisasının 1-ci kurs tələbələri ilə görüş keçirildi. Görüşdə Tarix və arxeologiya departamentinin müdiri Roza Arazova, departamentin assistenti Akifə Cəfərli, məzunlar və yuxarı kurs tələbələri iştirak edirdilər. R. Arazova Xəzər Universitetinin tarixindən bəhs etdi və öz məsləhətlərini verdi.

4-cü kurs tarix müəllimliyi ixtisasının tələbələri İlahə Yusifli, Samid Axundov və Rüfət Xəlilov slayd-şou göstərərək, Xəzər Universiteti haqqında məlumatlar verdilər və yeni tələbələri maraqlandıran bir çox sualları cavablandırdılar.

Tarix və arxeologiya departamentinin təşkil etdiyi görüşlər, səfərlər və tarixçi tələbələrin şəkillərindən ibarət slayd-şou göstərildi.

Məzun olmağa hazırlaşan tələbələr öz təbrik və arzularını davamçıları olacaq 1-ci kurs tələbələrinə söylədilər.

Sonda tələbələrə tələbə biletləri təqdim olundu və onlar universitetlə tanış oldular.

## A MEETING WITH FIRST YEAR STUDENTS MAJORING IN HISTORY

On September 15, a meeting with the first year students majoring in History, organized by the Department of History and Archeology, was held. The meeting was attended by Roza Arazova, Head of the Department of History and Archeology, Akifha Jafarli, Assistant of the Department, senior students and graduates. The meeting began with the speech delivered by Roza Arazova. She told the students about the history of Khazar University and gave her advice.

Ilaha Yusifli, Samid Akhundov and Rufat Khalilov, the $4^{th}$ year students, gave information about Khazar University by making presentations and answered many questions of the new students.

Then, a slideshow of photos of the students majoring in History, meetings and visits, organized by the Department of History and Archeology, was demonstrated.

The students, who are going to graduate, talked about their dreams and congratulated their followers, the 1st year students.

Finally, the students were given their student cards and they were given an excursion around the university.

## YILDIZ TEKNİK UNİVERSİTETİNDƏN PROFESSOR HAMLET İSAXANLIYA MƏKTUB GƏLDİ

Avqustun 2-də Türkiyənin Yıldız Teknik Universitetinin rektoru professor Dr. Ahmet Göksel Ağargün Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlıya məktub göndərmişdir.

Universitetin rektoru məktubda 2016-cı il iyulun 15-də FETÖ terror təşkilatının Türkiyədə dövlət çevrilişi cəhdi zamanı Türkiyənin qanuni hökumətinin yanında olduqlarına, verdikləri dəstəyə və universitetlə əlaqələrini kəsmədiklərinə görə H.İsaxanlıya təşəkkürünü bildirir.

# TƏDQİQAT İŞİNƏ AİD SEMİNAR

Sentyabrın 22-də Xəzər Universitetində tədqiqat seminarı (*Research seminar/Journal Club*) keçirildi. Seminarda Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, Xəzər Universiteti Magistratura və doktorantura bölməsinin müdiri Dr.Eldar Şahgəldiyev, Biologiya departamentinin və Hüceyrə Patologiyası Tədqiqat Mərkəzinin müdiri Dr. İradə Xəlilova, Coğrafiya və ətraf mühit departamentinin müdiri Dr. Rövşən Abbasov, Təhsil departamentinin koordinatoru Qoşqar Məhərrəmov, Kitabxana-İnformasiya Mərkəzinin direktor müavini Aytac Misgərli, Kataloqlaşdırma bölməsinin müdiri Samirə Orucova, universitetin PhD tələbələri iştirak edirdilər.

Seminarın ilkin mərhələsində Təhsil departamentinin koordinatoru Qoşqar Məhərrəmov Xəzər Universitetində yeni yaradılan PhD və Magistr Tələbə Birliyinin (*PhD and Master Student Association*) məqsədlərini açıqladı, burada görüləcək işlər və planlar haqda çıxış etdi. Seminarda müzakirələr aparıldı və bu birliyin fəaliyyətinin PhD və magistr tələbələrin inkişafında əhəmiyyətli olması vurğulandı. Birliyə rəhbərliyi doktorant Qoşqar Məhərrəmov könüllü olaraq öz üzərinə götürdü.

Seminarın ikinci mərhələsində Bioloji elmlər departamenti və Hüceyrə Patologiyası Tədqiqat Mərkəzinin elmi işçisi Dr. Babək Əlibəyov son illər Çexiya Elmlər Akademiyasının Biokimya və Üzvi Kimya İnstitutunda apardığı elmi tədqiqatların nəticələrini təqdim etdi və tələbələrə öz təcrübəsindən danışdı.

Kitabxana-İnformasiya Mərkəzinin direktor müavini Aytac Misgərli Xəzər Universitetinin kitabxanasının son məlumat bazalarını təqdim etdi və bunlardan necə istifadə etmək yollarını göstərdi.

Sonra Dr. İradə Xəlilova tələbələrə Xəzər Universitetində 2016-cı ilin fevralında qurulan Xəzər Tədqiqata Dəstək Mərkəzinin *(Khazar Research Support Center)* fəaliyyəti və müxtəlif tədqiqat sahələrinə aid mentorlar haqqında məlumat verdi.

Seminarın sonunda növbəti seminarda tezis və məqalə yazmaqda mühüm olan ***EndNote soft*** proqramının *workshop*-unun keçirilməsi qərara alındı.

# İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİNDƏ MAGİSTR MÜDAFİƏSİ OLDU





Sentyabrın 27-də Xəzər Universiteti İngilis dili və ədəbiyyatı departamentinin magistr tələbəsi Svetlana İsayevanın "İngilis dilində növ kateqoriyası və onun linqvistik cəhətləri" mövzusunda dissertasiya işinin müdafiəsi keçirildi.

Müdafiədə şura üzvləri olaraq f.ü.f.d. İrina Orucova, f.ü.f.d. Eldar Şahgəldiyev, İngilis dili və ədəbiyyatı departamentinin müdir əvəzi Eynur Mehdiyev, departamentin müəllimləri İlham Tağıyev, Xanım Əhmədova, Elmira Əliyeva və Milana Abasova iştirak edirdilər.

S.İsayeva dissertasiyanın təqdimatından sonra şura üzvlərinin suallarını cavablandırdı. Yekunda şura üzvlərinin rəyi ilə Svetlana İsayevaya magistr dərəcəsi verilməsi qərara alındı.



# UNİVERSİTET REYTİNQLƏRİ BƏZİ ADAMLARI NİYƏ QICIQLANDIRIR?!

*Azərbaaycan Təhsil Şurasının sədri Əjdər Ağayevin Akademik.az elm-təhsil və texnologiylar portalında dərc olunmuş məqaləsini təqdim edirik.*

**Reytinq haqqında.** Dünyada yarış gedir. İnsanlar, kəndlər və şəhərlər, ölkələr, şirkətlər, idmançılar, elm və sənət adamları, məktəblər və universitetlər, tərif edənlər və qara yaxanlar, sevənlər və nifrət püskürənlər…, yarışır, rəqabət aparırlar. Nə üçün? Gücünü, kimliyini təsdiq etmək üçün, geridə qalmamaq üçün, qazandığı uğurları artırmaq üçün, xoşbəxt olmaq üçün. Yarışın qaydaları var. İdmanda qazanılan xallarla, sənət aləmində müsabiqələrə düşmək və orada yaxşı yer tutmaqla, elm aləmində ciddi elmi problemləri həll edib mükafatlar almaqla, şirkətlərdə keyfiyyətli məhsul hazırlamaq və onu mümkün qədər çox satmaqla yarışda uğur qazanılır. Yarışlara, müsabiqələrə düşmək üçün seçim mərhələləri olur, bu mərhələləri keçənlər finala vəsiqə qazanırlar. Bu ifadələr, təbii olaraq, idman təəssüratı yaradır, lakin digər fəaliyyət sahələri də idmana bənzəyir. Elm adamlarının ilkin uğurları onların elmi məqalələri və mütəxəssislərin verdiyi qiymətlə ölçülür və ən çox uğur qazanmış, məsələn, 3-5 alim mükafatı almağa namizəd olaraq son mərhələyə buraxılır, mükafatı verən komitə onların arasından qalibi və ya qalibləri seçir. Vokalçılar və fortepiano ifaçıları müəyyən edilmiş proqram üzrə münsiflər heyəti qarşısında çıxış edirlər.

Bəs universitetlər arasında yarış necə gedir, yarışın nəticələrini kimlər müəyyən edir və sıralama, yəni Reyting və ya Ranking necə aparılır? Bu barədə elm və təhsil mütəxəssisləri müzakirə aparır və tam konsensusa gələ bilmirdilər. Bəlkə müəllimlərin neçə faizi görkəmli elm adamlarıdır – bu hesablansın? Bəlkə məzunlar və müəllimlər arasında görkəmli şəxslərin faizi hesablansın? Bəlkə mütəxəssislər arasıda nüfuz sorğusu aparılsın?

Ali məktəblərdə keyfiyyəti qiymətləndirmək və onları sıraya düzmək barədə ilk ciddi addım 1983-cü ildə Amerika Birləşmiş Ştatlarında (ABŞ) "US News and World Report" jurnalı tərəfindən atıldı. O zamandan bəri bu jurnal hər il ABŞ universitet və kolleclərini bütövlükdə və ayrı-ayrı ixtisaslar üzrə qiymətləndirir və sıraya düzür (reytinqi müəyyən edir).

Dünyanın qloballaşması, böyük miqdarda tələbələrin ali təhsil üçün bir ölkədən digər ölkələrə axını, təbii olaraq, dünya ali məktəblərini qiymətləndirmək, onları gücə görə sıralamaq ehtiyacını doğurdu. Bu çox çətin və çox məsuliyyətli işə çinlilər başladılar. 2003-cü ildə (cəmi 13-14 il əvvəl) Shanghai (Şanxay) "Academic Ranking of World Universities" (ARWU) elan edildi. Nature və Science kimi nüfuzlu jurnallarda nəşr olunan məqalələr, Nobel mükafatçıları və Fields medalçılarına əsaslanan bu reytinq sistemi çox maraqlı və çox mübahisəli oldu. Məsələyə çox ciddi yanaşan ARWU 2016-cı ildə ilk yüz universitet sırasına Çinin özündən yalnız iki universitet daxil etmişdi (Tsinghua və Peking universitetləri).

Növbəti addım Böyük Britaniyada atıldı. 2004-cü ildə Times Higher Educastion Supplement (THES) qəzeti və Quacquarelli Symonds (QS) şirkəti birlikdə "THES-QS World University Rankings" adlı dünya universitetləri reytinqini elan etdilər. Bir çox göstəricilərə əsaslanan bu sistemdə yaxşı beynəlxalq jurnalarda elmi nəşrlər və mütəxəssislər arasında nüfuz aparıcı göstəricilər idi. Şərtləşmə əsasında THES qəzeti ilk iki yüz universitetin adlarını qəzetdə, QS isə ilk 500 universitetin adlarını internet vasitəsilə elan edirdilər. Dünyada universitet reytinqləri populyar oldu. 2009-cu ildə THES və QS-in yolları ayrıldı – onlar hər biri ayrılıqda reytinq işi ilə məşğul olmaq qərarına gəldilər. "Times Higher Education World University Rankings" (THE) və "QS World University Rankings" (QS).

İndi dünyada qəbul edilmiş, nəticələri ciddi təsir göstərən bu üç reytinq sistemi mövcuddur. Elm və təhsil ictimaiyyəti, hökumətlər, media, tələbə və valideynlər bu üç reytinga xüsusi fikir verirlər. Üç məşhur qəzet və jurnal - "The Guardian", "US News and World Report" və "The Chosun Ilbo" (ingilis, çin, yapon və koreya dillərində) QS reytinqinin nəticələrini dərc

edirlər. Braziliya hökuməti öz universitetlərinin beynəlxalq əməkdaşlıq məsələsində QS reytinqinə əsaslanır və o ali məktəblərlə işbirliyini dəstəkləyir.

Əlbəttə, başqa dünya universitet reytinqləri cəhdləri də olmuş və vardır. Məsələn, öz universitetlərinin bu üç sistemdə yuxarı yer tuta bilməməsindən əsəbiləşən ruslar öz qlobal reytinqlərini elan etdilər və Moskva Dövlət Universitetini Harvard və Kembric kimi universitetlərdən qabağa-beşinci yerə yerləşdirdilər. Lakin, bu, dünyada qəbul olunmadı və sonra ruslar özləri də bu işdən soyudular. "Webometrics" deyilən və dünydakı universitetlərin az qala hamısını əhatə edən reytinq sistemi ali məktəb web-site`ləri, onlara linklər (kənarda sayta bağlantı olması), elektron resurslar kimi göstəricilər əsasında qurulmuş, mütəxəssislər və ictimaiyyət arasında nüfuz qazana bilməmişdir. Bir misal: Fövqəladə Hallar Nazirliyinin Akademiyası Dövlət Neft və Sənaye Universiteti, Dövlət Dillər Universiteti və Moskva Dövlət Universitetinin Bakı filialı kimi ali məktəblərdən qabaqdadır, çünki öz saytı yoxdur, sayt olaraq Fövqəladə Hallar Nazirliyinin saytından istifadə edir (nazirliyə aid linklər avtomatik ona da aid edilir).

**Azərbaycan universitetləri və reytinq.** 2017-ci il "QS World University Rankings" təqribən 26 min ali məktəb haqqında tədqiqat aparmış və Azərbaycandan iki universiteti öz reytinq sisteminə salmışdır: Xəzər Universiteti 700-750-ci yerlər arasına (daha dəqiqi, 714-cü), Bakı Dövlət Universiteti 800-850-ci yerlər arasına (daha dəqiqi, 812-ci) daxil olmuşlar. Bu böyük uğurdur! Nə Gürcüstan, nə də Ermənistan bu reytinqdə yer ala bilməyiblər. Hər iki universitetimizi və bütövlükdə ölkəmizi təbrik edirik!

Bu uğura sevinənlərlə yanaşı, çox təəssüf ki, bu uğura kölgə salmaq, qara yaxmaq, onu şübhə altına almaq, uğuru az qala "uğursuzluq" kimi qələmə verənlər olmuşdur. Bu qarayaxma bir tərəfdən qısqanclıq və kindən doğur, hadisə və faktları qəsdən təhrif etməyə gətirir, digər yandan isə məsələnin mahiyyətini anlamamaqdan irəli gəlir və oxucuları çaşdıra bilir. Guya QS universitetlərlə müqavilə bağlayır və ancaq müqavilə bağlayanları qiymətləndirir. Ağ yalandır! Hər üç məşhur reytinq sistemində ali məktəblərin heç biri ilə əlaqə qurmadan çox ciddi ilkin seçim gedir, yalnız bu seçimdən keçənləri diqqətlə araşdırmağa başlayırlar. 2017-ci il QS reytinqinin müəyyən edilməsində 74651 alim və 37781 digər peşə sahiblərinin güc və biliyindən istifadə olunmuşdur! Qarayaxanların yaratdığı çaşqınlığı az da olsa aradan qaldırmaq üçün biz yazımızı universitet reytinqləri barədə məlumatla başlamalı olduq. QS sistemi universitetləri akademik nüfuz, işverənlər arasında nüfuz, adambaşına düşən yaxşı məqalə sayı, tələbə-müəllim nisbəti, beynəlxalq müəllimlər və beynəlxalq tələbələrə görə qiymətləndirir. QS, həmçinin THE bu məlumatların kiçik statistik hissəsini universitetlərdən alır və sonra özü yoxlayır, böyük qismini isə elm, təhsil və iş dünyasına əsaslanaraq əldə edir.

Bakı Dövlət Universiteti oturuşmuş və elmi potensialı olan ali məktəbimizdir, Xəzər Universiteti isə ilk özəl ali məktəbimizdir, Azərbaycan təhsil sisteminə yeni nəfəs gətirmiş, dürüstlük, halallıq, yüksək keyfiyyətin hökm sürdüyü, dünya ilə ayaqlaşa bilən, beynəlxalq aləmdə tanınan və hörmət edilən ingilisdilli universitetdir. Yaxşı elmi nəşrlərin az olduğu çağdaş zamanda Xəzər universiteti adambaşına düşən məqalə sayına görə, Bakı Dövlət universiteti isə ümumi məqalə sayına görə Azərbaycanda birincidirlər. Xəzər Universiteti 6 göstəricinin cəminə görə 712-ci yerdə qərarlaşmış, lakin 3 göstəriciyə görə 253, 339 və 388-ci yerləri tutmuşdur!

Daha bir maraqlı dünya reytinqini yada salaq. Fransızlar (Fransız Konsultasiya və Reytinq Agentliyi SMBG dünyada biznes idarəçiliyi üzrə magistr (MBA) proqramlarını qiymətləndirməyə başlamışdır. Onun yaratdığı Beynəlxalq Elm Komitəsi 153 ölkədə fəaliyyət göstərən 1000 ən yaxşı biznes məktəbini, onların fakültəsini və ən yaxşı proqramlarını (ixtisaslarını) elan etmişdir - ali məktəblərdən heç nə soruşmadan, heç bir məlumat istəmədən - yalnız çoxsaylı tanınmış mütəxəssislər arasında sorğuya əsaslanaraq! Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsi EDUNIVERSAL tərəfindən ən yaxşı biznes məktəblərinə verilən "Palma" mükafatına layiq görülmüş, fakültənin iki magistr proqramı - Menecment və Beynəlxalq İqtisadiyyat Orta Şərq və Avrasiyanın on ən yaxşı proqramı sırasına daxil edilmişdir! Təbrik edirik! Bu sırada başqa ali məktəbimiz yoxdur.

Böyük Sabir öz əsərlərində Azərbaycan və ümumiyyətlə, Şərq insanlarının həyat və psixologiyasını heyrətamiz şəkildə ifadə edə bilmişdir:

> Bir bölük boşboğazıq, heyvərəlik adətimiz,
> Doludur lənət ilə, qeybət ilə söhbətimiz,
> Oxumaqdan payımız yox, yazıdan qismətimiz,
> Bu əvamlıqla belə hər sözü təfsir[1] edərik,
> Mümkün olduqca müsəlmanları təkfir[2] edərik.

*(1.təfsir-izah, şərh, 2. təkfir-kafir elan etmək).*

Gəlin, uğurlarımıza sevinək, uğur qazananlara təşəkkür edək, digərlərinin də uğur qazanmasına çalışaq. Tərsinə hərəkət etməyək, bunun heç kimə faydası yoxdur, bu, zəiflik, qısırlıq əlamətidir, atalar gözəl deyiblər: "pişiyin ağzı ətə çatmayanda onun adını iylənmiş qoyur".

**Əjdər Ağayev,**
*Azərbaycan Təhsil Şurasının sədri,*
*Pedaqoji elmlər doktoru, professor*

*http://akademik.az/2017/06/universitet-reytinql%C9%99ri-b%C9%99zi-adamlari-niy%C9%99-qiciqlandirir/*

# "XƏZƏR"Ə TƏŞƏKKÜR MƏKTUBU

GƏLƏCƏYİNİ QUR!
GƏNCLİYƏ DƏSTƏK LAYİHƏSİ

**Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlıya**

**Hörmətli Hamlet müəllim!**

Sizi "Gələcəyini Qur!" Gəncliyə Dəstək Layihəsi adından salamlayıram və yeni tədris ilinin başlanması münasibətilə ürəkdən təbrik edirəm!

Layihəmizin onlarla məzunu 15 sentyabrda ilk dəfə tələbə olaraq universitet həyatına başladı. Çox sevindirici haldır ki, 2016-2017-ci ildə məzun olaraq 25 nəfər yüksək bal toplamış layihə iştirakçımız məhz Sizin təsis etdiyiniz Xəzər Universitetini seçmişdir. Qeyd etmək istəyirəm ki, bu il "Xəzər" layihə iştirakçıları tərəfindən ən çox seçilən universitet oldu.

Böyük məmnuniyyət hissi ilə universitetinizə qəbul olmuş layihəmizin iştirakçılarının siyahısını Sizə təqdim edirəm. İnanıram ki, bu gənclər Xəzər Universitetində yüksək bilik, bacarıq qazanaraq əmək bazarında tələb olunan və ən əsası xalqımıza, dövlətimizə müsbət töhfələr verə biləcək peşəkarlar kimi yetişəcəklər.

Xəzər Universiteti "Gələcəyini Qur!" Gəncliyə Dəstək Layihəsinin yarandığı gündən ən etibarlı akademik tərəfdaşlarından biridir. Mən və layihəmizin bütün işçi qrupu bunu çox yüksək qiymətləndiririk. Layihəmizin müxtəlif illərində, əlalxüsus geridə qoyduğumuz ildə Xəzər Universiteti ilə çox məhsuldar əməkdaşlıq etmişik.

Fürsətdən istifadə edərək layihəmizə göstərdiyiniz dost münasibətinə və daimi dəstəyə görə Sizə xüsusi minnətdarlığımı bildirirəm. Akademik elitamızın Sizin kimi dəyərli nümayəndəsinin bu yolda bizimlə birgə olması bizə, onlarla könüllümüzə xüsusi güc və inam verir. Ölkəmizin savadlı gələcəyi naminə icra etdiyimiz bu fəaliyyətdə Sizin kimi ziyalılardan ilhamlanmışıq. Hər şey üçün çox sağ olun! Bizimlə birgə olduğunuz üçün Sizə dərin təşəkkürümü bildirirəm və ümid edirəm ki, başladığımız yeni tədris ilində layihəmizə, gənclərimizə dəstək göstərməkdə davam edəcəksiniz.

*Hörmətlə,*

**Bəhruz Hidayətzadə**
*Layihə Rəhbəri*
*"Gələcəyini Qur!" Gəncliyə Dəstək Layihəsi*

18 sentyabr 2017-ci il

**"Gələcəyini Qur!" Gəncliyə Dəstək Layihəsinin rəhbəri Bəhruz Hidayətzadəyə**

XƏZƏR UNİVERSİTETİ

**Hörmətli Bəhruz müəllim!**

"Gələcəyini Qur!" Gəncliyə Dəstək Layihəsi adlı çox dəyərli layihə ilə əməkdaşlıq etmək çox xoşdur. Layihənin bu il əldə etdiyi böyük uğur münasibətilə Sizi təbrik edirəm!

Gələcəyi qurmaqdan şərəfli iş düşünmək çətindir. Bu yolda Sizə yeni uğurlar arzu edirəm!

Xəzər Universitetinin bu layihədə iştirakı, düşünürəm ki, həm gənclərə, həm də Universitetin özünə maraqlı oldu və fayda verdi.

Yeni tədris ilində əməkdaşlığımızı davam etdirmək arzumuzu bildiririk. Həm Universitet adından, həm şəxsən "Gələcəyini Qur!" Gəncliyə Dəstək Layihəsinə hər cür dəstək verəcəyimizə əmin olun.

Gələcəyə doğru addımlarınız uğurlu olsun!

*Hörmətlə,*

**Hamlet İsaxanlı,**
*Xəzər Universitetinin təsisçisi,*
*Direktorlar və Qəyyumlar Şurasının Sədri*

*22 sentyabr 2017-ci il*

# A THANK YOU LETTER TO KHAZAR UNIVERSITY

**To Prof. Hamlet Isakhanli, founder of Khazar University, Chairman of Board of Directors and Trustees**

BUILD YOUR FUTURE!
YOUTH SUPPORT PROJECT

**Dear Mr. Isakhanli!**

I greet You on behalf of the *Build Your Future! Youth Support Project* and cordially congratulate with the beginning of a new academic year!

On 15 September, dozens of graduates of our project started university life as students for the first time. It is very pleasing that 25 students of our project participants, graduating in 2016-2017 with high scores, favored namely Khazar University founded by You. I would like to note that this year "Khazar" became the most chosen university among the project participants.

It's with great pleasure I introduce to You the list of participants of our project entered Your University. I believe, by gaining high-level knowledge and skills at Khazar University these young people will be nurtured as professionals, which are in demand in the labour market, and most of all, who can positively contribute to our nation and state.

Khazar University is one of the most trusted academic partners of the *Build Your Future! Youth Support Project* since its foundation. I and all working group of our project highly appreciate it. In different years of our project, especially in the past year we made a very productive cooperation with Khazar University.

Taking this opportunity, I offer my special commendations to You for Your friendly attitude and continuing support to our project. It gives exceptional strength and confidence to tens of our volunteers that such a worthy representative of our academic elite like You is with us in this path. In our activity for the enlightened future of our country we are inspired by intellectuals like You. Thank You for everything! I convey my deep gratitude to You for being with us and hope that You will continue to support our project, youths in the new academic year we started.

*Best Regards,*

**Bahruz Hidayatzada**
*Project Director*
*Build Your Future! Youth Support Project*

*September 18, 2017*

KHAZAR UNIVERSITY

**To Mr. Bahruz Hidayatzada**
**Manager of the Build Your Future! Youth Support Project**

**Dear Mr. Hidayatzada,**

It's very pleasing to cooperate with a truly valuable project named Build Your Future! Youth Support Project. I congratulate You on the great success of the project achieved this year!

It's hard to think more honorable work than building the future. I wish You new successes on this path!

I think, the participation of Khazar University in this project was very interesting and useful both for youths and the University itself.

We express our desire to continue our cooperation in the new academic year. Be confident that any kind of assistance will be provided both by the University and personally to the Build Your Future! Youth Support Project.

May Your steps towards the future be successful!

*Best Regards,*

**Hamlet Isakhanli**
*Founder of Khazar University,*
*Chairman of Board of Directors and Trustees*

*September 22, 2017*





# XƏZƏR UNİVERSİTETİNDƏ ELMİ SEMİNAR - KONFRANS KEÇİRİLDİ

Sentyabrın 19-da Xəzər Universitetində genomun oxunması üçün Amerikanın nəhəng "İllumina" avadanlıq tədarükçüsü Alliance Global qrupu ilə birgə (İllumina Inc. /Alliance Global) biologiya ixtisası tələbələrinə, gənc tədqiqatçılara və həkimlərə "*Introduction to İllumina Next Generation Sequencing*" adlı elmi seminar-konfrans keçirildi. Seminarda Təhsil fakültəsinin Bioloji elmlər departamentinin müdiri Dr. İradə Xəlilova, departamentin müəllimləri Dr. Zaur Kərimov, Pərvanə Baxşəliyeva, departamentin PhD və biologiya müəllimliyi oxuyan tələbələri, həmçinin, bir sıra klinikalardan həkimlər iştirak edirdilər.

Seminar-konfrans iki hissədən ibarət idi. Birinci hissədə Dr. Szabolcs çıxış edərək klinikada, elm və təhsildə "sequencing" metodları və aparılan müasir tədqiqat işlərinin nəticələri haqqında geniş məlumat verdi. Seminarın ikinci hissəsində Dr. Florian Graedler onkoloji panellər və HLA, genetika və sağlamlıq, həmçinin insan sağlamlığını yaxşılaşdırmaq məqsədilə bioloji məlumatların toplanması, təhlili və tətbiqindən danışdı.

Seminarda müasir tədqiqatlarda İllumina texnologiyalarının istifadə metodları haqda geniş müzakirələr aparıldı.

# ELMİ ŞURANIN YENİ DƏRS İLİNDƏ İLK İCLASI

Sentyabrın 28-də Xəzər Universitetinin rektoru Hassan Niknafsın sədrliyi ilə Elmi şuranın yeni dərs ilində ilk iclası keçirildi.

İclasıda universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı çıxış edərək, yeni dərs ilinin başlanması münasibətilə əməkdaşları təbrik etdi, tövsiyələrini bildirdi. Professor universitetdə elmi işlərin gücləndirilməsi zərurətini vurğulayaraq, bunun üçün təşkilati tədbirin də görüldüyünü - universitetdə elmi işlər üzrə prorektor vəzifəsinin təsis edildiyini və bu vəzifəyə Bioloji elmlər departamentinin müdiri İradə Xəlilovanın təyin olunduğunu bildirdi.

İclasın gündəliyinə əsasən rektor Hassan Niknafs və dekanlar universitetə yeni təyin olunmuş işçiləri Elmi şuranın üzvlərinə təqdim etdilər. Xəzər Universiteti Elmi şurasının yeni tərkibi haqqında prorektor Məhəmməd Nuriyev, məzunlar haqqında Humanitar və sosial elmlər fakültəsinin dekanı Cabir Xəlilov, Təhsil fakültəsinin dekanı Elza Səmədova, İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov və Mühəndislik və tətbiqi elmlər fakültəsinin dekan müavini Vəfa Aslanova, doktorant və dissertantların dissertasiya mövzusu, elmi rəhbərlərinin təsdiqi və ixtisaslarının dəyişdirilməsi haqqında Magistratura, doktorantura və elmi işlər üzrə bölmənin müdiri Eldar Şahgəldiyev və elmi adların verilməsi haqqında prorektor İradə Xəlilova məlumat verdilər və müvafiq qərarlar qəbul edildi.

İclasda cari məsələlər də müzakirə olundu.

# "HAMI BİLİR Kİ, LÜTFİ ZADƏNİN VARİSİ RAFİQ ƏLİYEVDİR" - HAMLET İSAXANLIDAN PROFESSORA İTTİHAM

*2017-ci il sentyabrın 19-da Modern.az saytında Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə dərc olunmuş müsahibəni təqdim edirik. Müsahibəni digər saytlar da dərc etmişlər.*

Tanınmış alim Lütfi Zadənin Azərbaycanda dəfn edilməsi üçün məsuliyyətli şəxs kimi Azərbaycan Texniki Universitetinin professoru Şahnaz Şahbazovaya vərəsə məktubu təqdim edildiyini bilirik.

Professor Şahnaz Şahbazova mətbuata açıqlamalarında bildirib ki, məktubda Lütfi Zadənin nəşinin Azərbaycanda dəfn edilməsi vəsiyyət edilir. Məktubda, həmçinin Lütfi Zadənin bütün mükafatları, ordenləri, medalları və kitablarının professor Şahbazovaya vəsiyyət edilməsi qeyd olunub.

Amma bundan əvvəl hər kəs professor Rafiq Əliyevi Lütfi Zadənin mənəvi varisi kimi tanıyırdı. Çünki o, Lütfi Zadənin həm tələbəsi, həm ailə üzvü, həm dostu idi.

Maraqlıdır, hansı tərəf haqlıdır? Lütfi Zadənin mənəvi varisi əslində kimdir?

**"Bu, qəti mümkün olan şey deyil"**

Bununla əlaqədar Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı modern.az-a açıqlama verib. O düşünür ki, həqiqət göz qabağındadır:

"Lütfi Zadənin nəzəriyyəsini Azərbaycanda davam etdirən, təbliğ edən əsas adam Rafiq Əliyevdir. Rafiq Əliyev uzun illərdir işləri, kitabları, məqalələri, həm də Lütfi Zadə ilə əlaqələrindən tanıdığımız biridir. İki il əvvəl eşitmişdim ki, onlar iki cildlik kitab üzərində işləyirlər. Birinci cildi Lütfi Zadə ilə Rafiq Əliyevin birgə fəaliyyəti əsasında olmalı idi. İkinci cildi isə bu sahədə işləyən tanınmış alimlərin müxtəlif sahələrə görə xülasələri olacaqdı. Bildiyim qədərilə kitabın birinci cildi tamamlanmağa yaxındır.

Lütfi Zadənin anası və həyat yoldaşı yəhudidir. Özü də əsasən yəhudi qaydası ilə yaşayıb. Ona görə Lütfi Zadənin müsəlman qaydası ilə basdırılmasını istəməsi belə şübhəlidir. Eyni zamanda, bu istək mənə qəribə təsir bağışladı. Bu, qəti mümkün olan şey deyil".

**"Lütfi Zadəni tanıdığım üçün nələrsə uydura bilərdim"**

H.İsaxanlı qeyd edib ki, həqiqəti təhrif etmək elm adamına yaraşmaz:

"Buna oxşar hadisələr əvvəllər də olub. Mirzə Kazımbəy azərbaycanlı idi, dilimizi, mədəniyyətimizi bilirdi. O, xristianlığı qəbul etmişdi və xristian qayda qanunları ilə dəfn edildi. Biz onu qınamırıq, çünki bu, onun həyat tərzi idi. Bizim üçün vacib olan onun görkəmli azərbaycanlı alim olmasıdır. Miflər, əfsanələr düzəltmək lazım deyil. Çünki nəyin doğru, nəyin yalan olduğu bilinir. Yani Lütfi Zadəni burada tanıyan yüzlərlə insan, qohumları var. Lütfi Zadə sağ olmadığı üçün müəyyən şeyləri ondan soruşmaq mümkün deyil. Mən də bu dəqiqə onu tanıdığım, evində olduğum, məktublaşdığım üçün bir şeylər uydura bilərdim. Hətta deyə bilərdim ki, Lütfi Zadə mənə filan şeyləri deyib. Amma demirəm, çünki özümdən nələrsə uydura bilmərəm. Bu, yaxşı hal deyil".

**"Nə varsa, artıq məlumdur"**

Müsahibimiz Lütfi Zadə ilə görüşünü Rafiq Əliyevin təşkil etdiyini vurğulayıb:

"Elmin əsas məqsədi həqiqəti aşkara çıxarmaqdır. Bu səbəbdən həqiqəti təhrif etmək olmaz. Belə şey elm adamına yaraşmaz. Ölən insanı tanıyanlar bunu inkar edirsə və ya qəbul etmirsə, onun adından nəyisə deməklə deyil ki...

Hər kəs bilir ki, Rafiq Əliyev uzun müddət Lütfi Zadənin dostu olmuşdur. Hətta mən də Lütfi Zadə ilə görüşə gedəndə bütün təşkilatçılığı onun yaxın adamı kimi Rafiq Əliyev etdi. Lütfi Zadənin evinə getdik və o, bizi çox mehriban qarşıladı. Yəni bu adam haqqında olmayan şeyləri uydurmaq lazım deyil. Nə varsa, artıq məlumdur".

**Günay Rəsulqızı**

*http://modern.az/az/news/143736#gsc.tab=0*

# HAMLET ISAXANLI WROTE ABOUT WHO IS THE TRUE HEIR OF LUTFI ZADEH

On September 19, 2017, an interview with Professor Hamlet Isaxanli, Founder of Khazar University, Chairman of the Board of Directors and Trustees, was released, which clarified the issues concerning the moral successor of outstanding scholar Lutfi Zadeh.

You can read the full article accessing following links:

*http://xalqinfo.az/blokxeber/59231-ham-bilir-ki-ltfi-zadnin-varisi-rafiq-liyevdir-.html*

*http://modern.az/az/news/143736*

*http://mektebgushesi.az/2017/09/19/hamlet-isaxanli-hami-bilir-ki-lutfi-zadənin-varisi-rafiq-əliyevdir/*

HEYDƏR ƏLİYEV FONDU

Üzeyir Hacıbəyli
IX BEYNƏLXALQ MUSİQİ FESTİVALI
18 - 26 sentyabr 2017-ci il

Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi



## "ÜZEYİR HACIBƏYLİ ALİM, MUSİQİŞÜNAS, İCTİMAİ XADİM" MÖVZUSUNDA KONSERT - KONFRANS

## CONCERT - CONFERENCE WAS HELD DEDICATED TO "UZEYIR HAJIBEYLI, SCHOLAR, MUSICIAN AND PUBLIC FIGURE"

Xəzər Universiteti artıq neçə ildir ki, Heydər Əliyev Fondu və Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə keçirilən Üzeyir Hacıbəyli beynəlxalq musiqi festivallarında fəal iştirak edir. 2017-ci il sentyabrın 20-də Universitetin Mərmər zalında Üzeyir Hacıbəyli IX Beynəlxalq Musiqi Festivalı (18-26 sentyabr) çərçivəsində "Üzeyir Hacıbəyli alim, musiqişünas, ictimai xadim" mövzusunda konsert - konfrans keçirildi.

Tədbir Azərbaycan Dövlət Himninin ifası ilə başlandı. Dahi bəstəkarın həyat və yaradıcılığına aid slayd-şoular və sənədli film nümayiş etdirildi.

Konsert-konfransı giriş sözü ilə universitetin Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, pianoçu Zülfiyyə Sadıqova açdı.

Khazar University has been actively participating at the International Music Festival devoted to Uzeyir Hajibeyli, which was organized conjointly with Heydar Aliyev Foundation and the Ministry of Culture and Tourism. On September 20, 2017 within the framework of IX Uzeyir Hacibeyli International Music Festival (18-26 september) Concert-Conference was held at the University's Marble Hall dedicated to "Uzeyir Hajibeyli, scholar, musician and public figure".

The event commenced with the performance of the Azerbaijan State Anthem. Slideshows and documentary film about the life and creativity of the great composer were demonstrated. Concert-Conference was opened by welcome speech of the Associate Professor Zulfiyya Sadigova, pianist and Head of the Department of Music and Fine Arts.



Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, Xalq artisti, tarzən Ramiz Quliyev, Azərbaycan Bəstəkarlar İttifaqının katibi, Əməkdar incəsənət xadimi, Bakı Musiqi Akademiyasının professoru Zemfira Qafarova, Üzeyir Hacıbəyli ev muzeyinin direktoru, Azərbaycan Bəstəkarlar İttifaqının katibi, əməkdar incəsənət xadimi, professor Sərdar Fərəcov, Əməkdar incəsənət xadimi, Bakı Musiqi Akademiyasının professoru Zümrüd Dadaşzadə, Bakı Musiqi Akademiyasının magistr tələbələri Aysel Mirzəsoy, Məkkə Rəsulzadə və Fəriqə Məmmədzadə tədbirdə çıxış etdilər. Çıxışlarda Üzeyir Hacıbəylinin çoxşaxəli yaradıcılığının müxtəlif sahələrindən danışıldı.

Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, Ramiz Quliyev, People's Artist and tar player, Zemfira Gafarova, Secretary of the Azerbaijan Composers' Union and honored artistic figure and professor of Baku Music Academy, Professor Sardar Farajov, Director of the Uzeyir Hajibeyli House Museum, honored artistic figure and Secretary of the Azerbaijan Composers' Union, honored artistic figure and professor of Baku Music Academy, Zumrud Dadashzade and Master students of the Baku Music Academy Aysel Mirzasoy, Mekke Rasulzade and Feriqe Mammadzade delivered speech at the event.







Zülfiyyə Sadığovanın bədii rəhbərliyi ilə konfransın konsert proqramında Xəzər Universitetinin Kamera orkestrinin müşayiəti ilə Üzeyir Hacıbəyli, Müslüm Maqomayev və Aqşin Əlizadənin əsərləri ifa olundu. Dirijor Bakı Musiqi Akademiyasının müəllimi, beynəlxalq müsabiqələr laureatı Cavad Tağızadə, solistlər - Müslüm Maqomayef adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının solisti, Xəzər Universitetinin müəllimi Məhsəti Cabbarlı və M. F. Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti Taleh Yahyayev idi.

Konsert - seminarda ölkənin musiqi ictimaiyyətinin nümayəndələri, Xəzər Universitetinin əməkdaşları və tələbələri iştirak edirdilər.

During the speeches various aspects of Uzeyir Hajibeyli's multifaceted creative work were discussed. At the Concert-Conference, under the artistic direction of Zulfiyya Sadigova, accompanied by the Chamber Orchestra of Khazar University, outstanding works of Uzeyir Hajibeyli, Muslim Magomayev and Agshin Alizadeh were performed. The conductor of the orchestra for this concert was the laureate of the international competitions and teacher of Baku Music Academy, Javad Taghizadeh, and soloists were – soloist of Azerbaijan State Academic Philharmonia named after Muslim Magomayev, and teacher at Khazar University, Mahsati Jabbarli, as well as soloist of the Azerbaijan State Academic Opera and Ballet Theater named after M.F Akhundov, Taleh Yahyayev.





# XƏZƏR UNİVERSİTETİNDƏ ÜZEYİR HACIBƏYLİ IX BEYNƏLXALQ MUSİQİ FESTİVALI ÇƏRÇİVƏSİNDƏ KONSERT KEÇİRİLDİ

# CONCERT WAS HELD AT KHAZAR UNIVERSITY WITHIN THE FRAMEWORK OF THE IX INTERNATIONAL MUSIC FESTIVAL DEVOTED TO UZEYIR HAJIBEYLI

Sentyabrın 21-də universitetin "Dünya" konsert salonunda festival çərçivəsində UNESKO-nun Sülh artisti, pianoçu Elisso Bolkradzenin iştirakı ilə konsert keçirildi. Konsertdə universitetin rəhbərliyi və əməkdaşları, tələbələr, festivalın iştirakçısı olan xarici qonaqlar iştirak edirdilər. Konsertdən əvvəl Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı iştirakçılara Üzeyir Hacıbəylinin həyat və yaradıcılığı haqqında geniş məlumat verdi.

Konsertdə universitetin Kamera orkestrinin ifasında Üzeyir Hacıbəyli, Fikrət Əmirov, Sərdar Fərəcov və Sevda Rəhimovanın; Haydn və Şostakoviçin əsərləri səsləndi. Bethovenin fortepiano və simfonik orkestr üçün 1 nömrəli konsertinin 3-cü hissəsi Xəzər Universitetinin simfonik orkestri və Elisso Bolkradze tərəfindən ifa olundu.

On September 21, a concert was held at the "Dunya" concert hall of the university with the participation of Elisso Bolkvadze, the world-famous pianist, UNESCO Artist for Peace. The concert was attended by the management and staff of the university, students, and foreign guests. Before the concert, Prof. Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, gave detailed information about the life and creativity of Uzeyir Hajibeyli to the participants.

At the concert, the works of Uzeyir Hajibeyli, Fikret Emirov, Serdar Farajov, Sevda Rahimova, Haydn and Shostakovich were performed by the Camera Orchestra of the University. Beethoven, Concert No. 1 for fortepiano and symphonic orchestra, Part 3 was performed by Elisso Bolkvadze and Symphony Orchestra of Khazar University.





Konsertin bədii rəhbəri Xəzər Universitetinin Musiqi və incəsənət departamentinin müdiri, Əməkdar müəllim, dosent Zülfiyyə Sadıqova, dirijoru beynəlxalq müsabiqələr laureatı, Bakı Musiqi Akademiyasının müəllimi Cavad Tağızadə idi.

Konsertdən sonra Elisso Bolkradze ustad dərsi keçdi. Dərsdə Bülbül adına Musiqi Məktəbindən Leyla Zeynalova və Maqsud Musazadə, Səid Rüstəmov adına 13 saylı Uşaq Musiqi məktəbindən İradə İsgəndərova və Aysel Sultanlı, Azərbaycan Milli Konservatoriyasının nəzdində İncəsənət Gimnaziyasından Nigar Hüseynli, Ayla Kəlbiyeva, Zöhrə Qurbanova və Banu Tağıyeva iştirak etdilər.

The art director of the concert was Associate Professor Zulfiyya Sadigova, Honoured Teacher, Head of the Department of Music and Fine Arts and the conductor was Javad Tağızade, the laureate of international competitions, the instructor of Music Academy.

Elisso Bolkradze gave master classes after the concert. Leyla Zeynalova and Maqsud Musazade from Music School named after Bulbul, Irada Isgandarova and Aysel Sultanli from Children Music School No. 13 named after Said Rustamov, Nigar Huseynli, Ayla Kalbiyeva, Zohra Qurbanova, and Banu Tagiyeva from Art Gymnasium within Azerbaijan National Conservatory have participated at the class.









# "XƏZƏR"İN ƏMƏKDAŞLARININ MƏQALƏLƏRİ ÇAP OLUNUB

***




**Humanitar və sosial elmlər fakültəsinin dekan köməkçisi, universitetin doktorantı Validə Kərimovanın** "Ədəbi-tənqidi mətndə estetik problematikanın spesifikası" adlı məqaləsi Sumqayıt Dövlət Universitetinin "Elmi xəbərlər" jurnalının Sosial və humanitar elmlər bölməsinin 13-cü cildinin 2-ci buraxılışında (2017) çap edilmişdir.

**V. Kərimovanın** "Possibility of Foreign Languages in the Education System of Azerbaijan: Analysis of the Best Foreign Language among Students'in Higher Private Educational Institutions" *("Azərbaycanın təhsil sistemində xarici dil imkanı: özəl ali təhsil müəssisələrində tələbələr arasında ən yaxşı xarici dilin təhlili")* adlı tədqiqat işi Türkiyənin Sakarya şəhərində TOJQIH (The Online Journal of Quality in Higher Education) jurnalının iyul buraxılışında çap edilmişdir.

Qeyd edək ki, müəllif eyni adlı məruzə ilə 2016-cı il noyabrın 24-25-də Sakaryada keçirilən beynəlxalq konfransda (ICQH 2016) çıxış etmişdir.




**V. Kərimovanın** "Multilingualism in Azerbaijan: the most preferred foreign languages in private universities of the country and its Socioeconomic aspects" sərlövhəli məqaləsi ABŞ-da "Science Publishing Group" nəşriyyat evinin "American Journal of Education and Technologies" adlı elmi jurnalın 2017-ci il iyul nömrəsində çap edilmişdir.

Məqalə müəllifin 2015-2016 akademik tədris ili müddətində Xəzər Universteti və Qafqaz Universitetinin (hazırki Bakı Mühəndislik Universiteti) 301 tələbəsi arasında apardığı tədqiqatın nəticələri əsasında hazırlanmışdır.

Tədqiqat işi ilə aşağıdakı linklər vasitəsilə tanış olmaq mümkündür:

*http://www.sciencepublishinggroup.com/journal/paperinfo?journalid=538&doi=10.11648/j.ajeit.20170104.13*

*http://www.tojqih.net/journals/tojqih/articles/v04i03/v04i03-03.pdf*

*http://www.tojqih.net/journals/tojqih/volumes/tojqih-volume04-i03.pdf*

**V. Kərimovanın** *"The American Dream: A review of the suspense in Steinbeck's `Of Mice and Men`"* adlı elmi məqaləsi Gəncə Dövlət Universitetinin "Elmi xəbərlər" jurnalının Humanitar və təbiət elmləri seriyasının 2017-ci ilinin 2-ci cildində çap edilmişdir. Məqalənin tədqiqat obyekti Con Steynbekin "Siçanlar və adamlar" romanıdır.

***

**Dillər və mədəniyyətlər departamentinin dosent əvəzi, filologiya üzrə fəlsəfə doktoru Zivər Hüseynli-Baylanın** BDU-nun nəşri olan "Dil-ədəbiyyat" elmi-nəzəri jurnalının 2017-ci il 6-cı sayında (102) "Dini ədəbiyyatımızın inkişafında Şah İsmayılın rolu" adlı məqaləsi çap edilmişdir.

Tədqiqatın araşdırma obyekti Səfəvilər dövrü fars dilində yazılmış tarixi mətnlər, habelə Şah İsmayılın siyasi və mədəni fəaliyyəti haqqında əsərlərdir.

***

***

**Humanitar və sosial elmlər fakültəsinin dekan müavini, Xəzər Psixoloji Xidmət Mərkəzinin direktoru universitetin doktorantı Mələk Kərimovanın** "İncəsənət terapiyası" adlı məqaləsi Sumqayıt Dövlət Universitetinin "Elmi xəbərlər" jurnalının Sosial və humanitar elmlər bölməsinin 13-cü cildinin 2-ci buraxılışında (2017) çap edilmişdir.

Məqalədə incəsənət terapiyasının məqsəd və vasitələrindən, tarixi keçmişindən, bu sahədə mütəxəssis hazırlığının zəruriliyindən bəhs edilir.

**M. Kərimovanın** "Sanatçıların kişilik özellikleri" adlı məqaləsi Türkiyənin "Journal of Awareness" International Peer Rewieved and Open Access Electronic Journal-ında (E-ISSN:214906544, Cilt 2, Özel Sayı 2) çap edilmişdir. Məqalədə incəsənətlə məşğul olan insanların xarakterik xüsusiyyətləri, yaşadığı cəmiyyətin və dövrün sənətkarın əsərlərinə və şəxsiyyətinə olan təsiri təhlil edilmişdir.




***

**Xəzər Universitetinin müəllimi Elza İsmayılovanın** "Koroğlu" dastanında dini motivlər (Azərbaycan və Türkiyə variantları əsasında)" adlı elmi məqaləsi AMEA Folklor İnstitutunun "Dədə Qorqud" elmi-ədəbi toplusunun 2016-cı il I buraxılışında çap edilmişdir.

Məqalədə dastanın hər iki variantı əsasında Qurandan gələn obraz və süjetlər ilk dəfə müqayisəli şəkildə tədqiq olunmuş, dastandakı dini motivlər üzə çıxarılmışdır.

***

"Yeni müsavat" onlayn ictimai-siyasi qəzetin 25 iyul 2017-ci il tarixli sayında *Musavat.com* və *Xeber365.com* saytlarının Türk dilinin regionda ortaq dilə çevrilməsi istiqamətində başladıqları yeni layihə çərçivəsində **AMEA Nəsimi adını Dilçilik İnstitutunun böyük elmi işçisi, Xəzər Universitetinin müəllimi, filologiya üzrə fəlsəfə doktoru İlahə Qurbanlının** "Avropada fransız, Qafqazda türk dili…" adlı məqaləsi dərc olunmuşdur. Məqalədə müəllif layihəyə müsbət münasibətini bildirir.

Məqaləni bu linkdə oxumaq olar:

*http://musavat.com/news/avropada-fransiz-qafqazda-turk-dili_456361.html#Kalibri*

***

**Xəzər Universiteti Mühəndislik və tətbiqi elmlər fakültəsinin əməkdaşı Dr. Rəsul Muradinin** *"Heat transfer of Fe3O4 –water nanofluid in a permeable medium with thermal radiation in existence of constant heat flux"* adlı elmi məqaləsi "Elsevier" nəşriyyat evinin "Chemical Engineering Science" jurnalında çap olunub.

Məqaləni bu link vasitəsilə oxumaq olar:

*http://www.sciencedirect.com/science/article/pii/S0009250917305808*

***

**Xəzər Universiteti Tarix və arxeologiya departamentinin əməkdaşı Nuridə Atəşinin** *Thomson Reuters* indeksli jurnallarda alman və ingilis dillərində iki məqaləsi çap olunmuşdur.

Məqalələrin PDF variantını aşağıdakı linklərdə oxumaq olar:

*http://www.khazar.org/files/articles/Ateshi_pz_2017_0009.pdf*

*http://www.khazar.org/files/articles/Critical_remarks_on_archaeological_resea.pdf*

***




## KHAZAR JOURNAL OF HUMANITIES AND SOCIAL SCIENCES YURNALININ YENİ SAYI DƏRC OLUNUB

*Khazar Journal of Humanities and Social Sciences* jurnalının ("Xəzər Humanitar və sosial elmlər jurnalı") yeni sayı (cild 20, № 3, 2017) Xəzər Universitetinin Nəşriyyatında dərc olunub.

Jurnal ildə dörd dəfə ingilis dilində çap olunur.

Jurnalı tam şəkildə bu link vasitəsilə oxumaq olar: *www.jhss-khazar.org*

## NEW ISSUE OF KHAZAR JOURNAL OF HUMANITIES AND SOCIAL SCIENCES PUBLISHED

The new issue of Khazar Journal of Humanities and Social Sciences (Vol 20, № 3, 2017), has been published by Khazar University Press.

Issues that were touched upon in this issue include the revisited strategies of politeness translation in 'The Simpsons' Sitcom; teachers' understanding-check practices and learners' following orientations in EFL classroom interaction;assessment of training needs for teaching at the elementary schools in Saudi Arabia; a 'Thick Description' genre analysis of death announcement notices; fiscal decentralization and economic growth; national mechanisms for ensuring social rights and socio–cultural constraints of girls' access to education in Tanzania.

The Journal is published four times a year in English.

The open-access electronic version of the journal can be found on: *www.jhss-khazar.org*

## "XƏZƏR"İN DEPARTAMENT MÜDİRİ PARİSDƏ KONSERT PROQRAMI İLƏ ÇIXIŞ ETMİŞDİR

İyulun 13-də Azərbaycanın Fransadakı səfirliyi, Parisdəki Azərbaycan Mədəniyyət Mərkəzi və Azərbaycanın Dostları Assosiasiyasının təşkilatçılığı ilə Azərbaycan Mədəniyyət Mərkəzində Fransanın milli bayramı -Bastiliyanın alınması günü münasibətilə tədbir keçirilmişdir. Tədbirdə Azərbaycanın Fransadakı səfirliyinin və UNESKO-nun əməkdaşları, senatorlar və şəhər ictimaiyyətinin nümayəndələri iştirak etmişlər. Azərbaycanın Fransadakı səfirliyinin müşaviri Nigar Hüseynova tədbirdə çıxış edərək, Azərbaycan-Fransa əlaqələrinin yüksək səviyyədə olmasından danışmışdır.

Tədbirin bədii hissəsində Xəzər Universitetinin Musiqi və incəsənət departamentinin müdiri,əməkdar müəllim, pianoçu Zülfiyyə Sadıqova çıxış etmişdir.



## THE HEAD OF THE DEPARTMENT OF KHAZAR UNIVERSITY GAVE A CONCERT IN PARIS

On July 13, an event was held at the Azerbaijan Cultural Centre on the occasion of the national holiday of France - the Bastille Day, organized by the Embassy of Azerbaijan in France, the Azerbaijan Cultural Centre in Paris and the Association of Friends of Azerbaijan. The representatives of the Embassy of Azerbaijan in France and UNESCO, senators and representatives of the city community took part in the event. Nigar Huseynova, the advisor to the Embassy of Azerbaijan in France delivered a speech at the event and spoke about the high level of Azerbaijani-French relations.

Zulfiyya Sadigova, the pianist, Honoured Teacher, Head of the Department of Music and Fine Arts, played the piano in the artistic part of the event.






# PSİXOLOGİYA DEPARTAMENTİNDƏ MAGİSTR MÜDAFİƏSİ KEÇİRİLDİ







Sentyabrın 26-da Xəzər Universiteti Psixologiya departamentində Ümumi psixologiya və klinik psixologiya ixtisası üzrə magistratura tələbələrinin dissertasiya işlərinin müdafiəsi təşkil edildi. Müdafiədə Humanitar və sosial elmlər fakültəsinin dekanı, dosent Cabir Xəlilov, dekan müavini Mələk Kərimova, dekan köməkçisi Validə Kərimova, Jurnalistika departamentinin koordinatoru Cabir Məmmədli, p.ü.f.d. Ləman Verdiyeva iştirak edirdilər.

Müdafiə şurasının sədri, universitetin Magistratura, doktorantura və elmi işlər bölməsinin müdiri, fəlsəfə doktoru Eldar Şahgəldiyevin rəhbərliyi ilə keçirilən müdafiədə müzakirələr aparıldı və iddiaçılar sualları cavablandırdılar. Ümumi psixologiya ixtisası üzrə magistr tələbələri Vəfa Həşimova "Yeniyetmələrdə təfəkkür çevikliyinin təzahür xüsusiyyətləri", Aysel Xanməmmədova "Gənclərdə mənəvi inkişafı şərtləndirən amillərin psixoloji təhlili", klinik psixologiya ixtisası üzrə magistr tələbə Günay Bayramova isə (elmi rəhbər: İkram Rüstəmov) "Universitet tələbələri arasında internet asılılığı və depressiya arasında əlaqə" adlı dissertasiya işlərini müdafiə etdilər.

Müdafiə prosesində Xəzər Universitetinin klinik psixologiya birinci kurs magistr tələbələri də iştirak edirdilər. İddiaçılar Vəfa Haşımova və Aysel Xanməmmədovanın dissertasiya işlərinin elmi rəhbəri Bakı Dövlət Universitetinin Psixologiya kafedrasının müəllimi p.ü.f.d. Müşfiq Mustafayev Müdafiə şurasında şura üzvlərinin suallarını cavablandırdı. Müdafiəyə təqdim olunan işlər müsbət qiymətləndirildi və iddiaçılara magistr dərəcəsi verilməsi qərara alındı.



# CON STEYNBEKİN *"OF MICE AND MEN"* NOVELLASINDA "AMERİKA XÜLYASI" VƏ SİMVOLLAR

**Validə Kərimova**
German dilləri, Doktorant
*Xəzər Universiteti*
*vkerimova@khazar.org*

Dünya ədəbiyyatına dəyərli töhfələr verən, fəxrlə adı çəkilən ABŞ yazıçıları Mark Tven, Teodor Drayzer, Cek London, Uilyam Folkner və Ernest Heminqueyin əsərləri Azərbaycan dilinə tərcümə olunduğundan oxucular və tədqiqatçılar onları yaxşı tanıyır. Təəssüf ki, ABŞ-ın Nobel mükafatı laureatları Lyuis Sinkler, Yucin O'Nil, Perl Bak və Con Steynbek barədə indiyə qədər azərbaycanlı oxucuların məlumatı azdır.

Hələ uşaq ikən bədii ədəbiyyata maraq göstərən Con haqqında anası Oliviya Hamilton deyərmiş: " O ya dahi, ya da avara olacaq". Anasının fikri müsbət mənada özünü doğrultdu. Con Steynbek iradəsi, istedadı, inadkar çalışqanlığı və zəhməti sayəsində dahilik mərtəbəsinə yüksəldi. Onun əsərləri ABŞ nəsrinin nadir incilərindəndir.

1962-ci ildə Nobel mükafatına layiq görülmüş yazıçının əsərləri öz ölkəsində və hüdudlarından kənarda geniş oxucu kütləsinə malikdir və bu əsərlər Qərb ədəbiyyatının klassik əsərləri sırasında özünəməxsus yer tutur. Steynbek To a God Unknown ("Gözə görünməz Allaha doğru", 1933), Tortilla Flat ("Tortilla Flət", 1935), Of Mice and Men ("Siçanlar və adamlar", 1937), The Red Pony ("Qırmızı Poni", 1937), The Grapes of Wrath ""Qəzəb salxımları". 1939), The Pearl ("Mirvari", 1947), Travels with Charley: In search of America ("Çarli ilə səyahət",1960) və s. əsərlərində oxuculara obrazların həyat hekayələrini real insanların fitnəfəsadlı məişət problemləri fonunda təqdim edir. Steynbekin yaratdığı obrazlar dəbdəbəli həyat sürən varlı kişilər və qadınlar deyil, əksinə evsizlər, mühacir işçilər, kasıb balıqçılar, fermerlər və hətta unudulmuş amerikalı insanlardır. Bu insanların hər birinin ürək ağrısı ilə nəql ediləcək hekayəsi var; sevgi və ağrı dolu hekayələr. "Siçanlar və Adamlar" novellasında müəllifin istifadə etdiyi bədii simvolları analiz etməkdə əsas məqsəd oxucular tərəfindən Steynbekin bu novellasında cərəyan edən hadisələrin daha dərindən başa düşülməsinə kömək etməkdir.

Steynbekin yazıçı kimi ilk uğuru 1937-ci ildə "Siçanlar və Adamlar haqqında" novellasının çapı ilə başladı və bu onun Pulitzer mükafatına layiq görülmüş məşhur əsəridir. Novella Oklahomadan gəlmiş mühacir fəhlələrin faciəvi həyatından bəhs edir. Əsər aydın olmayan tərzdə yazılsa da, hər şeyi bilən üçüncü şəxs gözəgörünməz əl kimi hadisələrin açılışında katalizator rolunu oynayır. Bu baxımdan əsər hadisələrin üçüncü şəxs tərəfindən nəql olunması tərzində yazılan nadir novellalardan biridir. Əsərin bu tərzdə yazılması oxuculara bütün xarakterlərin daxili yaşantıları ilə yaxından tanış olmaq imkanı verir "Siçanlar və Adamlar" Steynbekin həcmcə kiçik əsərləri arasında ən qarışıq olanıdır və bu qısa hekayədə müəllif zəngin məna yarada bilmişdir. Oxunaqlı sujet xətti, hekayə boyunca mövzuların və xarakterlərin qabarıq təsviri əsəri yetkin oxucu auditoriyası üçün daha cəlbedici edir.

Bütün faciəvi əsərlər kimi Steynbekin bu novellasının da kulminasiya nöqtəsi və faciəvi sonluğu var. "Siçanlar və Adamlar" əsərinin ekspozisiyasında Kaliforniyanın Salinas vadisindən səfərdən qayıdan iki mühacir insanla tanış oluruq. Onlar Corc və Lennidir. Bu iki şəxsin bir-birinə əks olan xarakterləri onların arasındakı xüsusi münasibətə mane olmur. Lenni çox bəsit fikirlidir, Corc isə müdrik və uzaqgörəndir. Bir-birinin əksi olan bu iki obrazın birlikdə ferma sahibi olmaq xəyalı da var. Problem elə başlanğıcdadır. Bütün hekayə boyunca Corc və Lenni birlikdə səyahət edir: "...onlar cığır boyunca düz xətt ilə gəzdilər, hətta açıqlıqda belə biri digərinin arxasında dayandı. Hər ikisi denim şalvarı, mis düyməli denim pencəkləri geyinmişdilər. Hər ikisi qara, formasız papaqlar geyinmişdi və hər ikisi çiyinlərinin üstündə sapandlanmış ədyal rulonları daşıyırdı...". [5; s.1] Lennini görən hər kəs onunla möhkəm bədənli və ucaboylu olması səbəbilə ehtiyatlı davranmaq lazım olduğunu başa düşürdü. Lenninin özündən asılı olmayan qaba davranışları Corcu özündən çıxarır, o isə hər dəfə Corca qıcıqlandırıcı təbəssümlə deyir: "...mən

zərər vermək istəmədim, dürüst olaraq mən istəmədim, sadəcə olaraq azca nəvaziş göstərmək istədim...". [5; s. 31]

Simvol və simvolizm hər hansı bir fikri üstüörtülü şəkildə ifadə etmək üçün istifadə olunur. Bu, ədəbiyyatda məfhumun, obyektin, insanın, vəziyyətin və ya hətta bir sözün məcazi mənada ifadəsidir. Steynbek də öz əsərində, məsələn "kəndin qoca iti" ifadəsindən tək yaşayan və artıq ferma işini görə bilməyən mühacir insanların başına nə gəldiyini göstərmək üçün simvol kimi istifadə edir. Lenninin dovşanı yanlış ümidi və özünə güvənməyi simvolizə edir. Siçanlar taleyin təsadüflərdən ibarət olmasına, məsumluğa işarədir. Bundan başqa, mühacirlərdən müxtəlif yollarla sui-istifadə edən Kurli və onun xanımı həmin dövrdə möhtəkirliyin yayılmasını simvolizə edir. Beləliklə, novellada hər bir xarakter daha geniş əhalini təmsil edir. Müəllif əxlaq oyunları, xarakterlərin arketiplərindən istifadə etməklə alleqorik dərslər verir. Həmçinin, əsərdəki hekayənin quruluşu da bütövlükdə simvolikdir.

Novella həyati çətinlikərin bədii sübutudur. "Siçanlar və Adamlar" oxuculara öz yaşantıları baxımından nəticələr çıxarmaq şansını verir. Kişilər arasında ideallaşmış münasibətlərin təsviri müəllifin oxuculara mesajıdır. "Amerika xülyası"nın (The American Dream) qeyri-mümkünlüyü, sosial güc strukturlarının Amerika cəmiyyətində tarazsızlığı buna misaldır. Əsərdən belə bir sual ortaya çıxır ki, niyə 1937-ci ildə yazılan novella işçilərin Böyük Böhran dövrü ərzində həyatını göstərməklə bu cür məşhurluq əldə edib? Belə qənaətə gəlmək olar ki, Steynbekin bu klassik əsərindəki hadisələr XXI əsr cəmiyyəti üçün də aktualdır.

Steynbek yaratdığı obrazlara rəğbət bəsləyir, ancaq onların hekayəsini xoşbəxt sonluqla bitirmir. Hətta Corc və Lenni də bir növ yalnızlıq hiss edirlər. Obrazların çoxu daha yaxşı həyat, çıxış yolu arzu edir və öz iradəsilə hərəkət etmək istəyir. Beləliklə, novella xəyalların fatalistik baxışını təmsil edir.

Steynbek əsəri eyni yerdə başlayır və eyni yerdə də bitirir. Müəllifin verdiyi quruluşu periodik adlandıra bilərik. Bu periodiklik əsər boyu davam edir və oxucu sanki bu periodikliyin davam etməsini istəyir. Əsərin sonunda Corc bu periodikliyi Lennini öldürməklə qırır. Müəllif göstərir ki, tarix özünü təkrarlayır, obrazlar nə qədər müasir olsalar da, cəngəllik dövrünün qəddarlığı




onların xarakterini tərk etməyib.

Əsərin böyük hissəsi dialoqlardan ibarətdir. Dialoqlarda jarqon və dialektlərdən istifadə edilir. Bununla da dil xüsusiyyətləri vaxtı və yeri əks etdirir. Böyük həcmdə dialoqlar vasitəsilə Steynbek bir sıra amerikalıların şəxsiyyətini nümayiş etdirir.

Son olaraq müəllifin oxuculara mesajı budur ki, həyat sərtdir və xəyallar kövrəkdir. Buna baxmayaraq, hər bir hekayə kimin həyat hekayəsi olmasına baxmayaraq dəyərlidir.

## İstifadə edilmiş mənbələr:

[1] Arthea J.S. Reed. A Teacher's guide book. Analysis Of Mice and Men.
http://www.penguin.com/static/pdf/teachersguides/ofmiceandmen.pdf

[2] Carl Van Doren. Analysis Of Mice and Men. 1937.
http://www.amerlit.com/novels/ANALYSIS%20Steinbeck,%20John%20Of%20Mice%20and%20Men%20(1937)%20analysis%20by%208%20critics.pdf

[3] Danica Čerče. Between translation and transformation: recreating Steinbeck's language in Of Mice and Men. 2016. http://www.tandfonline.com/doi/abs/10.1080/13556509.2016.1183092

[4] Joseph E. S., Lena T. S., Karen P. –MAX Notes of J. Steinbeck's Of Mice and Men. 2001.
https://books.google.az/books?id=96WfEbkKIKAC&pg=PP1&lpg=PP1&dq=mice+and+men+%22%E2%80%A6Written+in+easy+to+follow,+easy+to+grasp+style%E2%80%A6%22&source=bl&ots=R0yNcXC1FZ&sig=ZtjqEHkmTJBYH42-WdIAx3EZIi4&hl=az&sa=X&ved=0ahUKEwiV26eX1erSAhUJuhQKHSV_BOIQ6AEIHTAA#v=onepage&q&f=true

[5] John Steinbeck. Of Mice and Men. Copywrite renewed 1965. pp. 1; pp. 31.
http://www.nhc.ac.uk/media/2840/steinbeck-john-of-mice-and-men.pdf

# XƏZƏR UNİVERSİTETİ MULTİMEDİA MƏRKƏZİ TƏQDİM EDİR

Xəzər Universiteti Multimedia mərkəzinin əməkdaşları ölkənin müxtəlif bölgələrində və xaricdə olarkən maraqlı görüntüləri lentə almışlar.



*Kənan Bilalov (Gürcüstan, Marneuli)*



*Azər Mustafazadə (İsmayıllı)*



*Nigar Fərmanova (Bakı)*



Fərid Ağalarov (İstanbul)



Azər Mustafazadə (İsmayıllı)

# ƏBƏDİ GƏNCLİK

(*hekayə*)



**Leonid Andreyev**
Rusiya
(*1871-1919*)

Yaşamağı ürəkdən sevən adlı-sanlı bir ağa, böyük rütbəli qoca məmur ölürdü. Ölmək ona yaman ağır gəlirdi: o, Allaha inanmırdı, nə üçün öldüyünü anlaya bilmirdi, elə bütün bunlara görə də, qorxudan ağlını itirmişdi. Onun necə əzab çəkdiyinə baxmaq çox qorxunc idi.

Ölüm ayağında olan bu böyük məmur çox zəngin və maraqlı bir ömür sürmüşdü, onun ürəyi və düşüncəsi, dinclik nə olduğunu bilmədən, istədikləri bütün həzzlərə çatmışdılar.

İndi isə ürəyi də, düşüncəsi də, yorulmuşdu və yaşamaqdan bezən bədəni yavaş-yavaş soyumaqda idi. Doymuş gözləri gözəlliyə baxa bilməyəcək dərəcədə yorulmuşdu; qulaqları heç nə eşitmirdi, keyimiş ürəyi isə hər hansı bir sevinci duymaq qabiliyyətini itirmişdi.

Bu böyük məmur keçmişlərdə ölümlə bağlı düşüncələrə dalıb əylənməyi sevərdi: heç olmasa biraz dincələrəm,–əl öpməklərdən, təzim eləməklərdən, məruzə dinləməklərdən canım qurtarar–deyə, ləzzətlə düşünərdi. Hə, o ölümdən uzaq olanda belə düşünərdi... indi isə, ölüm yatağına düşəndən sonra, ölmək ona dözülməz dərəcədə əzablı və bütün varlığını sarsıdacaq qədər qorxunc görünürdü.

O, biraz da yaşamaq istəyərək düşünürdü: lap azacıq, heç olmasa gələn bazar ertəsinə kimi, ya da barı çərşənbə, ya da cümə axşamına kimi yaşamaq nə yaxşı olardı.

Baxmayaraq, həftədə vur-tut yeddi gün vardır, bunlar: bazar ertəsi, çərşənbə axşamı, çərşənbə, cümə axşamı, şənbə və bazardır, ancaq necə qəribə də olsa, o həftənin hansı günündə can verdiyini bilmədən ölürdü.

Bax, elə həftənin hansı günü olduğu bilinməyən həmən o gündə şeytan ölən məmurun yanına gəlmişdi, bu, çoxsaylı sıravi şeytanlardan biri idi.

O, evə ruhani qiyafəsində girmişdi, əlində tüstülənən buxurdan, bir də yanan şam tutmuşdu, hamı onu ruhani kimi görsə də, yalnız ölən məmur şeytanı olduğu kimi görməkdə idi.

Məmur şeytanın buraya gəlişinin boş yerə olmadığını o dəqiqə anladı və buna sevindi: şeytan varsa, onda biryolluq ölüb yoxluğa gömülmək də yoxdur, deməli, ölümsüzlük deyi-

lən bir şey də vardır.

Yox, lap birdən ölümsüzlük olmasa da, hər halda öz ruhunu əlverişli qiymətə satıb ömrünü biraz da olsa uzada bilməyə imkan vardır. Bunun belə olduğu bəlli idi və şeytanı görəndə diksinməyi də, ən çox buna görə idi.

Ancaq şeytanın üzündən yorğunluq və narazılıq yağırdı, o uzun müddət susub qaldı, ayaq üstə dayanıb durdu, yanlış bir ünvana gəlibmiş kimi, üzünü turşudub ikrah duyulan baxışları ilə yan-yörəni süzməyə başladı.

Şeytanın bu görünüşü məmuru üşəndirdi və o tələsik, şeytana oturmaq üçün yer göstərdi; ancaq oturandan sonra da, şeytanın üz-gözündən zəhrimar yağırdı və o susub üzünü qırışdırır, yan-yörəsinə çimçəşirmiş kimi baxırdı.

"Demək, onlar belə olurmuş,–deyə, məmur indiyədək gördüyü yadellilərin hamısından daha çox qəribə görünən şeytana baxıb düşündü. –Nə yaman iyrənc üzü var bunun, İlahi! Mənə elə gəlir, onu heç yaşadığı yerlərdə də gözəl saymırlar".

Belə düşünsə də, ancaq, yarınmaq duyulan bir səslə dilləndi:

–Mən sizi başqa cür təsəvvür eləyirdim.

–Nə?–şeytan ikrahla üzünü qırışdırıb soruşdu.

–Belə olduğunuzu düşünmürdüm.

–Bunun əhəmiyyəti yoxdur.

İlk görüşdə hamı onunla belə danışmağa başladığından, bu sözləri dönə-dönə eşitmək artıq şeytanı büsbütün bezdirmişdi.

Məmur isə düşünürdü: "Görəsən, onu çaya, yaxud çaxıra qonaq eləyimmi?–ancaq bunun ağzının quruluşuna baxıram, deyəsən, o heç nə içə bilməz".

–Bax belə, demək, siz də öldünüz...–deyə, şeytan darıxdırıcı və üzgün bir səslə sözə başladı.

–Siz nə danışırsınız!–şeytanın sözündən qanı qaralmış və qorxuya düşmüş məmur dilləndi.–Mən hələ ölməmişəm.

–Siz belə sözləri bu işdən başı çıxmayan başqa birisinə deyərsiniz,–şeytan laqeydcəsinə mırıldanıb sözünə davam elədi: –Bax, siz öldünüz... indi biz nə eləyək? Bu çox ciddi bir məsələdir və gərək bu işi yoluna qoyaq.

–Yəni, mən doğrudanmı ölmüşəm?–böyük rütbəli məmur qorxu içində soruşdu.–Biz axı... danışırıq.

–Siz, haranısa təftiş eləməyə gedəndə vaqona birbaşa minmirsiniz ha! Öncə stansiyada oturub qatarın gəlişini gözləyirsiniz, elə deyilmi?

–Demək, mən indi stansiyadayam.

–Elədir. Sizcə, başqa harada olmalıydınız?

–Anlayıram, anlayıram. Demək, bu artıq mən deyiləm. Elə isə mənim özüm hanı, daha doğrusu, mənim bədənim indi haradadır?

Şeytan başını qeyri-müəyyən bir tərzdə buladı:

–Buradan bir azca aralıda. İndi sizin bədəninizi isti su ilə yuyurlar.

Məmur bərk utandı; sonra özünün eybəcər bədənini, qurşağından aşağıya sallanan piy qatlarını xatırlayıb xəcalət çəkməyə başladı. O, ölülərin bədənini qadınların yuduğunu bilirdi.

–Çox axmaq bir adətdir bu,–məmur acıqla dilləndi.

–Necə olsa da, bu, siz insanların adətidir, burada mənlik bir iş yoxdur,–şeytan dillən-

di.–İndi isə, sizdən məsələnizin həllinə keçməyi xahiş eləyirəm, vaxtımız çox azdır. Özü də siz çox tez iylənib xarab olursunuz.

–Bunu hansı anlamda deyirsiniz?–məmuru soyuq tər basdı.–Yəni, birbaşa anlamdamı?

–Elədir. Sizcə, bu daha hansı anlamda ola bilərdi?–şeytan acı bir istehza ilə onu ələ salmağa başladı.–Bağışlayın, ancaq sözün düzü, sizin yersiz suallarınız məni bezdirir. İndi isə, buyurun, danışdıqlarımı diqqətlə dinləyin, mən dediyimi bir də təkrar eləməyəcəyəm.

Beləliklə də, şeytan çox darıxdırıcı ifadələrlə və bezikdirici bir səslə danışmağa başlayıb–görünür, hər dəfə ölənlər üçün bu sözləri dönə-dönə təkararlaması artıq onun canını boğazına yığmışdı,–aşağıdakıları anlatdı.

Qoca, çox böyük rütbəli və artıq ölmüş məmurun qarşısında iki yol vardı: ya biryolluq ölümü seçməli idi, ya da istəsə, xüsusi, biraz qəribə, hətta, şübhəli görünən yaşamağı seçə bilərdi. Birdən o, birinci yolu, yəni ölümü seçsəydi, onda əbədi yoxluğa, susqunluğa və boşluğa gömüləcəkdi...

"İlahi, bu birinci yolu seçmək çox qorxunc olardı, mən elə həmişə ondan da qorxurdum" –deyə məmur düşündü.

–Əbədi və heç vaxt pozulmayan bir dinclik...–deyə, şeytan indiyədək heç yerdə görmədiyi bəzəkli tavana maraqla baxıb, sözünə davam elədi.–Birinci yolu seçsəniz, siz, izsiz-soraqsız yox olacaqsınız, sizin varlığınız həmişəlik bitəcək, bir də heç vaxt danışa, düşünə, arzulaya, sevinci və ağrını duya bilməyəcəksiniz, bir də heç vaxt "mən" sözünü deyə bilməyəcəksiniz,–büsbütün yox olacaq, sönəcək, bitəcəksiniz, başa düşürsünüzmü, siz, bununla da heçliyə gömüləcəksiniz, heç nə olacaqsınız...

–Yox, yox, istəmirəm!–məmur qışqırdı.

–Yaxşı düşünün, bununla siz əbədi dincliyə qovuşacaqsınız,–deyə, şeytan öyüdverici bir tərzdə dedi.–Bilirsinizmi, bu heç də pis deyil. Bundan yaxşı bir dincliyi nə qədər düşünsəniz də tapa bilməzsiniz.

–Yox, mən dinclik istəmirəm,–məmur qətiyyət duyulan bir səslə dedi, ancaq ölmüş ürəyində özünə yer eləmiş yorğunluq ölü bir yalvarışla, ara vermədən deyirdi: "Mənə dinclik verin, dinclik, dinclik..."

Şeytan qıllı çiyinlərini çəkib, moda dükanında güclü alver olan günün sonunda satıcının danışdığı sayaq, üzgün bir səslə dilləndi:

–Başqa bir yandan, mən sizə əbədi həyat da təklif eləyə bilərəm.

–Əbədi?

–Elədir. Ancaq cəhənnəmdə. Düzdür, bu sizin istədiyiniz həyat olmayacaq, ancaq yenə də həyatdır da. Sizin orada bir sıra əyləncələriniz də olacaq, maraqlı tanışlar tapacaqsınız, danışmağa kimlərsə olacaq, ən başlıcası, öz "məninizi" əbədi olaraq saxlaya biləcəksiniz. Siz əbədi yaşayacaqsınız.

–Həm də əbədi olaraq əzab çəkəcəyəm, eləmi?–insan qorxa-qorxa soruşdu.

–Siz, əzab nəyə deyirsiniz?–şeytan çimçəşircəsinə üzünü bürüşdürüb soruşdu.–Bu, ancaq öyrəşənə kimi qorxunc olur. Onu da sizə deyim, düzdür, bizdə də şikayətçilər olur, ancaq onların şikayəti də elə öyrəşdikləri şeylərlə bağlı olur.

–Sizdə, orada, çoxmu adam var?

Şeytan gözlərini qıyıb qımışdı:

–Adama nə gəlib. Hə, axı öyrəşməkdən danışırdım. Bununla bağlı, bu yaxınlarda

bizdə böyük şuluqluqlar oldu: adamlar yeni növlü əzablar tələb eləyirdilər. Ancaq onları haradan tapasan? Bunlar isə qışqırırlar: bu, şablon, adi əzablardan bezmişik, bizə yenisini verin...

–Bu, çox böyük bir anlamazlıqdır, məncə!–məmur dedi.

–Elədir, ancaq gəl indi bunu onlara başa sal. Bizim xoşbəxtliyimizdən...

Söz bu yerə çatanda şeytan indi adını çəkəcəyi şəxsə sayğısını bildirmək üçün ayağa qalxıb üzünə çox alçaldıcı bir görkəm verdi; məmur da, hər ehtimala qarşı üzünü onun kimi yaltaq bir şəklə saldı.

–Bizim ustadımız bu günahkarlara belə bir təklif elədi: buyurun, öz-özünüzə əzab verin. Bizim verdiyimiz əzabları bəyənmirsinizsə, onda buyurun, özünüz-özünüzü incidin!

–Necə deyərlər, özünüidarə.–məmur kinayə ilə dilləndi.

Şeytan yerində oturaraq güldü:

–Hə, indi onlar da neçə vaxtdır, baş sındırıb düşünürlər. Yaxşı, qayıdaq sizin məsələnizə, nə deyirsiniz? Gərək bu işi tezliklə yoluna qoyaq.

Məmur fikrə getdi, o indi, iyrənc üzünə baxmayaraq, şeytana öz doğma qardaşı kimi ürək qızdırırdı və üzünü ona tutub soruşdu:

–Siz, hansı yolu məsləhət bilərdiniz?

Şeytan qaşqabağını tökdü:

–Yox, gəlin belə eləməyin. Burada mənlik heç nə yoxdur.

–Yox, mən cəhənnəmə düşmək istəmirəm!

–İstəmirsiniz, çox yaxşı. Onda bu kağıza qol çəkin.

Şeytan məmurun qarşısına bir kağız qoydu, bu vacib bir sənəddən çox, burun dəsmalına bənzəyən olduqca kirli, əzik-üzük bir kağız idi.

–Bax, buradan qol çəkin,–o caynağı ilə kağızın bir yerini göstərdi, sonra, məmurun çaşdığını görüb dedi: –Yox, yox, cəhənnəmə getmək istəsəniz oraya qol çəkin. Ölümü istəyirsənizsə, bax onda bura qol çəkməlisiniz.

Məmur qələmi biraz əlində saxladı, sonra köks ötürərək onu qırağa qoydu.

–Sizə asan gəlir,–o, tənə ilə dedi.–Mənim nə çəkdiyimi düşünmürsünüz. Zəhmət olmasa deyin görək, sizdə işgəncəni başlıca olaraq nə ilə verirlər? Odlamı?

–Odla da olur,–şeytan soyuqqanlıqla cavab verdi.–Hə, ancaq bizdə bayram günləri də olur.

–Nə danışırsınız!–məmur sevinclə dilləndi.

–Elədir. Bazar günlərində və müəyyən olunmuş bir sıra başqa günlərdə istirahət də verilir; şənbə günləri,–şeytan bu yerə çatanda uzun-uzadı əsnədi,–məşğələlər saat ondan onikiyə kimi olur.

–Nə yaxşı. Bəs, Milad bayramı necə?..

–Miladla Pasxada üç gün istirahət verilir, hə, bir də yayda bir ay tətil olur.

–Bəh, bəh!–məmur bərk sevindi.–Buna hətta, humanistlik də demək olar. Bu, mənim üçün gözlənilməz oldu! Yaxşı, birdən... xəstə olmağın haqqında ərizə yazsan necə, bununla nəyəsə ümid eləmək olarmı?

Şeytan uzun-uzadı, qınayıcı bir baxışla məmuru süzüb dedi:

–Belə axmaq fikirləri başınızdan çıxarıb atın.

Məmur utandı; elə şeytan da yüngülcə utanmış kimi görünürdü.

Sonra şeytan köks ötürüb göz qapaqlarını yumdu.

Ona baxanda adama elə gəlirdi, o ya bugün yuxudan yarımçıq durub, ya da bu, ölən məmurla yoxluq və ölümsüzlüklə bağlı elədiyi söhbət onu artıq bezdirib.

Şeytanın sağ qıçını örtən sıx qəzilin üstündə bir parça qurumuş palçıq gözə dəyirdi.

"Bu palçıq haradan onun qıçına yapışıb görəsən?–deyə, məmur düşündü.– Təmizləməyə də ərinir".

–Belə. Demək, yoxluq,–insan dalğınlıqla dilləndi.

–Yoxluq,–şeytan gözlərini açmadan, onun sözlərini əks-səda kimi təkrarladı.

–Ya da, əbədi həyat.

Ölmüş məmur çox uzun çəkən bir düşüncəyə daldı. Artıq, onun ölü duasını oxuyub qurtarmışdılar, ancaq o hələ də düşünürdü.

Ölünü basdırmaq üçün toplaşanlardan soruşan olsaydı: onun yasdığın üzərində uyuyan qeyri-adi dərəcədə zəhmli və ciddi üzünə baxanlardan heç biri, indi bu anlarda onun soyuyub buza dönmüş kəlləsində hansı əcaib yuxuların dolaşdığını deyə bilməzdi.

Bu, kimin ağlına gələ bilərdi? Onun başı üstündəki şeytanı da görən yox idi. Sonuncu buxurdan da tüstülənib söndü, yanyörəyə sönmüş mum şamların qoxusu, bir də nəliyi bəlli olmayan başqa bir iy yayılmışdı.

–Əbədi həyat,–şeytan gözlərini açmadan, dalğınlıq içində təkrar elədi.–İndi gəl buna əbədi həyatın nə demək olduğunu anlat görüm; deyir, sən, pis anladırsan–bu axmağa bunu necə anladasan, dediyin sözlər onun küt beyninə batacaqmı?

–Siz, bunu mənim üçünmü deyirsiniz?–məmur ümid duyulan bir səslə soruşdu.

–Ümumiyyətlə deyirəm. Mən balaca adamam, gördüyüm iş də kiçik sayılır, ancaq işə başlayanda elə böyük problemlər çıxır...

Şeytan dilxorçuluqla başını yellədi. Məmur da onun halına yanırmış kimi başını yırğalayıb dedi:

–Mən deyəsən sizin qanınızı yaman qaraltdım, birdən mən indi özüm...

–Sizdən çox xahiş eləyirəm, mənim şəxsi həyatıma qarışmayın,–şeytan özündən çıxdı,–mən başa düşə bilmirəm, burada şeytan kimdir: mənəm, yoxsa siz? Sizə sual verirlər, siz də konkret cavab verin: ölüm, yoxsa həyat?

Məmur yenə dərin düşüncələrə daldı. Bu məsələni necə həll eləməyi heç cür kəsdirə bilmirdi. Beyni hər ötən saniyədə getdikcə daha da çox korlandığındanmı, yoxsa anadangəlmə kütbeyinliyindənmi, o getdikcə daha çox əbədi həyatı seçməyə yönəlirdi.

"Əzab çəkmək nə deməkdir?–deyə, o düşünürdü.–Yoxsa, onun indiyədək yaşadığı həyat əzab deyildi? Buna baxmayaraq, yaşamaq necə də gözəl idi.

Əzab çəkmək qorxunc deyil, qorxunc olan ürəyin onlara qarşı dözümsüzlüyüdür. Ürək bu əzablara dözmür və dinclik, dinclik, yenə də dinclik... istəyir"

...Məmur qarşısına qoyulan suallara cavab axtramaqda ikən artıq onun cənazəsini qəbirstanlığa aparmağa başlamışdılar. Onun ölü duasını rəis işlədiyi departementin yaxınlığında oxumuşdular.

Yağış yağırdı, hamı çətir tutmuşdu, çətirlərdən süzülən yağış suyu səkiyə tökülüb axırdı. İslanmış səki parıldayırdı və xəfif külək onun üstündəki gölməçələri ləpələndirirdi.

"Axı ürək heç sevinclərə də dözümlü deyil,–bu dəfə məmur yoxluğu seçməyə yönələrək düşündü.–o sevinclərdən də yorulur və dinclik, dinclik, yenə də dinclik istəyir. Görəsən, təkcə mənimmi ürəyim belə tabsızdır, yoxsa bu elə hamının alnına yazılıb?

Ancaq sözün düzü, mən yaman yorulmuşam, ah nə yaman yorulmuşam" Birdən o, bu

yaxınlarda baş verən bir olayı xatırladı.

Bu, hələ xəstələnməmişdən qabaq olmuşdu. Evinə çoxlu qonaqlar yığışmışdı və o hamıyla çox böyük hörmətlə, gülərüz, dostyana davranırdı.

Şən keçən məclisdə çox gülmüşdülər, ən çox da o, gözləri yaşaranadək gülmüşdü.

Qonaqlığın şirin yerində o, özünün necə də xoşbəxt olduğunu düşünməyə macal tapmamış, birdən hansısa bir qüvvə onu yalqızlığa sürükləməyə başlamışdı.

Ancaq o, yalqızlığa qapılmaq üçün nə kabinetinə, nə də yataq otağına çəkilmişdi, adlı-sanlı məmur o anda, nədənsə, adamların təbii ehtiyaclarını ödədikləri yerə girərək, böyüklərin cəza verəcəyindən qaçan bir uşaq sayağı, orada gizlənmişdi.

Bax onda, o yalqızlıq içində bir neçə dəqiqə vaxt keçirmişdi və demək olar, yorğunluq-dan nəfəs almağa belə heyi olmadan bədənini və ruhunu bir anlığına ölümün ixtiyarına ver-mişdi, bu anlarda onun bu susqunluğu yalnız tabutda olan adamların durumuna bənzəmiş-di.

–Siz, gərək tələsəsiniz,–qaşqabağını tökmüş şeytan dilləndi.–Tezliklə hər şey sona yetəcək.

Şeytanın dediyi bu: "sona yetmək" deyimi heç yerinə düşmədi. Artıq ölümə təslim olmaq istəyən məmur bu sözü eşitcək, onda yaşamaq həvəsi yenidən baş qaldırdı və yaşamağa olan yanğısı köksündən qopan inlitili bir çığırtı ilə üzə çıxdı.

Aydınlaşmaq üzrə olan düşüncələri yenidən dolaşığa düşdü və məmur bu çətin məsələnin həllini taleyin ümidinə buraxmağı kəsdirdi.

–Bu kağıza gözüyumulu qol çəkmək olarmı?–məmur qorxa-qorxa şeytandan soruşdu.

Şeytan gözlərini qıyıb ona baxdı, başını yırğalayıb dedi:

–Əhəmiyyəti yoxdur.

Görünür, bayaqdan uzanan bu sorğu-suallar onu bərk bezdirmişdi–o, biraz düşündü, köksünü ötürdü və yenidən, əhəmiyyətli bir sənəddən çox burun dəsmalına oxşayan əzik-üzük kağızı məmurun qarşısına qoydu.

Məmur qələmi əlinə götürüb mürəkkəbə batırdı, sonra onu bir neçə dəfə silkib artıq mürəkkəbi qələmdana boşaltdı, gözlərini yumdu, barmağı ilə qol çəkəcəyi yeri tapdı və... qol çəkib qurtaran anda dözə bilməyib gözünün birini açaraq hansı maddəyə qol çəkdiyinə baxdı. Elə o andaca qışqırıb qələmi çırağa tulladı:

–Ah, mən nə etdim!–məmurun köksündən iniltili bir hıçqırıq qopdu.

Şeytan, sanasan, əks-səda kimi onun dediyini yamsıladı:

–Ah!

Onun ardınca divarlar və tavan da, ah çəkib inildədilər və yeriyərək, məmurun üstünə gəlməyə başladılar. Şeytan gülməkdən uğunaraq çıxıb getdi. O uzaqlaşdıqca, qəhqəhəsi boşluğa yayılaraq qorxunc bir uğultuya çevrilirdi.

...Bu vaxt artıq məmurun tabutunu qəbirə qoyub üstünü torpaqlayırdılar. İslaq torpaq yapışqanlanıb kəsəkləşdiyindən, tabutun üstünə töküldükcə gurultulu bir səs qoparırdı, üstünə tökülən torpağın yaratdığı tappıltını eşitdikcə, adama elə gəlirdi, tabut bomboşdur, onun içində heç kim, hətta mərhumun cənazəsi belə yoxdur.

*Rus dilindən tərcümə:*
**Araz Gündüz**



# WORLD'S MOST VISITED TOURIST ATTRACTIONS

## NEW ORLEANS

## BOURBON STREET

You'd have to be a pretty big curmudgeon for Bourbon Street not to put you in a good mood. Free-flowing music and booze might have something to do with it. Restaurants and bars pack this historic strip of the French Quarter; Jean Lafitte's Blacksmith Shop is even rumored to be haunted. Of course, if you really like crowds, grab your mask and join the Mardi Gras circus.

**ANNUAL VISITORS: 7,470,000**






Hong Kong Disneyland features tried-and-true crowd-pleasers like Sleeping Beauty's castle and Space Mountain as well as the recent additions of Mystic Point (2013), Grizzly Gulch (2012) and Toy Story Land (2011), increasing the park's size in the last three years by 25 percent. What sets this park apart from the others? It was designed according to the Chinese rules of feng shui in a nod to local culture. It also has a dedicated stop on Hong Kong's efficient metro.




This museum on Tiananmen Square measures 2.07 million square feet—surpassing New York's Metropolitan Museum of Art's 2 million square feet—and reopened in 2011 after a decade-long renovation. It presents 5,000 years of Chinese history, as approved by the Ministry of Culture. (In other words, don't expect much on the Great Leap Forward.) Artifacts include ancient Chinese Buddhist sculptures, a cowboy hat Deng Xiaoping wore on a visit to the U.S., and glazed pottery from the Tang dynasty. The museum also hosts temporary shows on subjects ranging from Leo Tolstoy to African art.



ANNUAL VISITORS: 7,000,000

# TAJ MAHAL, AGRA, INDIA

The Taj is a graceful tribute to eternal love—a mausoleum that a 17th-century Moghul emperor built for his favorite wife, Mumtaz Mahal. Gardens and reflecting pools with fountains lead to the mausoleum made of white marble with inlaid flower patterns made of semiprecious stones. The number of visitors has more than doubled since 2010 (when it welcomed 3 million).

**ALLAH RƏHMƏT ELƏSİN!**

Xəzər Universitetinin kollektivi universitetin hüquqşünası və müəllimi Akif Əlizadəyə anası

**Pustəxanım Abdıyevanın**

vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.
Allah rəhmət eləsin!

# XƏZƏR UNİVERSİTETİNİN
# DÜNYA MƏKTƏBİ

## BAKIDA VƏ SUMQAYITDA ŞAGİRD QƏBULU ELAN EDİR



Azərbaycan bölməsi üzrə I-IX
Rus bölməsi üzrə I-IX
İngilis bölməsi üzrə I-IV siniflərə
Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir.
Azərbaycan və rus bölmələrində ingilis ikinci dil kimi tədris olunur.İngilis dili beynəlxalq dil tədrisi standartlarına uyğun tədris olunur.
VII sinifdən başlayaraq şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.
Məktəbdə təcrübəli pedaqoqlar, o cümlədən xaricdən dəvət edilmiş mütəxəssislər çalışırlar.Burada biliklə yanaşı, şagirdlərin hərtərəfli inkişafına da böyük əhəmiyyət verilir. Dünya məktəbi Beynəlxalq Bakalavr Təşkilatının (İnternational Baccalaureate Organization-IBO), yəni Beynəlxalq Məktəb Şəbəkəsinin üzvüdür.Məktəbdə IB Diplom Proqramı fəaliyyət göstərir.
X sinif şagirdləri tam orta təhsillə yanaşı, öz istəkləri ilə Beynəlxalq Bakalavr Təşkilatının Proqramında təhsil ala bilərlər.Digər məktəblərin şagirdləri də imtahan verməklə Diplom Proqramına qəbul edilirlər. Diplom proqramında təlim ingilis dilindədir, təhsil müddəti iki ildir.Beynəlxalq Bakalavr Diplomu əldə edən şagirdlər dünyanın tanınmış universitetlərində təhsillərini davam etdirmək imkanı qazanırlar. IB Diplom proqramında təhsil almaq istəyən IX sinif şagirdləri üçün PRE IB, yəni IBDP-yə hazırlıq sinfi təşkil edilir.

**Ünvan:**

**Bakı, Əcəmi Naxçıvani 9**
**Tel.: (+994 12) 563 59 40 /47 /48**
**Mob.: (+994 70) 844 08 88**

**Sumqayıt, 44-cü məhəllə, Bakı küçəsi**
**Tel.: (+994 18) 642 30 97**
**Mob.: (+994 55) 669 96 33**

**E-mail: info@dunyaschool.az**
**http: // dunyaschool.az**

**XƏZƏR UNİVERSİTETİ**

**HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!**

# NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

## TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?

**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1 QRUP

- Kompüter elmləri
- Kompüter mühəndisliyi
- Neft-qaz mühəndisliyi
- İnşaat mühəndisliyi
- Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi
- Riyaziyyat və informatika müəllimliyi
- Fizika müəllimliyi

### 2 QRUP

- Mühasibat uçotu və audit
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Turizm və otelçilik
- Regionşünaslıq (Avropa)
- Beynəlxalq münasibətlər
- Coğrafiya müəllimliyi

### 3 QRUP

- İngilis dili və ədəbiyyatı
- Azərbaycan dili və ədəbiyyatı
- Tərcümə (ingilis dili)
- Politologiya
- İngilis dili müəllimliyi
- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Tarix müəllimliyi

### 4 QRUP

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Kimya və biologiya müəllimliyi
- Psixologiya

### 5 QRUP

- Dizayn